# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 236 (8552) CÜMƏ, 13 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





Ulu Öndərimizin daha bir müqəddəs vəsiyyəti yerinə yetirildi!

Şuşa düşmən işğalından azad edildi!

**Şuşa bizimdir!**

**Qarabağ Azərbaycandır!**

*Bu dövlətimizin qələbəsidir!*

*Bu xalqımızın qələbəsidir!*

*Bu ordumuzun qələbəsidir!*

**Dövləti bu qələbəyə İlham Əliyev gətirdi!**

**Xalqı bu qələbəyə İlham Əliyev səfərbər etdi!**

**Ordunu bu qələbəyə İlham Əliyev hazırladı!**

**Bu qələbənin şəriksiz və şəksiz qəhrəmanı da məhz cənab İlham Əliyevdir!**

❖ ❖ ❖

Şuşa qədim mədəniyyət mərkəzdir!

Şuşa ədəbiyyatımızın, musiqimizin, mənəviyyatımızın beşiyidir!

Şuşa şəhərlərimizin gözəli, dünya şəhərlərinin incisidir!

Şuşa xalqımızın sevgi ünvanı, ülviyyət məkanıdır!

**Şuşanın işğalı sinəmizə çəkilən çalın-çarpaz dağ idi!**

**Şuşanın işğalı arxadan kürəyimizə saplanan bıçaq idi!**

**Şuşanın işğalı bir millət olaraq məğlubiyyətimiz idi!**

**Əslində Şuşa çirkin oyunların qurbanı oldu!**

*Şuşa vəzifəni qeyrətindən, pulu şərəfindən yüksək tutanların qurbanı oldu!*

*Şuşa "daqqa papaq" qoyanların xəyanətinin qurbanı oldu!*

*Şuşa hakimiyyət uğrunda aramsız mübarizənin qurbanı oldu!*

*Şuşa ölkədə sabitliyin pozulmasının, qarşıdurmanın, Vətən uğrunda, milli maraqlar naminə birləşə bilməməyimizin qurbanı oldu!*

Beləliklə, Şuşanı itirdik!

Uzun müddətə itirdik!

Ağrıya-ağrıya, ağlaya-ağlaya itirdik!

❖ ❖ ❖

Düşmən Şuşanın dəyərini yaxşı bilirdi!

Ona məxsus olmasa da, özününküləşdirməyə çalışırdı və bu istiqamətdə nə bacarırdısa, edirdi!

Adını dəyişdirdi...

Xalqımıza məxsus tarixi, mədəni abidələri varvarcasına məhv etdi...

Qədim erməni şəhəri adı ilə dünya turizm mərkəzinə çevirməyə çalışdı...

Qondarma qurumun qondarma parlamentini Şuşaya köçürmək istədi...

Şuşanı qondarma "Dağlıq Qarabağ Respublikasının" paytaxtına çevirmək niyyətinə düşdü...

**Ermənistanın qudurmuş rəhbərləri tez-tez Şuşaya gəlir, bizə acıq verən tədbirlər keçirir, şəhəri özününküləşdirdiklərini nümayiş etdirirdilər...**

**Quduran isə qırx gün gedər - demişlər.**

❖ ❖ ❖

*Biz hamımız Şuşanın qaytarılmasını istəyirdik!*

*Biz hamımız tezliklə Şuşaya qovuşmaq istəyirdik!*

**Təəssüf ki, bəzən istəklə, arzu ilə reallıq arasında məsafə çox uzun olur, çox!**

*Ardı 4-cü səh.*

## Prezident İlham Əliyev "Facebook" səhifəsində Konstitusiya Günü ilə bağlı paylaşım edib



Prezident İlham Əliyev rəsmi "Facebook" səhifəsində Azərbaycan Respublikası Konstitusiyasının 25 illiyi ilə bağlı paylaşım edib.

Xatırladaq ki, müstəqil Azərbaycanın Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi yolu ilə qəbul edilib. Dövlətimizin Əsas Qanunu həmin il noyabrın 27-də qüvvəyə minib.

## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Konstitusiyasının 25 illiyi münasibətilə xalqımızı təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Azərbaycan Respublikası Konstitusiyasının 25 illiyi münasibətilə paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.

"Əziz həmvətənlər!

Azərbaycan Respublikası Konstitusiyasının 25 illiyi münasibətilə hamınızı səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram! Ölkəmizin bu illər ərzində keçdiyi yol xalqımız üçün azadlıqdan, dövlət müstəqilliyindən, sarsılmaz birlikdən dəyərli heç nə olmadığını göstərdi! Azərbaycan xalqının həmrəyliyi və ölkəmizin müstəqilliyi əbədi olsun! Qoy Vətənimizdə həmişə sülh və əmin-amanlıq hökm sürsün! Uca Tanrı sevimli, doğma Azərbaycanımızı qorusun!"

## Tarixə səs salan Qələbə

Vətən müharibəsi işğal altında olan torpaqlarımızın azad edilməsi ilə başa çatdı. Tarixini bu möhtəşəm Qələbə ilə şərəfləndirən Azərbaycan xalqı bütün dünyaya öz gücünü, haqqı uğrunda mübarizə aparmaq əzmini nümayiş etdirdi.

Bu zəfərlə biz Ermənistanın 30 illik işğalına son qoyduq, məğlubiyyət damğasını üzərimizdən götürdük. Torpaqlarımızı azad etməklə həm də bütün dünyada yenidən tanındıq, özü də bu dəfə qalib dövlət, qalib xalq kimi...



### Xalqımıza qalibiyyət sevincini yaşadanlar

Bu qələbənin altındakı imzanın müəllifi isə İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusudur. İlham Əliyevin ötən 17 ildə həyata keçirdiyi inkişaf strategiyasının ən böyük uğurlarından biri ordumuzun döyüş qabiliyyətinin artırılmasıdır. Ermənistanla aparılan 26 illik danışıqlar prosesi ilə paralel olaraq Azərbaycanda ordu quruculuğu intensiv şəkildə həyata keçirildi. Döyüş qabiliyyətinin yüksəldilməsi üçün yalnız kəmiyyət deyil, keyfiyyət dəyişikliklərinə üstünlük verildi. Uzun illərdir ki, Azərbaycan dünyada müasir döyüş imkanlarına malik ölkə kimi tanınır. İndiyə kimi keçirilmiş paradlarda, 2016-cı ilin Aprel döyüşlərində hər birimiz ordumuzun döyüş gücünü görüb fərəhlənmişdik.

44 günlük Vətən müharibəsi də ilk gündən müasir döyüş imkanlarından istifadə edən Azərbaycan Ordusunun müzəffər yürüşü ilə yadda qaldı.

*Ardı 7-ci səh.*

## Erməni faşizminin süqutu

Dünya alman faşizminin törətdiyi dəhşətləri hələ də xatırlayır. Ötən əsrin əvvəllərində Avropada baş qaldıran bu bəla Yer üzündə milyonlarla insanın ölümünə və bir çox ölkələrin dağılmasına səbəb olmuşdur.

Müttəfiq qoşunları Almaniya üzərində qələbə qazandıqdan sonra Hitlerin tör-töküntüləri üzərində Nürnberq məhkəməsi qurulsa və bəşəriyyətə qarşı dəhşətli cinayətlər törədən faşist cəlladları layiq olduqları cəzanı alsalar da, sonrakı baş verənlər göstərdi ki, bundan hamı dərs götürməmişdir.

Günü bugünəcən Ermənistanın bətnində faşizm yaşayır. Ermənilər Cənubi Qafqaza köçürüldüyü gündən bütün qonşularla, xüsusilə türklərlə faşizm ideologiyasından qaynaqlanan üsulla rəftar edirlər. Onlar bizə təkcə etnik deyil, həm də dini mənsubiyyətimizə görə nifrət bəsləyirlər. Deməli, erməni faşizmi mahiyyətinə görə daha qəddardır.

Lakin sual yarana bilər ki, əgər erməni faşistləri müsəlman aləmini hədəfə götürübsə, nə üçün onların bir çox islam ölkələri ilə yaxşı münasibətləri var? Elə erməni faşizmini fərqləndirən cəhət də gizli və məkrli olmasıdır. Əgər faşist ideologiyasının digər daşıyıcıları hədəf və məqsədlərini gizlətmirlərsə, ermənilər niyyətlərini gizli şəkildə həyata keçirməyə üstünlük verirlər.

*Ardı 8-ci səh.*



## Paşinyana qarşı qiyam başladı

### On minlərlə insan iqtidarın istefasını tələb edir

Son günlər Ermənistanda baş verənlər qarşıdakı dövrdə ölkəni daha ağır vəziyyətin gözlədiyini söyləməyə əsas verir. Hakimiyyətlə müxalifət arasında ziddiyyətlər daha kəskin mərhələyə qədəm qoyub. Baş nazir N.Paşinyanı xəyanətdə ittiham edən müxaliflər onun istefasını tələb edirlər.

*Ardı 9-cu səh.*

## COVID-19 həyəcanı

### Zaman bizdən məsuliyyətimizi artırmağı tələb edir

Artıq bir ilə yaxındır ki, bütün dünyada koronavirus adlı qorxulu və dəhşətli bir pandemiya tüğyan etməkdə və sönməməkdədir, əksinə, daha da alovlanmaqda və Yer üzünü bürüməkdədir.



Qorxuludur, ona görə ki, bu virusun xassələri lap başdan tibb elminə məlum deyildi və indi də çox xassələri naməlum qalıb. Dəhşətlisi odur ki, bu bəla müxtəlif fəsadlar törətmək qabiliyyətinə malikdir. Koronavirusun hələ ki, effektiv bir müalicə üsulu yoxdur.

O, gözəgörünməzdir, haradan və nə zaman gələcəyi məlum deyil və hətta ildırım sürətilə yayılmaq qabiliyyətinə malikdir. Həm də, bu virusu yayan insanların özləridir. Onu bədənlərində gəzdirən, yetişdirən, coxaldan və nəhayət hər tərəfə püskürdən insanlardır. Virusun kütləsi o qədər cüzidir ki, 1 qram maddədən praktiki olaraq sonsuz sayda virus əmələ gəlir.

*Ardı 9-cu səh.*

Prezidentə yazırlar

# "Cənab Prezident, Sizin adınız Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq"



Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qazandığı tarixi Qələbə Azərbaycan vətəndaşlarına, xaricdə yaşayan soydaşlarımıza böyük sevinc və qürur hissi yaşadır. Onlar dövlət başçısına ünvanladıqları məktublarda bu hisslərə görə minnətdarlıqlarını bildirirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Rusiyanın Novosibirsk şəhərindən **Mayis Məmmədov** yazır: "Cənab Prezident, Novosibirsk vilayəti ərazisində yaşayan bütün azərbaycanlılar adından və şəxsən öz adımdan Sizə Azərbaycan dövlətinin lideri olaraq həyata keçirdiyiniz quruculuq fəaliyyətinə və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olaraq qazandığınız zəfərlərə görə səmimi minnətdarlığımı bildirirəm. Sizin müasirlərinizin bəxti onda gətirib ki, biz Sizin rəhbərliyiniz altında həyata keçirilən, Azərbaycanın inkişafına, Azərbaycan xalqının mədəni və tarixi nailiyyətlərinin qorunmasına yönəlmiş yaradıcı fəaliyyətin şahidləriyik. Cənab Prezident, bütün Azərbaycan xalqı üçün əlamətdar hadisə - Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhərinin azad olunması ilə bağlı səmimi təbriklərimi qəbul edin. 2020-ci il 8 noyabr Azərbaycan tarixinə əbədilik yazıldı. Eyni zamanda, Ermənistanla Azərbaycan arasında illərdən bəri davam edən münaqişənin nizama salınması barədə 2020-ci il noyabrın 10-da müqavilə imzalanması münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Bu müqavilə regionda davamlı sülhə, əmin-amanlığa gətirib çıxaracaq və qan tökülməsinə son qoyacaqdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi regionda ən uzunmüddətli münaqişələrdən biridir və bu gün onun sona çatması, ilk növbədə, döyüş meydanında qələbə qazanan, çoxillik işğaldan azad olunmuş torpaqlarını geri qaytaran Azərbaycan xalqı üçün tarixi hadisədir. Azərbaycan Respublikasının bütün vətəndaşları diniətnik mənsubiyyətindən asılı olmayaraq, doğma torpaqlarda ədalətin zəfər çalması və haqqın bərpası üçün birləşdilər. Hörmətli cənab Prezident, Azərbaycan xalqının bu tarixi Qələbəsi, ilk növbədə, Sizin sayənizdə mümkün oldu. Siz dünya miqyaslı siyasətçi olaraq öz xalqınızı hər zaman düzgün yola istiqamətləndirirsiniz. Sizin adınız Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq. Biz - Sizin həmvətənləriniz, hansı ölkədə yaşamağımızdan asılı olmayaraq, Sizi dəstəkləyir və Sizinlə fəxr edirik, Azərbaycanın rifahı naminə bundan sonra da əlimizdən gələn hər şeyi edəcəyik. Tarixi ədalətin bərpası, işğal edilmiş ərazilərin qaytarılması, bütün dünyada Azərbaycanın tarixi və mədəniyyəti haqqında obyektiv fikir formalaşması ilə bağlı Sizin qarşıya qoyduğunuz və uğurla gerçəkləşdirdiyiniz məqsədlər vətənimizin ən yeni tarixinin formalaşmasına mühüm töhfədir. Möhtərəm cənab Prezident, Sizi ürəkdən təbrik edir, Sizə cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram".

Goranboy rayonundan **Zümrüd Quluyevanın** məktubunda deyilir: "Əziz Prezidentim, mən 9-cu sinifdə oxuyuram. Siz həsrətlə gözlədiyimiz ən şad xəbəri - Qarabağın azad olunması xəbərini bizə çatdırdınız. Bu sevinc hisslərini xalqımıza yaşatdığınız üçün Sizə sonsuz minnətdarıq. Sizi min yaşayın. Mən Sizinlə fəxr edirəm və qürur duyuram. Allah Sizi və Azərbaycan Ordusunu qorusun! Eşq olsun Ali Baş Komandana! Eşq olsun Ordumuza!"

Oğuz rayonunun sakini **Şahin İsayev:** "Dəyanətli, məğrur Prezidentim, Müzəffər Ali Baş Komandan, Siz qətiyyətlə haqq-ədaləti bərpa edərək xalqımızın inamını yenidən özünə qaytardınız. Sizi və müzəffər Azərbaycan Ordusunu Qarabağın tam azad olunması münasibətilə təbrik edirik. Ulu Tanrı Sizi, Azərbaycan Ordusunu, əsgər və zabitlərimizi qorusun! Qarabağ bizimdir!"

Ağdam sakini **Təbriz Aslanov:** "Hörmətli cənab Prezident, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Qarabağ və ətraf rayonların azad edilməsi üçün yürütdüyünüz siyasəti dəstəkləyirik. Sizin müdrik və uzaqgörən siyasətiniz nəticəsində torpaqlarımız yağı düşməndən təmizləndi. Sizə və şanlı Ordumuza təşəkkür edir və Allahdan qüvvət arzulayırıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Masallıdan **Səfalı Paşayev:** "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Ulu Öndərimiz Heydər Əliyevin siyasi kursuna sadiq qalaraq və onun vəsiyyətinə əməl edərək işğal altındakı torpaqlarımızı, xüsusilə də Şuşa şəhərini işğaldan azad etdiniz. Bu möhtəşəm hadisə ilə bağlı Siz başda olmaqla bütün xalqımızı təbrik edir və 9 Noyabr - Dövlət Bayrağı Günü ərəfəsində xalqımıza bu sevinci yaşadıb şanlı bayrağımızı Şuşada ucaltmaqla tarix yazdığınızı fəxarətlə vurğulayırıq. Əziz Prezidentimiz, Siz Şuşanın azad edilməsi xəbərini Şəhidlər xiyabanından xalqa çatdırmaqla mənəvi dəyərlərimizə sadiq, qeyrətli Azərbaycan oğlu olduğunuzu bir daha təsdiq etdiniz. Allah Sizi qorusun!"

İsmayıllıdan **Fazil Həsənov:** "Hörmətli Prezident, müzəffər Ali Baş Komandan, Sizi və şanlı Ordumuzu möhtəşəm Qələbə münasibətilə İsmayıllı Suvarma Sistemləri İdarəsinin kollektivi adından ürəkdən təbrik edirik. Sizə, Ordumuzun əsgər və zabitlərinə cansağlığı, uzun ömür və müvəffəqiyyətlər arzulayırıq. Şəhidlərimizin ruhu şad olsun! Yaşasın Ali Baş Komandan! Yaşasın Ordumuz! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!"

Zaqataladan **Fikrət Şərifov:** "Möhtərəm cənab Prezident, Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-dən keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində ard-arda rayonlarımızın düşmən tapdağından azad edilməsi Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Sizin müdrik rəhbərliyinizin nəticəsidir. Noyabrın 8-də Sizin Şuşa şəhərinin işğaldan azad edilməsi barədə televiziya vasitəsilə bizlərə çatdırdığınız xəbər Zaqatala Suvarma Sistemləri İdarəsinin kollektivini ürəkdən sevindirir, doğma vətənimizə daha böyük inamla xidmət etməyə ruhlandırır. Bütün Azərbaycan xalqı kimi idarəmizin mühəndis texniki işçiləri də tarixi torpağımızın erməni işğalından tezliklə azad olunacağına inanırlar. Xarici ölkələrdən olan jurnalistlərin suallarına cəsarətli və faktlara söykənmiş cavablarınızı idarənin bütün əməkdaşları qürur hissi ilə qarşılayır. Möhtərəm cənab Prezident, bizə böyük sevinc hissi yaşatdığınız üçün Sizə və rəşadətli Ordumuza ürəkdən təşəkkür edirik. Qarabağ Azərbaycandır!"

Naxçıvandan **Kamil Xudaverdiyev:** "Hörmətli Prezidentim, mənfur erməni işğalçıları üzərində müzəffər Ordumuzun qazandığı Qələbə münasibətilə Sizi təbrik edir, əllərinizdən öpürəm. Çünki bu müzəffər Ordunun Ali Baş Komandanı Sizsiniz, hərbi və siyasi zəfərlər Sizin sayənizdə əldə edildi. Son 273 ildə Azərbaycan tarixində heç bir hökmdar, heç bir dövlət başçısı itirilmiş Azərbaycan torpaqlarını geri qaytarmağa nail olmamışdı. Bu missiyanı Ulu Öndərimiz Heydər Əliyevin oğlu, onun layiqli varisi İlham Əliyev şərəflə yerinə yetirdi. Siz millətin xilaskarı kimi zirvəyə ucaldınız. Eşq olsun Azərbaycanın yeni tarixini yazan polad iradəli, cəsur sərkərdə, məharətli diplomat, müdrik siyasətçi, xalqımızı yumruq kimi birləşdirən əbədi Prezidentimiz İlham Əliyevə! Allah Sizi qorusun!"

Abşeron rayonundan **Emin Carçıyev:** "Müzəffər Ali Baş Komandan, Sizi Vətən müharibəsində qazandığımız Qələbə münasibətilə öz adımdan, ailəmin hər üzvü adından, Abşeron gəncləri adından təbrik edirəm. Bizə bəxş etdiyiniz bu Qələbəyə görə Sizə minnətdarıq, Sizə borcluyuq. Siz hər zaman bizim inanc yerimiz, güvənc yerimiz oldunuz. Sizinlə fəxr edirik. Tanrı Sizi qorusun! Var olun, Müzəffər Ali Baş Komandanım!"

İmişlidən **Rüstəm Qüdrətov:** "Müzəffər Ali Baş Komandan, Qarabağımızın 30 illik işğalına son qoyuldu. Sizə edilən çoxlu təzyiqlərə baxmayaraq, torpaqlarımızı işğaldan azad etdiniz. Uzun müddət apardığınız siyasi-diplomatik səyləriniz hərbi güclə tamamlanaraq öz bəhrəsini verdi. İmişli rayon kommunistləri olaraq Sizin və qəhrəman Ordumuzun əsgərləri qarşısında baş əyirik. Sizə gələcək işlərinizdə uğurlar arzulayırıq".

Tərtər rayonunun sakini **Fərid Əsgərov:** "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, bu günlər xalqımız tarixi bir dönəm yaşayır. Sizin rəhbərliyiniz altında müzəffər Ordumuz Qarabağ torpaqlarını erməni işğalından azad etdi. Hər gün döyüş bölgələrindən şad xəbərlər gəlir. Hər bir azərbaycanlı kimi mən də buna sevinirəm, qəlbim riqqətə gəlir. Cənab Prezident, Siz xalqın sevimlisinə çevrilmisiniz. Biz Sizin hər bir çıxışınızı səbirsizliklə gözləyir və dərin vətənpərvərlik hissi ilə dediyiniz sözlərdən mütəəssir oluruq. Bəzən gözlərim yaşla dolur, ürəyim Sizə minnətdarlıq hissi ilə döyünür. Əvvəllər mətbuat sahəsində işlədiyimə görə, mən özüm də bu tarixi günlərdə xalqımızın qələbə ruhunu yüksəltmək üçün müxtəlif mətbuat orqanlarında yazılarla çıxış edirəm. Hazırda işlədiyim Ağdam rayonu Qasımbəyli qəsəbəsində yerləşən idarəmiz, o cümlədən yaşadığım Tərtər rayonu Köçərli kəndi tez-tez erməni faşistlərinin atəşlərinə məruz qalırdı. Bu cür təhlükəli şəraitdə mən öz işimi vicdanla yerinə yetirirəm. Qorxmadan, çəkinmədən doğma Qarabağda yaşamaqdan və işləməkdən zövq alıram. Daim ürəyimiz dədə-baba yurdlarımıza qayıtmaq hissi ilə döyünür. Hörmətli Prezident, mən özümü Sizin əsgəriniz hesab edirəm. Bütün sahələrdə Sizə sədaqətlə xidmət etmək əhvali-ruhiyyəsi ilə yaşayıram. Hələ 2015-ci ildə hərbi xidmət keçdiyim zaman Siz bizim hərbi hissənin açılış mərasiminə gəlmiş, məzmunlu çıxış etmişdiniz. Həmin görüş və çıxışınız hafizəmdə və qəlbimdə daim yaşayır, məni dövlətim üçün daha faydalı işlər görməyə sövq edir. Sizin ölkəmizin tərəqqisi naminə apardığınız daxili və xarici siyasəti daim dəstəkləmişəm, bunu özümə mənəvi borc və vətəndaşlıq vəzifəsi hesab edirəm. Cənab Prezident, indiki Vətən müharibəsi göstərdi ki, Siz dinc şəraitdə də, müharibə şəraitində də ölkəni məharətlə idarə edirsiniz. Bu müharibə həm də Sizin sərkərdəlik istedadınızı üzə çıxardı. Hərbi əməliyyatlara, müzəffər Ordumuza uğurla komandanlıq etdiniz. Bizim işimiz haqq işidir, Allahın mərhəməti üstümüzdədir. "Qisas qiyamətə qalmaz" demişlər, elə də oldu. Allah Sizi qorusun, müzəffər Ordumuza yardımçı olsun! Qarabağ Azərbaycandır!"

Ağdam sakini **Elbrus Abdullayev:** "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Şuşa şəhərinin işğaldan azad olunması, cəbhədə qazandığımız qələbələr münasibətilə Sizi və xalqımızı təbrik edir, qarşınızda baş əyirəm. Sizin xalça üzərində toxunmuş şəkliniz evimizdən asılıb. Hər dəfə şəklinizi görəndə Uca Tanrıdan Sizə cansağlığı, uzun ömür arzulayıram. Dualarımız Sizinlədir. Var olun, cənab Prezident!"

Daşkəsən sakini **Sərvinaz Qurbanova:** "Hörmətli cənab Prezident, mən bir zəhmətkeş Azərbaycan qadını kimi, Sizinlə fəxr edirəm. Eşq olsun Sizə, əziz Prezidentim! Hər zaman var olasınız! Siz bizim dayağımızsınız. Biz xalq olaraq hər zaman Sizin arxanızdayıq. Yaşasın Müzəffər Ali Baş Komandanımız! Yaşasın Azərbaycan xalqı!"

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli İlham Heydər oğlu.

Döyüş əməliyyatlarının dayandırılması, Rusiya, Azərbaycan və Ermənistan arasında əldə edilmiş razılaşmalarla əlaqədar Sizi və bütün Azərbaycan xalqını təbrik edirəm. Bu razılaşmalar Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcək, regiona çoxdan gözlənilən sülh gətirəcək. Uzun müddət davam etmiş bu münaqişənin nizamlanmasında Sizin göstərdiyiniz mərdlik, müdriklik, əzm və təmkinə ancaq qibtə etmək olar. Beləliklə, köçkünlərin dinc quruculuq əməklə məşğul olmaq üçün öz doğma evlərinə qayıtmalarına yol açılır. Siz dahi atanızın vəsiyyətini həyata keçirdiniz.

Əminəm ki, Rusiya-Azərbaycan əlaqələri bundan sonra da ənənəvi dostluq və qarşılıqlı anlaşma ruhunda inkişaf edəcək.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq və uğurlar, Azərbaycan vətəndaşlarına sülh və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin müavini***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

İcazə verin, Sizi və Sizin şəxsinizdə bütün Azərbaycan xalqını böyük tarixi hadisə münasibətilə səmimi-qəlbdən təbrik edim.

Cənab Prezident, bu hadisə Sizin ardıcıl surətdə yürütdüyünüz müdrik siyasətin nəticəsidir. Bu siyasət Azərbaycan xalqının çoxillik məqsədinə çatmasına, Azərbaycan Respublikasının ədalətə, beynəlxalq normalara və beynəlxalq hüququn prinsiplərinə sadiqliyini möhkəmlətməyə imkan verib.

Şəksizdir ki, bu qələbə regiondakı bütün dövlətlərin və qonşu ölkələrin rifahına və sülh maraqlarına xidmət edəcək.

Bu tarixi məqamda dahi Heydər Əliyevi xatırlamaya bilmərəm. Azərbaycan xalqı və biz hamımız onun xatirəsini daim əziz tuturuq.

Hörmətli cənab Prezident və Ali Baş Komandan, bu tarixi dövrdə Siz tarixə düşdünüz və Sizin ətrafınızda sıx birləşmiş Azərbaycan xalqı üçün həqiqətən böyük qəhrəman oldunuz!

Möhtərəm İlham Heydər oğlu, icazə verin, Sizə, sevimli Azərbaycana və onun gözəl, mərd xalqına bir daha səmimi-qəlbdən cansağlığı, firavanlıq, aydın və dinc səma arzu edim!

Dərin hörmətlə, həmişə Sizinlə və Azərbaycan xalqı ilə olan

***Tatyana ANODİNA,***
***Dövlətlərarası Aviasiya Şurasının prezidenti, Dövlətlərarası Aviasiya Komitəsinin sədri***

❖ ❖ ❖

Möhtərəm Prezident, cənab Ali Baş Komandan.

Qarabağ - Vətən müharibəsində qazanılan möhtəşəm qələbə münasibətilə, sevinc və həyəcan dolu böyük fəxarət və qürur hissi ilə Sizə ən səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaq istərdik.

Zati-aliləri, Siz Azərbaycanın yeni tarixini qızıl hərflərlə yazdınız. Bu şanlı zəfər Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq Sizin müdrik, uzaqgörən siyasətiniz, böyük zəhmətiniz, əzmkarlığınız və qətiyyətiniz sayəsində əldə edildi.

Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının azadlığı uğrunda şəhid olanlara Allahdan rəhmət, onların kədərli ailələrinə, başda Zati-aliləri cənab Ali Baş Komandan olmaqla, Azərbaycan xalqına və Azərbaycan Ordusuna dərin hüznlə başsağlığımızı çatdırır, yaralananlara şəfa və tezliklə sağalmalarını diləyirik.

Bu tarixi bir gündə başda Müzəffər Ali Baş Komandan olmaqla, dost və qardaş Azərbaycan xalqını bir daha təbrik edir, daim sülh və əmin-amanlıq arzulayırıq.

*Hörmətlə,*

***Levent KAFKAZLI,***
***"Tekfen İnşaat" şirkətinin İdarə Heyətinin sədri***

*Türkiyə Respublikası, İstanbul şəhəri*

❖ ❖ ❖

Hörmətli Prezident, cənab Ali Baş Komandan.

Sizi Allahın adı ilə salamlayıram. Uca Allah Sizi qorusun.

Rəhbərliyiniz altında Azərbaycan Ordusunun işğal edilmiş torpaqları geri qaytarmaq yolunda bir-birinin ardınca qazandığı qələbələrin xəbərini böyük sevinc və fərəh hissi ilə aldıq. Qələbə xəbərləri haqqın, ədalətin, beynəlxalq hüququn tərəfdarı olan hər bir azad insan üçün fəxrdir. Mən də sevinirəm ki, qəlbində Azərbaycan sevgisi olan bir insan kimi bu xoş günlərin şahidiyəm.

Mənim Azərbaycana sevgim Birinci Qarabağ müharibəsi illərindən başlayıb. Həmin vaxt ermənilər doğma Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, 1 milyona qədər insanı ata-baba yurdlarından didərgin salmışdılar. Bəli, mən 30 il bundan əvvəl ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri qətliamın və zülmün şahidi olmuşam. Mən fəxr edirəm ki, Küveyt Dövləti Ümumdünya İslam Xeyriyyə Təşkilatının Asiya Müsəlmanları Komitəsinin rəhbəri olduğum vaxt 20 ildən çox Azərbaycan xalqının, xüsusən öz vətənlərindən didərgin düşmüş insanların xidmətində dayanmışam. Bu məqamda mən 1996-cı il oktyabr ayının 16-da Asiya Müsəlmanları Komitəsinin təşəbbüsü və Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə təşkil olunmuş beynəlxalq konfransı xatırlamaq istəyirəm. Həmin konfrans qaçqınlar və məcburi köçkünlərin problemlərinə həsr olunmuşdu. Həmin konfransdan sonra Azərbaycanın haqq mübarizəsinə xidmət məqsədilə daxili və xarici arenada böyük xeyriyyə işləri bir-birini əvəzləmişdir.

Cənab Prezident, Allaha şükür olsun ki, bu gün Sizin rəhbərliyinizlə Azərbaycan xalqı və Ordusu Qarabağı azad edir və biz bu məsud anları yaşayırıq.

İcazə verin, Sizi, doğma Azərbaycan xalqını, sülh, ədalət istəyən bütün azad xalqları bu parlaq qələbələr münasibətilə təbrik edim.

Qələbə Azərbaycanladır! Qarabağ Azərbaycandır!

*Dərin hörmət və ehtiramla,*

***Azərbaycanın dostu - Adil Abdullah əl-FƏLAH,***
***Küveytin vəqflər və dini işlər nazirinin sabiq birinci müavini, Küveyt Dövləti Ümumdünya İslam Xeyriyyə Təşkilatı Asiya Müsəlmanları Komitəsinin Direktorlar Şurasının sabiq sədri***

*Küveyt Dövləti, Əl-Küveyt şəhəri*

❖ ❖ ❖

Möhtərəm Prezident, cənab Ali Baş Komandan.

Otuz ilə yaxın işğal altında olan Azərbaycan torpaqlarının azadlığa qovuşacağı günü böyük səbirsizliklə gözləyirdik. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azadlığı uğrunda sentyabrın 27-də başlayan Vətən müharibəsinin Sizin, cənab Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində qələbəsi ilə nəticələnəcəyinə inamımız tam idi.

Çox çəkmədən Sizdən, möhtərəm cənab Prezident, böyük qələbə xəbərini aldıq. Vətən müharibəsində Qələbə münasibətilə başda Siz olmaqla, şanlı Azərbaycan Ordusunu, dost və qardaş Azərbaycan xalqını TEKFEN şirkəti adından və şəxsən öz adımdan iftixarla dolu sevinc hissi ilə təbrik edirəm.

Vətən uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət, yaralananlara şəfa diləyirik.

Azərbaycan Respublikasının daha böyük gələcəyi, dost və qardaş Azərbaycanın daha firavan həyatı naminə Zati-alinizə yüksək nailiyyətlər arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Murat GİGİN,***
***"Tekfen Holdinq" şirkətlər qrupunun İdarə Heyətinin sədri***

*Türkiyə Respublikası, İstanbul şəhəri*

❖ ❖ ❖

Zati-aliləri, hörmətli İlham Heydər oğlu.

İcazə verin, Qırğız Respublikasının Joqorku Keneşinin (parlamentinin) Azərbaycan Respublikası ilə dostluq qrupunun adından və şəxsən öz adımdan Sizinlə səmimi həmrəyliyimizi və Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyimizi bildirim.

Keçmiş SSRİ xalqları bilirlər ki, arxiv sənədlərinə və tarixi sənədlərə, beynəlxalq hüququn bütün normalarına əsasən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir.

Parlamentlərarası dostluq qrupu Azərbaycanın öz xalqını müdafiə etmək və ərazi bütövlüyünü beynəlxalq hüquqa uyğun olaraq özünümüdafiə hüququ çərçivəsində bərpa etmək səylərini dəstəkləyir.

Biz tərəfləri 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında imzalanmış birgə bəyanatın bütün bəndlərini yerinə yetirməyə çağırırıq.

Biz beynəlxalq ictimaiyyəti uzun illər boyu Ermənistanın təcavüzündən və hücumlarından əziyyət çəkən Azərbaycanın yanında olmağa çağırırıq. Eyni zamanda, müharibədə həlak olmuş azərbaycanlı qardaşlarımızın ruhuna dua edir, yaralananlara şəfa diləyirik.

*Dərin hörmətlə,*

***Tazabek İKRAMOV,***
***Qırğız Respublikasının Joqorku, Keneşinin Azərbaycan-Qırğızıstan dostluq qrupunun rəhbəri***

❖ ❖ ❖

Zati-aliləri.

Sizi və Azərbaycan xalqını ölkənizin Dağlıq Qarabağ bölgəsinin böyük hissəsinin işğaldan azad olunması, eləcə də müharibəyə son qoyan və 2020-ci il dekabrın əvvəlinə qədər işğal altında olan digər ərazilərin azad edilməsini nəzərdə tutan razılaşmanın imzalanması münasibətilə təbrik etməkdən şərəf hissi duyuram.

Bu qələbə Sizin müdrik rəhbərliyinizlə ordunuzun güclü iradəsi və qəhrəmanlıq ruhu sayəsində əldə olunub.

Ölkənizin sadiq tərəfdarı və səmimi dostu olmağımla fəxr edirəm.

Biz Nizami Gəncəvi Beynəlxalq Mərkəzində bu münaqişə ilə bağlı həqiqətlərin təbliği və Ermənistanın təcavüzünün pislənilməsi istiqamətində dostumuz və mərkəzin Baş katibi ilə davamlı olaraq əməkdaşlıq edirik.

Biz bu qələbənin əldə olunmasına görə çox xoşbəxtik və regionda sülhün bərqərar olmasını səbirsizliklə gözləyirik.

Zati-aliləri, Sizə olan dərin hörmət və ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

***Əbdüləziz bin Osman əl-TUVEYCRİ,***
***ISESCO-nun sabiq Baş direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

İcazə verin, Sizi böyük Qələbə münasibətilə Beynəlxalq Türk Akademiyasının rəhbərliyi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edim.

Bu böyük Qələbə Sizin yorulmaz əməyinizin, illər boyu böyük ustalıqla formalaşdırdığınız xarici siyasət və diplomatiyanın, sarsılmaz daxili harmoniyanın, Azərbaycan xalqının birlik və bərabərliyinin məhsuludur.

Möhtərəm cənab Prezident, Siz əvəzsiz fəaliyyətiniz, böyük qətiyyətinizlə yalnız müqəddəs torpaqları düşmən tapdağından qurtarmadınız, haqsızlıqların, ikili standartların hökm sürdüyü dünyada həqiqəti, ədaləti bərpa etdiniz.

Sayənizdə qardaş Azərbaycan xalqı tarixinin ən böyük zəfərlərindən birinə şahidlik etmiş oldu. Siz bütün türk xalqlarının qəlblərinin fatehi oldunuz, tariximizə qalib Prezident kimi düşdünüz. Türk dünyası üçün xidmətlərinizi xalqlarımız heç zaman unutmayacaq.

Zati-aliləri, hörmətli cənab Prezident, Ali Baş Komandan, bir daha Sizi, qardaş Azərbaycan xalqını, rəşadətli Azərbaycan Ordusunun şəxsi heyətini və zabitlərini bu əlamətdar gün, tarixi zəfər münasibətilə təbrik edir, böyük ehtiramımı çatdırmaqdan şərəf duyduğumu bildirirəm.

Qardaş Azərbaycanın Dövlət Bayrağı hər yerdə daim yüksəklərdə dalğalansın!

*Dərin hörmətlə,*

***Darxan KIDIRƏLİ,***
***Beynəlxalq Türk Akademiyasının prezidenti***

*Qazaxıstan Respublikası, Nur-Sultan şəhəri*

# Əlcəzair Azərbaycanla siyasi, iqtisadi, humanitar, mədəni sahələrdə əlaqələrin inkişafında maraqlıdır

Noyabrın 12-də Milli Məclisin Sədri Sahibə Qafarova Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki səfiri Salima Abdelhak ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Sahibə Qafarova Azərbaycanın ölkəmizin müstəqilliyini tanıyan ilk dövlətlərdən biri kimi Əlcəzairlə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib. Milli Məclisin Sədri bu görüşün ölkəmiz üçün əhəmiyyətli tarixi günlərin yaşandığı bir dönəmdə - Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdiyi vaxtda baş tutduğunu diqqətə çatdırıb. Sahibə Qafarova ölkəmizin erməni işğalçılarına qarşı mübarizəsində tutduğu mövqeyə görə qarşı tərəfə minnətdarlığını bildirib.

Söhbət zamanı qeyd edilib ki, ölkələrimiz arasındakı münasibətlər qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə söykənir. Parlamentlər səviyyəsində də müsbət inkişaf dinamikası mövcuddur. Ortaq maraqların olduğu beynəlxalq və regional məsələlərin həllində, xüsusilə Qoşulmama Hərəkatı çərçivəsində əlaqələrimiz davam etdirilir. Bu əməkdaşlıq sülhün, təhlükəsizliyin təmin olunması baxımından əhəmiyyətlidir.

Qeyd olunub ki, yüksəksəviyyəli qarşılıqlı səfərlər və aparılan danışıqlar ikitərəfli münasibətlərin daha da dərinləşməsinə xidmət edir. Siyasi dialoqun inkişafı həyatın digər sahələrinə də öz təsirini göstərir. Biz parlamentlər səviyyəsində əlaqələrimizin inkişafında maraqlıyıq. Deputatlarımızın qarşılıqlı səfərlərinin ümumi işə töhfə verəcəyinə inanırıq.

Səmimi görüşə görə minnətdarlığını bildirən Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki səfiri Salima Abdelhak ölkəsinin Azərbaycanla siyasi, iqtisadi, humanitar, mədəni sahələrdə əlaqələrin inkişafında maraqlı olduğunu söyləyib. Səfir qeyd edib ki, siyasi dialoqun davamlılığı ikitərəfli və çoxtərəfli əməkdaşlığımızın daha da dərinləşməsinə töhfə verir.

Bildirilib ki, parlamentlər səviyyəsində münasibətlərin dərinləşməsi deputatlar tərəfindən müxtəlif platformalarda tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparmaq baxımından çox önəmlidir.

Görüşdə gender bərabərliyi, cəmiyyətdə və siyasətdə qadınların rolu, COVID-19 pandemiyasına qarşı mübarizə barədə və tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Müdafiə naziri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşdiriləcək Rusiya sülhməramlı qüvvələrinin komandanı ilə görüşüb



Noyabrın 12-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin birgə bəyanatına əsasən əməliyyat zonasında yerləşdiriləcək Rusiya sülhməramlı qüvvələrinin komandanı general-leytenant Rüstəm Muradovla görüşüb.

Görüşdə sülhməramlı missiyanın təşkili və həyata keçirilməsi məsələləri müzakirə edilib.

# Milli Məclisin Sədri Fransa Parlamentinin nümayəndə heyəti ilə görüşüb

Noyabrın 12-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Fransa Parlamentinin Azərbaycanla dostluq qrupunun vitse-prezidenti Jerom Lamberin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə spiker Sahibə Qafarova ölkələrimiz arasında əlaqələrin zəngin tarixinin olduğunu bildirib. Qeyd olunub ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkələrimiz arasında əməkdaşlığın daha da dərinləşməsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub. Bu gün bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva əlaqələrimizin hərtərəfli inkişafına böyük töhfələr verib. Mehriban xanım Əliyeva vaxtilə Milli Məclisdə Fransa ilə dostluq qrupunun sədri kimi parlamentlərarası münasibətlərimizin dərinləşməsində mühüm rol oynayıb. Heç də təsadüfi deyil ki, məhz bu sahədəki fəaliyyətinə görə Mehriban Əliyeva Fransa Respublikasının "Şərəf Legionunun Zabiti" dövlət ordeni ilə təltif edilib.

Milli Məclisin Sədri qeyd edib ki, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığımız yüksələn xətlə inkişaf etməkdədir. Əlaqələrimizin inkişafında parlamentlərimizin rolu böyükdür. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsi təqdirəlayiqdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən söz açan Sahibə Qafarova bildirib ki, Ermənistanın növbəti təxribatından sonra sentyabrın 27-də Azərbaycan Ordusu əks-hücum əməliyyatına və Dağlıq Qarabağda öz ərazi bütövlüyünü bərpa etməyə başlayıb. Milli Məclisin Sədri təəssüf hissilə qeyd edib ki, müxtəlif səviyyələrdə əlaqələrimizin mövcudluğuna baxmayaraq, Fransa tərəfi, o cümlədən Fransa dostluq qrupunun sədri bu məsələdə Azərbaycanın haqlı mövqeyinə dəstək ifadə etməyib. Əksinə, Fransanın bir sıra yüksəksəviyyəli rəsmilərinin dilindən Ermənistanın işğalçılıq siyasətini dəstəkləyən fikirlər səslənib. Bu ölkənin Avropa və xarici işlər üzrə naziri Jan-İv Lö Drianın son bəyanatı isə Fransanın ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi qismində mandatına uyğun deyil və tamamilə qərəzli xarakter daşıyır. Bütün bunlar, təbii olaraq, Azərbaycan ictimaiyyətində haqlı narazılıq doğurur. Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində öz ərazi bütövlüyünü bərpa edib. Bu, ölkəmizin qanuni haqqıdır.

Sahibə Qafarova Fransa nümayəndə heyətinin üzvlərinin ölkəmizə səfəri zamanı keçirilən görüşlərdə səslənən fikirlərin Fransa Milli Assambleyasında səsləndiriləcəyinə inamını ifadə edib. Ümidvar olduğunu bildirib ki, bu səfər ölkələrimiz arasında münasibətlərin inkişafına yeni təkan verəcək.

Görüşə görə minnətdarlığını bildirən Fransa-Azərbaycan dostluq qrupunun vitse-prezidenti Jerom Lamber ölkəmizə dost kimi səfər etdiklərini söyləyib. Müstəqil Azərbaycanın fransalı dostları Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinə sevinirlər. Qonaq parlamentlər səviyyəsində münasibətlərin bundan sonra da inkişaf etdirilməsini önəmli hesab etdiyini və bu əlaqələrə mühüm əhəmiyyət verdiyini vurğulayıb.

Jerom Lamber Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın ölkələrimiz arasında münasibətlərin inkişafına verdiyi töhfələri yüksək dəyərləndirib.

Eyni zamanda, bildirilib ki, dostluq qrupunun üzvləri burada gördüklərini və Azərbaycan tərəfinin fikirlərini Fransa ictimaiyyətinə və öz həmkarlarına çatdıracaqlar.

Qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan qonaq bu cür görüşlərin regionda baş verən proseslərlə yaxından tanış olmaq, informasiya mübadiləsi baxımından önəmini vurğulayıb.

Görüşdə çıxış edən Fransa-Azərbaycan dostluq qrupunun üzvləri parlamentlərarası əlaqələrin inkişafı, Cənubi Qafqazda baş verən proseslərlə bağlı fikirlərini bölüşüblər.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Türkiyə şirkətləri işğaldan azad edilmiş ərazilərdə aparılacaq quruculuq layihələrində iştirakda maraqlıdır



Türkiyə şirkətləri Azərbaycana investisiya yatırmaqda, işğaldan azad edilmiş ərazilərində həyata keçiriləcək quruculuq layihələrində iştirakda maraqlıdır.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov və Türkiyənin Ticarət naziri Ruhsar Pekcan arasında onlayn formatda görüş keçirilib. Görüşdə İqtisadiyyat naziri vurğulayıb ki, hər iki ölkənin dövlət başçılarının səmimi münasibətləri Azərbaycan-Türkiyə əməkdaşlığının inkişafını şərtləndirən əsas amillərdəndir və dostluğa, qardaşlığa əsaslanan əlaqələrimiz yüksələn xətlə inkişaf edir. M.Cabbarov Türkiyənin hər zaman Azərbaycan xalqının yanında olduğunu, ölkəmizin haqlı mövqeyinə qəti və birmənalı dəstək göstərdiyini, "Bir millət, iki dövlət" olaraq daim sevincimizi və kədərimizi bölüşdüyünü qeyd edib, türkiyəli həmkarına və Türkiyə xalqına təşəkkürünü bildirib. Qeyd olunub ki, iqtisadi-ticarət əlaqələrimiz genişlənir, Azərbaycan və Türkiyə regional və beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələrini uğurla həyata keçirirlər. Bununla belə, iki qardaş ölkə arasında iqtisadiyyatın bir çox sahələrində, o cümlədən investisiya, enerji, sənaye, nəqliyyat, İKT, kənd təsərrüfatı, ticarət, təhsil və sair sahələrdə əməkdaşlığın inkişafı imkanları genişdir.

Bildirilib ki, son dövrlərdə Azərbaycan ərazisindən keçməklə Türkiyədən Asiyaya və əks istiqamətdə daşınan tranzit yüklərin həcmində əhəmiyyətli artım müşahidə edilir və yükdaşımaların daha da artırılması üçün birgə səylər göstəriləcək. Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyət istiqamətləri barədə məlumat verən İqtisadiyyat naziri Türkiyə ilə qarşılıqlı investisiya qoyuluşlarının artmasında önəmli platforma olduğunu diqqətə çatdırıb.

Görüşdə Azərbaycanın qardaş Türkiyə ilə qarşılıqlı ticarət dövriyyəsinin artırılmasında maraqlı olduğu, Naxçıvan Muxtar Respublikasında Türkiyənin ticarət müşavirinin fəaliyyətə başlamasının bu sahədə əlaqələrin genişlənməsində əhəmiyyəti qeyd edilib.

Türkiyənin Ticarət naziri Ruhsar Pekcan qələbə münasibətilə İqtisadiyyat naziri M.Cabbarovu və Azərbaycan xalqını təbrik edib, ölkəmizin bu zəfərinin Türkiyədə böyük ruh yüksəkliyi və sevinclə qarşılandığını vurğulayıb. Bildirilib ki, Türkiyə şirkətləri Azərbaycana investisiya yatırmaqda, işğaldan azad edilmiş ərazilərində həyata keçiriləcək quruculuq layihələrində iştirakda maraqlıdır.

Görüşdə Azərbaycan və Türkiyə arasında Preferensial Ticarət Sazişinin icrası, iqtisadi əlaqələrin inkişaf perspektivləri, investisiya, inşaat, ticarət, nəqliyyat-tranzit və digər sahələrdə əməkdaşlığın inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Fransa Milli Assambleyasının üzvləri Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər

Azərbaycanda səfərdə olan Fransa Respublikası Milli Assambleyasının üzvlərindən ibarət nümayəndə heyəti noyabrın 12-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gedən qonaqlar ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə güllər düzüblər.

Fransa-Azərbaycan parlamentlərarası dostluq qrupunun vitse-prezidenti Jerom Lamber jurnalistlərə müsahibəsində deyib ki, Azərbaycana budəfəki səfərləri tarixi bir dövrə təsadüf edir. Azərbaycan 30 il əvvəl itirdiyi torpaqları indi geri qaytarır və beynəlxalq hüquq öz yerini tapır. Biz artıq müharibə gedən deyil, sülhün bərqərar olduğu bir ölkəyə gəlmişik.

## Milli Məclis Azərbaycan Prezidentinə və Azərbaycan xalqına müraciət ünvanlayacaq

Noyabrın 13-də Azərbaycan Respublikası Milli Məclisinin iclası keçiriləcək.



AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına Milli Məclisin müraciəti məsələsi daxil edilib.

## İşğaldan azad edilmiş rayonların polis şöbələrinin rəisləri həmin rayonların müvəqqəti komendantları təyin olunublar

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı rəhbər tutularaq Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun imzaladığı əmrlərlə işğaldan azad edilmiş rayonların polis şöbələrinin rəisləri həmin rayonların müvəqqəti komendantları təyin olunublar. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qeyd olunan fərmandan irəli gələn digər vəzifələrin də icrası davam etdirilir.

## İşğaldan azad edilmiş ərazilərdə DTX-nin idarə və şöbələri fəaliyyətə başlayır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 2020-ci il 29 oktyabr tarixli Fərmanına uyğun olaraq, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı rayonlarında və Xocavənd rayonunun Hadrut qəsəbəsində yerli şöbələri xidmətə başlayıb.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Şuşa şəhərinin strateji əhəmiyyəti nəzərə alınaraq, DTX-nin Şuşa şəhər idarəsi təsis edilib və yaxın günlərdə onun fəaliyyəti təmin olunacaq.

# Milli Məclisdə Fransa Milli Assambleyasının nümayəndə heyəti ilə görüş olub

Noyabrın 12-də Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Fransa Milli Assambleyasının nümayəndə heyəti ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, görüşdə işçi qrupunun rəhbəri Soltan Məmmədov Milli Məclisdə Fransa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun 1997-ci ildən fəaliyyət göstərdiyini qeyd edib. Bildirib ki, 2010-2017-ci illərdə bu qrupa hazırda Azərbaycanın Birinci vitse-prezidenti olan Mehriban xanım Əliyeva başçılıq edib. Heydər Əliyev Fondunun xətti ilə Fransada bir sıra mühüm layihələr həyata keçirilib. Altıncı çağırış Milli Məclisdə Fransa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupuna 20 deputat daxildir.

Sonra Soltan Məmmədov Azərbaycanın Vətən müharibəsi haqqında qonaqlara məlumat verərək deyib ki, sentyabrın 27-də işğalçı Ermənistanın dinc yaşayış məntəqələrimizə hücumundan sonra əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu qısa müddətdə uzun illərdir işğal altında qalan torpaqlarımızın xeyli hissəsini azad etdi. Təəssüf ki, həmin günlərdə ATƏT-in Minsk qrupunun üç həmsədrindən biri olan Fransa neytrallığını qoruya bilməyib və birtərəfli mövqe ifadə edib. Bu da Azərbaycan cəmiyyətində böyük narazılıq yaradıb.

İşçi qrupun rəhbəri erməni silahlı qüvvələrinin Gəncə, Bərdə, Tərtər və digər bölgələrimizdəki dinc yaşayış məntəqələrinə, mülki şəxslərə qarşı törətdiyi hərbi cinayətlər barədə konkret faktları qonaqların diqqətinə çatdırıb.

Görüşdə çıxış edən Fransa Milli Assambleyasında Azərbaycanla dostluq qrupunun vitse-prezidenti Jerom Lamber həmin günlərdə Azərbaycan həqiqətlərini dünyada yaymaq istiqamətində və Fransadakı erməni diasporuna qarşı apardıqları informasiya və təbliğat işləri barədə danışıb. O, mətbuatda və sosial mediada yaydığı bir sıra məqalələrlə bağlı ermənilərdən 20 mindən çox mənfi reaksiya, hətta təhdid dolu mesajlar aldığını bildirib.

Daha sonra görüşdə Fransa Milli Assambleyasında Azərbaycanla dostluq qrupunun vitse-prezidenti Mişel Viale fikirlərini bölüşüb, bəzi həmkarlarının laqeyd və ya birtərəfli mövqeyinə görə təəssüflərini ifadə edib. Vurğulayıb ki, dostluq qruplarının vəzifəsi belə hallarda öz münasibətini bildirməkdir. Mişel Viale 10 noyabr tarixinin Azərbaycan tarixində mühüm hadisə olduğunu söyləyib.

Görüşdə qeyd olunub ki, fransız deputatların Gəncəyə və Bərdəyə nəzərdə tutulmuş səfərləri baş vermiş hadisələri yerindəcə öz gözləri ilə görüb obyektiv gerçəkliklə tanış olmağa imkan verəcək.

Söhbət zamanı parlamentlərarası əlaqələrin, dostluq qruplarının əməkdaşlığının daha da möhkəmlənməsi istiqamətində ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə Fransa Milli Assambleyasında Azərbaycanla dostluq qrupunun katibi Jan-Lük Reitzer, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, işçi qrupun üzvlərindən Sevinc Fətəliyeva, Kamal Cəfərov və Tural Gəncəliyev iştirak ediblər.

## İƏT Dağlıq Qarabağda ermənilər tərəfindən islama aid tarixi ziyarətgahların dağıdılmasından narahatlığını bildirib

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş Katibliyi islam irsinin ayrılmaz hissəsi olan Dağlıq Qarabağda və ətraf rayonlardakı tarixi abidələrin vəziyyəti ilə əlaqədar dərin narahatlığını bildirir.

AZƏRTAC xəbər verir ki, bu barədə İƏT-in yaydığı bəyanatda deyilir.

Bəyanatda bildirilir: "Maddi və mənəvi dəyərlərin, xüsusən Qubadlı rayonunun bu yaxınlarda azad edilmiş Məmər kəndindəki məscidin qəsdən dağıdılması və talan edilməsi, tarixin mənimsənilməsi və saxtalaşdırılması təcavüz siyasətinin bariz sübutudur. İşğal olunmuş ərazilərdə əsrlərboyu qalmış dini-mədəni irslərdən sui-istifadə beynəlxalq qanunların və konvensiyaların, o cümlədən "Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası"nın və 1954, 1999-cu il protokollarının açıq şəkildə pozulmasıdır. Xarici işlər nazirləri Şurasının 46-cı iclasında İƏT "İslamın müqəddəs yerlərinin qorunması haqqında" 3/46-S saylı Qərar qəbul edib. Qərarda erməni təcavüzkarları tərəfindən Azərbaycan Respublikasında islama aid tarixi və mədəni irsin tamamilə məhv etmək məqsədi, barbar hərəkətləri pislənilib".

# ULU ÖNDƏRİN DAHA BİR MÜQƏDDƏS VƏSİYYƏTİ YERİNƏ YETİRİLDİ

*Əvvəli 1-ci səh.*

**Xalqımızı bu istəyinə Ali Baş Komandan cənab İlham Əliyev qovuşdurdu!**

Uzun illər yorulmadan, dayanmadan, məqsədyönlü şəkildə mübarizə aparmaqla!

Bu mübarizə asan deyildi!

Biz bizdən güclülərlə çarpışmalı olurduq!

Bu mübarizədə qalib gəlməkdən ötrü İlham Əliyev mümkün olmayanları belə gerçəkliyə çevirdi!

Ölkəyə rəhbərlik etdiyi 17 ildə Azərbaycanı iqtisadi cəhətdən gücləndirmək üçün ardıcıl addımlar atdı, beynəlxalq layihələri gerçəkləşdirərək ölkəmizin maraqları ilə dünyanın aparıcı dövlətlərinin maraqlarını uyğunlaşdırdı.

Zəngin karbohidrogen ehtiyatlarını dünya bazarına çıxaran Azərbaycan bundan böyük faydalar götürdü, iqtisadi imkanlarını genişləndirdi.

Beləliklə, iqtisadiyyatın digər sahələrinin inkişafına da şərait yarandı.

Azərbaycan həm də əməkdaşlıq etdiyi ölkələr hesabına özünə yeni dostlar da qazandı.

İqtisadiyyatın güclənməsi güclü ordu qurmağa, onu ən müasir silahlarla silahlandırmağa imkan verdi.

Dost ölkələr bu işdə bizə yaxından kömək göstərirdilər.

Prezident İlham Əliyevin hücum diplomatiyasına keçidə start verməsi, beynəlxalq qurum və təşkilatlarda səmərəli iş aparması haqq işimizin dəstəkləyənlərin sayını xeyli artırdı.

Ermənistanın yeni rəhbərliyi "Qarabağ Ermənistandır, nöqtə" deməklə sülh danışıqlarını mənasız etdi!

Üstəlik işğalçı ölkə bir qədər də irəli gedərək "yeni ərazilər uğrunda yeni müharibə" hədəsi ilə Azərbaycanı təhdid etməyə başladı.

Düşmənin növbəti təxribatına isə Azərbaycan əks-hücumla cavab verdi!

*Beləliklə, işğal altındakı torpaqlarımızın azadlığı uğrunda ikinci Qarabağ müharibəsi başladı.*



*İlk günlərdə Ermənistan da, bütün dünya da Azərbaycan Ordusunun qüdrətini, yeni taktika ilə uğurla döyüşdüyünü gördü.*

Amma düşmən yenə sülhə gəlmək istəmir, müharibəni beynəlmiləlləşdirməyə çalışırdı!

*Ali Baş Komandan İlham Əliyev "Şuşasız qələbəmiz yarımçıq olar" söyləyərək ordumuzun bütün torpaqlarımızı azad etmək qətiyyətini ortaya qoydu!*

*Xalq Prezidentimizə güclü dəstək verdi, yumruq kimi onun ətrafında birləşdi!*

*Əsgər və zabitlərimiz qəhrəmanlıqla döyüşərək bir-birinin ardınca şəhər, kənd və qəsəbələrimizi işğaldan azad etməyə başladı.*

*Növbə Şuşaya da çatdı!*

**Ali Baş Komandanın rəhbərliyi ilə bu qədim şəhər də düşmən əsarətindən qurtuldu!**

❖ ❖ ❖

**Şuşanın işğaldan azad edilməsi Azərbaycan Ordusunun parlaq qələbəsidir!**

**Bu həm də əsgər və zabitlərimizin ən çətin şəraitdə, dağlıq ərazidə də uğurlu döyüş əməliyyatı apardıqlarının əyani göstəricisidir.**

**Şuşanın alınması Qarabağ uğrunda döyüşlərin yeni mərhələsinə keçid deməkdir!**

Xalqımız bu möhtəşəm Qələbəni elliklə, kütləvi şəkildə bayram etdi!

Düşmən isə yasa batdı.

Qalib ordunun Ali Baş Komandanı İlham Əliyev də bu tarixi qələbə münasibətilə Azərbaycan xalqına müraciət etdi.

Həmin müraciətdə xalqı təbrik etməklə yanaşı, hər birimizin ürəyindən keçənləri də ifadə etdi:

*"Əziz Şuşa, sən azadsan!*
*Əziz Şuşa, biz qayıtmışıq!*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*
*Şuşa bizimdir!*
*Qarabağ bizimdir!*
*Qarabağ Azərbaycandır!"*

**Bəxtiyar SADIQOV**

# Ermənistan beynəlxalq hüquqi məsuliyyətə cəlb olunacaq

Vətən müharibəsinin gedişində Ermənistan beynəlxalq hüquq normalarını pozaraq Azərbaycan ərazisində - döyüş bölgəsindən uzaqda dinc əhali və mülki infrastruktura ziyan vurub. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Ermənistanın Azərbaycana qarşı təcavüzü və bu xüsusda onun beynəlxalq hüquqi məsuliyyəti sahəsində sistemli araşdırmalar həyata keçirir. AZƏRTAC İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlının müsahibəsini təqdim edir.

*- Ermənistanın Azərbaycana qarşı təcavüzünü beynəlxalq hüquq prizmasından necə qiymətləndirmək olar?*

- Azərbaycan beynəlxalq ekspertləri də cəlb etməklə Ermənistanın torpaq, su, meşə və faydalı qazıntılara, habelə əmlaka və mədəni sərvətlərimizə vurduğu ziyanı dəqiq hesablayacaq.

Ermənistan dinc azərbaycanlılara vurduğu zərərə görə humanitar hüquq, sülh hüququ və insan hüquqları kimi hüququn fərqli istiqamətləri üzrə məsuliyyətə cəlb oluna bilər.

Humanitar hüquq ümumi hüququn bir qolu olaraq insan hüquqlarını tənzimləyən hüquqi bazadan daha əvvəl formalaşıb. Humanitar hüququn əsasını 1949-cu ildə imzalanan Cenevrə konvensiyalarına dayanan "Cenevrə hüququ", Haaqa konvensiyalarına (1899-cu və 1907-ci illər) dayanan "Haaqa hüququ" və BMT-nin Baş Assambleyasının bəzi qətnamələri təşkil edir. "Cenevrə hüququ" döyüşlər zamanı bu döyüşlərdə iştirak etməyən şəxsləri, o cümlədən yaralılar, əsirlər, mülki şəxslər və başqalarını qoruyur. "Haaqa hüququ" isə zorakılığın qarşısının alınması üçün döyüş aparılmasının müəyyən metod və vasitələrinin məhdudlaşdırılması və qadağan olunmasını təmin edir.

Cenevrə konvensiyaları 4 hissədən ibarət olmaqla müharibə zamanı yaralılara qarşı davranış, dənizdə gedən hərbi döyüşlərdə zərərçəkən şəxslərə qarşı davranış, hərbi əsirlərə qarşı davranış və 4-cü konvensiya isə müharibə zamanı mülki şəxslərin qorunması ilə bağlı olub. Cenevrə konvensiyalarında əməl etməyə nəzarət Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən aparılır.

4-cü Cenevrə Konvensiyasının tənzimlədiyi mülki şəxslərin qorunması "hüquqi adət normaları" - hər kəsə aid olan və ya əksər dövlətlər tərəfindən hüquqiləşdirilən adətlər olaraq BMT tərəfindən təsdiqlənib. Hüquqi adət normalarının hər hansı bir dövlət üçün tətbiqi müvafiq təşkilatın hüquqi bazasını ratifikasiya etməsindən asılı olmayaraq nəzərdən keçirilir. Başqa sözlə, hüquqi adət normaları, məsələn, müharibə zamanı mülki şəxslərin qorunması BMT-nin Ədalət Məhkəməsinin Statusunu ratifikasiya etməyən ölkələrə də şamil olunur. Bu baxımdan Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərə görə məsuliyyətə cəlb edilməsi mümkündür.

Bəzi hüquqi adət normaları daha önəmli hesab olunaraq imperativ hüquqi normalar (jus cogens) kimi qəbul edilir və mütləq şəkildə hər kəsə aid olunur. Hüquqi adət normaları dövlətin öz hüquqi bazasına zidd olduqda tətbiq olunmasa da, imperativ normalar istisna hesab edilir. Belə ki, bu normalar həmin dövlətin özünün hüquqi bazası ilə təsdiqlənməsə və ya fərqli şəkildə əks olunsa da, beynəlxalq müstəvidə vacib və şərtsiz öhdəliklər hesab olunur. Bu normalarla beynəlxalq cinayət, insanlığa qarşı cinayət, aqressiv siyasət (işğalçılıq) və aqressiv müharibə, soyqırımı, quldarlıq kimi məsələlər tənzimlənir.

*- Biz deyə bilərikmi ki, Azərbaycana qarşı imperativ hüquqi normaların pozulması faktları baş verib?*

- Azərbaycana qarşı məhz beynəlxalq hüquqda qeyd-şərtsiz keçərli olan imperativ hüquqi normaların pozulması faktları baş verib. Belə ki, ilk başda elə ermənilərin Azərbaycanın 20 faiz torpaqlarını işğal etməsi beynəlxalq hüquqda aqressiv siyasət olaraq qiymətləndirilir və bu prosesdə kütləvi şəkildə insanların ölümünə yol verilməsi aqressiv müharibə və hətta digər imperativ norma ilə tənzimlənən soyqırımı faktlarını ortaya qoyur. Önəmli fakt aqressiv müharibənin bu addımları atmağa başlayan (təşəbbüskar) tərəfin adına yazılmasıdır, yəni bu hərbi davranışlara cavab verən tərəf beynəlxalq hüquqda aqressiv müharibə aparmış hesab olunmur.

Aqressiv müharibə, həmçinin Haaqa konvensiyalarının pozulması anlamına gəlir. Belə ki, bu konvensiyalarda boğucu qazlar və zərərli maddələr ifraz edən, eyni zamanda, lazımsız əzablara səbəb olan silah və maddələrin istifadəsinə, əmlakın hərbi ehtiyac olmadan məhv edilməsinə, qarət və müsadirəsinə qadağalar nəzərdə tutulur. Bildiyiniz kimi, bu qadağaların bütün punktları üzrə ermənilər Azərbaycana qarşı ciddi pozuntulara yol veriblər. Belə ki, düşmən tərəfindən Azərbaycanın mülki şəxslərinin yaşadığı zonalara ağ fosfor ifraz edən mərmilərin atılması, kaset bombalarından istifadə, işğal olunmuş Azərbaycan torpaqlarında xalqımıza məxsus olan əmlakın talan və ya bütünlüklə məhv edilməsi faktları qeydə alınıb. Qadağan olunmuş silahların digər nümunəsi olan kasetli silahlardır ki, bu silahların əhalinin sıx yaşadığı ərazilərdə istifadəsi "Beynəlxalq Kasetli silahlar üzrə Konvensiya"da qadağan edilib. Bu silahlar da ermənilər tərəfindən Gəncə, Bərdə və digər yaşayış məntəqələrində mülki əhaliyə qarşı istifadə edilərək kütləvi itkilərə səbəb olub.

*- Azərbaycanın mədəni, tarixi və dini abidələrinə qarşı Ermənistanın vandal hərəkətləri beynəlxalq hüquqda öz əksini necə tapır?*

- "Haaqa hüququna" əsasən mədəniyyət abidələrini və tibbi müəssisələri qorumaq üçün mümkün olan bütün tədbirlərin görülməsi tələb olunur. Bu tələblər digər beynəlxalq hüquqi sənəd olan "Döyüş əməliyyatları zamanı tarixi və dini abidələrin qorunmasına dair Konvensiya"da da əks olunub. Bu istiqamətdə də ermənilərin ciddi pozuntuları xüsusilə qeyd olunmalıdır. Ermənilər Azərbaycanın işğal olunmuş ərazilərində demək olar ki, bütün tarixi və dini abidələri məhv edib və ya dinimizə hörmətsizlik edərək məsciddə donuzlar saxlayıblar. Bundan başqa, sadəcə işğal olunmuş ərazilərdə deyil, digər Azərbaycan torpaqlarına silahlı hücumlar zamanı altı həftəlik müharibədə 20-dən çox dini obyekt və tarixi abidənin zərər çəkməsinə səbəb olublar.

*- Ermənistanın beynəlxalq hüquqi məsuliyyəti hansı formalarda həyata keçirilə bilər?*

- Beynəlxalq hüquqi məsuliyyət - mütləq məsuliyyət hesab olunmaqla beynəlxalq hüquq subyektinin digər eyni dərəcəli subyektə qarşı beynəlxalq hüquq öhdəliyinin pozulması nəticəsində vurduğu ziyanı aradan qaldırmaq və vurulmuş ziyanı ödəmək öhdəliyidir. Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərə görə reparasiya, restitusiya, təzminat və satisfaksiya məsuliyyəti yaranıb. Bu məsuliyyət həm maddi, həm də qeyri-maddi olmaqla müxtəlif formalara malikdir. Reparasiya hərbi əməliyyatlar nəticəsində məğlub tərəfin qalib tərəfə ödədiyi onlar tərəfindən vurulmuş zərərin qarşılanması prosesidir. Restitusiya isə bir dövlətin cinayət törədilməzdən əvvəl mövcud vəziyyətinə qayıtmasıdır. Buna qanunsuz olaraq tutulmuş şəxslərin sərbəst buraxılması, ələ keçirilmiş əmlakın geri qaytarılması misal göstərilə bilər. Təzminat və ya kompensasiya- müasir beynəlxalq hüquqda maddi və ya mənəvi ziyana görə maddi vəsaitlərin ödənilməsini ifadə edir. Kompensasiya, beynəlxalq münasibətlərdə zərərin ödənilməsinin ən çox istifadə edilən formasıdır. Eyni zamanda pozuntuları törədən tərəfin əks tərəfdən ictimai formada üzr istəməsi - satisfaksiya, eyni və ya oxşar davranışların təkrarlanmayacağına dair öhdəlik götürməsi də beynəlxalq hüquqda nəzərdə tutulan addımlardır.

*- Dünya təcrübəsində beynəlxalq hüquqi məsuliyyətin praktik tətbiqi halları barədə nə demək olar?*

- Reparasiya ilk dəfə Birinci Dünya müharibəsi nəticəsində təyin olunub. 1919-cu ildə Almaniyanın və müttəfiqlərinin məsuliyyətini qeyd edən Versal Sülh Müqaviləsi bağlanıb və 269 milyard qızıl marka - təxminən 100 min ton qızılın ekvivalentində təzminat miqdarı təyin olunub.

İkinci Dünya müharibəsində də Almaniya və müttəfiqlərinin üzərinə reparasiya yükü qoyulub. Bu qərar 1945-ci ildə Yalta Konfransında qəbul edilib. Nəticədə Almaniyadan SSRİ-yə təxminən 400 min dəmir yolu vaqonu yük, 2885 fabrik avadanlıqları, 96 elektrik stansiyası avadanlıqları, 340 min maşın, 200 min elektrik mühərriki, 1 milyon 335 min baş heyvan, 2,3 milyon ton taxıl, 1 milyon ton kartof və tərəvəz, yarım milyon ton yağ və şəkər, 20 milyon litr spirt, 16 ton tütün göndərilib. Bundan başqa, Humboldt Universitetinin astronomik rəsədxanasından teleskoplar, Berlin metro vaqonları və kruiz laynerləri və digər texnoloji avadanlıqlar reparasiya məhsulu olaraq SSRİ-ə ödənildi. Almaniya tərəfindən digər ölkələrə də reparasiya ödənişi mərhələlərlə həyata keçirilib.

Digər nümunə Yaponiya və İndoneziya arasında olan münaqişə nəticəsində təyin olunan reparasiyadır. 1958-ci il yanvarın 20-də imzalanan sülh müqaviləsi və təzminat müqaviləsi nəticəsində Yaponiya 12 il ərzində İndoneziyaya 223 milyon dollar ödəməli idi.

Bundan başqa, BMT tərəfindən İraqa 1990-1991-ci illərdə Küveytə qarşı qanunsuz işğal nəticəsində dəyən ziyana və itkilərə görə təzminat ödəmək öhdəliyi irəli sürülüb. Təzminatın ödənilməsini təmin etmək üçün isə Beynəlxalq Millətlər Təşkilatının Təzminat Komissiyası qurulub.

*- Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərə görə məsuliyyətə cəlb olunma mexanizmi necə olacaq?*

- Beynəlxalq müstəvidə məsuliyyətə cəlbetmə, həm də Azərbaycan Respublikasının "Cinayət Məcəlləsi"ndə öz əksini tapıb. Bu baxımdan ermənilərin Azərbaycana qarşı törətdiyi cinayətlərə görə məsuliyyətə cəlb etmə həm beynəlxalq hüquq qaydasında, həm də dövlətdaxili qanunvericilik əsasında həyata keçirilə bilər. Dövlətdaxili hüquq qaydasına əsasən, cinayətdə məsul tutulan şəxslər beynəlxalq axtarışa verilir, daha sonra olduğu hər hansı bir ölkənin müvafiq orqanları tərəfindən şəxs tutularaq istintaq orqanına təhvil verilir və Azərbaycan Respublikasının məhkəmələri tərəfindən mühakimə olunur. Bu mümkün olmadıqda beynəlxalq hüquqda və beynəlxalq məhkəmələrdə bu məsələnin həlli nəzərdən keçirilir.

Azərbaycanda beynəlxalq cinayətlərə görə məsuliyyət ilk dəfə 1999-cu il "Cinayət Məcəlləsi"ndə müəyyən olunub və "Cinayət Məcəlləsi"nin 10-cu maddəsinə əsasən əməlin cinayət sayılması və həmin əmələ görə cəza bu əməlin törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir - yəni cinayət - hüquqi normaların retroaktiv (geriyə) tətbiqi qadağandır. Sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri bu tarixdən sonra törədildiyi halda daxili məhkəmələr tərəfindən məsuliyyətə cəlb oluna bilər.

Azərbaycan Respublikası Baş Prokurorluğu bu sahədə sistemli və təqdirəlayiq fəaliyyətlər göstərir.

Artıq qeyd olunduğu kimi, ermənilər tərəfindən törədilmiş cinayətlər beynəlxalq cinayət hesab olunur və universal yurisdiksiyaya malikdirlər, bu o deməkdir ki, digər dövlətlər öz dövlətdaxili qanunvericiliyinə arxalanıb Azərbaycanda beynəlxalq cinayətləri törətmiş şəxsləri məsuliyyətə cəlb edib mühakimə edə bilər. Danimarkanın, Almaniyanın və bəzi başqa dövlətlərin son illərin praktikasında məhz universal yurisdiksiyaya söykənərək dövlətdaxili qanunlarla Yuqoslaviyada və Ruandada insanlıq əleyhinə və müharibə cinayətləri törətmiş şəxslərin mühakimə edilməsi praktikasını misal göstərə bilərik.

*- Beynəlxalq müstəvidə məsuliyyətə cəlb etmənin daha hansı formalarından istifadə edə bilərik?*

- Burada "Ad hoc" - müvəqqəti yaradılmış tribunallar yaradıla bilər. Bu tip orqanlar konkret bir münaqişənin həll olunması, bu istiqamətdə təqsirləndirilən tərəfin məsuliyyətə cəlb edilməsi üçün müvəqqəti olaraq yaradılır. Bu tip tribunallar BMT-nin Təhlükəsizlik Şurasının və ya BMT Baş katibinin təşəbbüsü ilə BMT-nin Baş Assambleyasının qərarları əsasında təşkil oluna bilər. Dünya təcrübəsində Yuqoslaviya, Ruanda, Livan və ya Syerra-Leone tipli "Ad hoc" tribunalların yaradılmasını qeyd etmək olar.

Beynəlxalq Cinayət Məhkəməsi (ICC) 124 ölkə tərəfindən ratifikasiya olunan Roma Statusu əsasında fəaliyyət göstərərək beynəlxalq müstəvidə törədilmiş cinayətlər üzrə günahkar tərəflərin məsuliyyətə cəlb olunmasını təmin edir. Beynəlxalq Cinayət Məhkəməsi hazırda üç cinayət növünü əhatə edir: soyqırımı, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər. Roma Statusu qüvvəyə minməmişdən əvvəl törədilmiş hər hansı cinayətlə bağlı yurisdiksiya həyata keçirə bilmədiyindən Birinci Qarabağ müharibəsində ermənilər tərəfindən törədilən vəhşiliklər məhkəmənin baxdığı hər 3 istiqaməti əhatə etsə də, təəssüflər olsun ki, tribunaya çıxarılması mümkün olmayıb. Lakin bu gün Qarabağın işğaldan azad edilməsi uğrunda gedən Vətən müharibəsində düşmənin etdiyi beynəlxalq hüququ pozan davranışlar BMT vasitəsilə Beynəlxalq Cinayət Məhkəməsinə də çıxarıla bilər.

*- Ermənistanın Azərbaycana qarşı təzminat ödənişini necə tələb etmək olar?*

- BMT-nin Təzminat Komissiyası (UNCC) Təhlükəsizlik Şurasının 687 saylı qətnaməsinə əsasən, 1991-ci ildə, İraqın 1990-1991-ci illərdə Küveytə qanunsuz işğalı nəticəsində təzminat ödənməsini təmin etmək məqsədilə qurulub. Komissiya tərəfindən 2,7 milyon iddiaya qarşılıq bu günə qədər 350 milyard dollar təzminatın ödənilməsi təmin olunub. Komissiya altı tələb kateqoriyası üzrə təzminat ödənilməsini tənzimləyir.

Beynəlxalq Ədalət Məhkəməsi BMT-nin ali məhkəmə orqanı olaraq iş prinsipi geniş məhkəmə fəaliyyəti ilə xarakterizə olunur. Onun əsas vəzifələri dövlətlərə təqdim edilmiş hüquqi mübahisələrin həlli və lazımi qaydada səlahiyyətli beynəlxalq orqanlar və qurumlar tərəfindən ona təqdim edilmiş hüquqi məsələlər üzrə məsləhətçi rəy verməkdir.

Avropa İnsan Hüquqları Məhkəməsi "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiya əsasında yaradılmış beynəlxalq məhkəməyə bu Konvensiyanı ratifikasiya etmiş dövlətlərin vətəndaşları müraciət edə bilər. Lakin Konvensiya üzrə müdafiə yalnız fərdlə hakimiyyət arasında olan münasibətlərə tətbiq edilir. Yəni zərərçəkmiş hər bir Azərbaycan vətəndaşı Ermənistan dövlətini bu şəkildə şikayət edərək məsuliyyətə cəlb edə bilər. Artıq bu istiqamətdə fəaliyyətlər başlayıb.

*- Ermənistanın vurduğu ziyanın qiymətləndirilməsi sahəsində hansı işlər görülür?*

- Konfliktlərin vurduğu zərərlərin ölçülməsi istiqamətində iki üsuldan istifadə oluna bilər. Birincisi, birbaşa zərərlərin qiymətləndirilməsi, burada birbaşa olaraq dağıdılmış infrastruktura dəymiş zərərlərin real dəyəri ilə qiymətləndirilməsi aparılır. İkincisi, dolayı zərər, burada isə infrastrukturun məhvi nəticəsində itirilmiş imkanlar və əlavə faydaların qiymətləndirilməsi aparıla bilər.

Müxtəlif münaqişələrdə əsas təsirlərin qiymətləndirilməsi metodlarından da istifadə edilib. Örnək olaraq, Yəməndə 2019-cu ildə BMT-nin İnkişaf Proqramı tərəfindən dəymiş təsirlərin qiymətləndirilməsi aparılıb. Bu daha çox nəticə əsaslı qiymətləndirmə metodologiyasına əsaslanıb. Müharibənin vurduğu zərərlərin qiymətləndirilməsi və nəticədə yeni infrastruktur sisteminin qurulması üzrə ehtiyacların müəyyənləşdirilməsi üçün digər bir qiymətləndirmə isə Dünya Bankı tərəfindən 2018-ci ildə İraqda aparılıb. İŞİD terror təşkilatı tərəfindən dağıdılmış infrastrukturun sosial, istehsal, kommunal təsərrüfatı, dağıdılmış evlər, turizm obyektləri, nəqliyyat, dövlət obyektləri, ekologiya və sair sahələr üzrə qiymətləndirilməsi aparılıb.

2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistanın Azərbaycan ərazisində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə Dövlət Komissiyası yaradılıb.




## *Mövlud ÇAVUŞOĞLU:* “Türkiyə bundan sonra da Azərbaycanın yanında olacaq”



“Türkiyə bundan sonra da Azərbaycanın yanında olacaq”. AZƏRTAC xəbər verir ki, bunu noyabrın 12-də keçirilən mətbuat konfransında Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu deyib.

Nazir bildirib ki, ATƏT-in Minsk qrupu proseslərdən nəticə çıxarmalıdır. Minsk qrupunun həmsədr ölkəsi Fransa birtərəfli mövqe tutur, hətta atəşkəsdən sonra da tərəfsizlik nümayiş etdirmir. Son razılaşmadan sonra da Fransa Ermənistanı dəstəkləyir, hətta Türkiyəni ittiham edir. Bundan sonrakı prosesdə heç bir ölkə haqsız şəkildə Ermənistanı dəstəkləyərək prosesi pozmağa çalışmamalıdır.

## *Mövlud ÇAVUŞOĞLU:* “Azərbaycan münaqişəni diplomatik yolla həll etməyə səy göstərirdi, lakin hər dəfə Ermənistan atəşkəsi pozurdu”

Azərbaycan münaqişəni diplomatik yolla həll etməyə səy göstərirdi, lakin hər dəfə Ermənistan atəşkəsi pozurdu. Hər dəfə Ermənistanın atəşkəsi pozduğunun şahidi olmuşuq. Hər dəfə də Azərbaycanı atəşkəsə çağıran tərəflərə bizim bir cavabımız var: atəşkəs həll deyil, işğalın uzadılmasıdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri noyabrın 12-də keçirilən mətbuat konfransında Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib.

Nazir qeyd edib ki, noyabrın 10-da imzalanmış bəyanata əsasən Azərbaycan torpaqları öz əzəli sahibinə geri veriləcək. Burada Rusiyanın da rolunu yüksək qiymətləndiririk. Üçtərəfli bəyanatın 5-ci maddəsinə əsasən Türkiyə də Rusiya ilə birlikdə sülhməramlı mərkəzdə iştirak edəcək. Bu prosesi yaxından izləyirik. Monitorinq mərkəzi atəşkəs pozulacağı təqdirdə buna nəzarət edəcək, hər hansı şikayət olduğu zaman araşdırılacaq, eyni zamanda, atəşkəsin pozulmasına qarşı tədbirlər görəcək.

## *Türkiyəli nazir:* “Hesab edirik ki, Ermənistan son hadisələrdən dərs aldı”

Münaqişənin həlli nəticəsində yeni nəqliyyat dəhlizlərinin açılması, o cümlədən Naxçıvanla Azərbaycan arasındakı dəhliz bütün regionun inkişafına xidmət edəcək.

AZƏRTAC xəbər verir ki, bunu noyabrın 12-də keçirilən mətbuat konfransında Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu deyib.

Nazir noyabrın 10-da imzalanmış bəyanatın əhəmiyyətini qeyd edərək ümidvar olduğunu bildirib ki, Ermənistan əldə edilmiş razılaşma çərçivəsində bütün öhdəliklərini yerinə yetirəcək. Hesab edirik ki, Ermənistan son hadisələrdən dərs aldı.

“Bizim üçün önəmli olan işğalın bitməsidir. Biz bundan sonra da Azərbaycanın yanında olacağıq”, - deyə Mövlud Çavuşoğlu qeyd edib.

## XİN: “Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə Birgə Rusiya-Türkiyə Mərkəzinin yaradılması ilə bağlı Memorandumu alqışlayırıq”

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri, Rusiya Federasiyasının Prezidenti tərəfindən imzalanmış birgə bəyanatdan irəli gələrək, Dağlıq Qarabağ münaqişə zonasında atəşkəsə və bütün hərbi əməliyyatların dayandırılmasına nəzarət üzrə Birgə Rusiya-Türkiyə Mərkəzinin yaradılması ilə bağlı noyabrın 11-də Memorandumun imzalanmasını alqışlayırıq.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Məlumatda həmçinin deyilir: “Azərbaycan ərazisində yerləşəcək, atəşkəs rejiminə və bütün hərbi əməliyyatların dayandırılmasına nəzarəti həyata keçirəcək Birgə Mərkəzin işinin təşkili ilə əlaqədar ən qısa zamanda Birgə İşçi Qrupunun fəaliyyətə başlayacağını məmnunluqla qeyd edirik.

Birgə Mərkəzin fəaliyyətinin atəşkəs rejiminə nəzarətin səmərəliliyinin artırılmasına, beləliklə də, bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına töhfə verəcəyinə inanırıq.

## Kanadanın xarici işlər nazirinin ermənipərəst hisslərin açıq şəkildə ifadə olunduğu bəyanatı təəssüf doğurur

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsi Kanada xarici işlər nazirinin 11 noyabr tarixli bəyanatına dair açıqlama yayıb.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, açıqlamada deyilir:

“Kanadanın xarici işlər nazirinin Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatların dayandırılması ilə bağlı verdiyi, ermənipərəst hisslərin açıq şəkildə ifadə olunduğu birtərəfli bəyanat təəssüf doğurur.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalını və yüz minlərlə azərbaycanlının insan hüquqlarının pozulmasını qınayan, bu illər ərzində aparılan danışıqlar prosesinə töhfə verəcək və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin həyata keçirilməsini dəstəkləyəcək hər hansı bəyanatla çıxış etməyən Kanadanın xarici işlər naziri görünür indi münaqişə ilə məşğul olmağa başlayıb.

Xatırladırıq ki, Azərbaycan və Ermənistan arasında hərbi əməliyyatların dayandırılması və tam atəşkəsin elan olunması ilə bağlı birgə bəyanat noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistan baş naziri və Rusiya Prezidenti tərəfindən imzalanıb. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanan bu razılaşma hazırda həyata keçirilməkdədir.

Heç bir dövlət, xüsusilə də ərazidən çox uzaqda yerləşənlər bölgədə sülh və təhlükəsizliyin təmin olunmasında region ölkələrindən daha çox maraqlı ola bilməz.

Kanada həqiqətən də bölgədə dayanıqlı sülhün təmin olunmasını istəyirsə, o zaman beynəlxalq hüquq prinsiplərinin və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun davranmalı və bu ruhda bəyanatlarla çıxış etməlidir. Bunun əksi münaqişənin siyasi həllinə və beləliklə də, bölgədə sülhün bərqərar olmasına zərər verməkdən başqa bir şey deyildir”.

## Abxaziyadan gələn bir qrup muzdlu barəsində Baş Prokurorluq tərəfindən cinayət işi başlanıb

Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təxirəsalınmaz tədbirlərin görülməsi davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilən bu tədbirlərin davamı kimi, Gürcüstanın Abxaziya ərazisində yaşayan bir qrup şəxsin Azərbaycan Respublikasına qarşı törətdikləri cinayət əməllərinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunda toplanmış material üzrə araşdırma aparılıb.

Araşdırmalarla Gürcüstanın Abxaziya ərazisində yaşayan Seyran Kocamanyan, Qalust Trapizonyan və qeyrilərinin çağırışı və rəhbərliyi altında 20-dən çox şəxsin 2020-ci ilin oktyabr ayında qondarma “Dağlıq Qarabağ” rejiminin rəhbər şəxsləri ilə görüşüb döyüş əməliyyatlarında iştiraklarına dair müzakirələr aparmaqla cinayət əlaqəsinə girmələri, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olmuş digər yaşayış məntəqələrinə gəlmələri, Azərbaycan Respublikasının dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı Ermənistanın rəhbərliyi tərəfindən muzdlu kimi istifadə edilmələri müəyyənləşdirilib.

Bundan başqa, cinayətkar birlik üzvlərinin döyüş sursatlarından, hərbi texnikadan istifadə edib atəşlər açaraq xüsusi amansızlıq və ümumi təhlükəli üsulla, milli düşmənçilik niyyəti ilə, hərbi əməliyyatlarda iştirak etməyən dinc sakinlərinə qarşı çoxsaylı cinayət əməllərinə yol vermələri, ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətməklə Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri aşkarlanıb.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə cinayət işi başlanılıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilib.

Baş Prokurorluq bəyan edir ki, qeyd edilən və bu kimi digər cinayət faktlarına görə təqsirkar şəxslərin beynəlxalq hüquq normalarına əsasən məsuliyyətə cəlb edilməsindən ötrü mümkün olan bütün tədbirlər görülməklə beynəlxalq təşkilatlara müraciət edilməsi təmin olunacaq.

## İnternet resurslarında terrorçuluğa çağırışlar edən ermənilərlə bağlı cinayət işi açılıb

Ölkə ərazisində ictimai-siyasi sabitliyin pozulmasına yönələn təxribat, terror aktı və digər cinayətkar əməlləri törədilməsinə cəhdlərin qarşısının alınması, habelə bu tipli əməllərə yol vermiş şəxslərin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlərin görülməsi davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilən kompleks tədbirlərin davamı kimi Azərbaycan Respublikasının Baş Prokurorluğunda aparılmış araşdırmalarla bəzi internet resurslarında terrorçuluğa açıq çağırışların edilməsi ilə bağlı ayrı-ayrı faktlar təhlil edilib.

Araşdırmalarla Ermənistan Respublikasının vətəndaşı, işğalçı ölkənin “Demokratiya naminə Tərəfdaşlıq” Mərkəzinin sədri, habelə “Erməni dinləri” veb-saytının redaktoru Stepan Daniyelyan və erməni tarixçi, publisist, Ermənistan Milli Elmlər Akademiyası nəzdindəki “Erməni Soyqırımı Muzey-İnstitutu”nun direktoru, İrəvan Dövlət Universitetinin müəllimi, “Prospekt” Regional və Siyasi Araşdırmalar Mərkəzinin İdarə Heyətinin üzvü Ayk Demoyanın özlərinə məxsus sosial şəbəkə və digər internet səhifələrində ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərində ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, insanların həlak olması, onların sağlamlığına zərərin vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və bu kimi ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayışlar törətmək və belə hərəkətlərin törədiləcəyi hədəsi ilə müşayiət olunan terrorçuluğa açıq çağırışlar etmələri, o cümlədən eyni məzmunlu materialları yaymaları müəyyənləşdirilib.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 12.2, 214-2-ci (terrorçuluğa açıq çağırışlar) maddəsi ilə cinayət işi başlanılıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilib.

Hazırda iş üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən ölkə ərazisində, o cümlədən Azərbaycan Respublikasının vətəndaşlarına qarşı yönələn istənilən hüquqa zidd əməlin qarşısı alınmaqla cinayətkar əməllərə yol vermiş şəxslərin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunmaları üçün bütün zəruri tədbirlərin görülməsi təmin ediləcək.



# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

**Zati-aliləri, möhtərəm cənab Prezident!**

**Ali Baş Komandan kimi Sizin rəhbərliyiniz altında Azərbaycan torpaqlarının 30 illik işğaldan azad edilməsi münasibətilə Zati-alinizi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm! Dünya hərb təcrübəsində görünməmiş yeni hərbi strategiya və taktika ilə qazandığınız bu zəfər Azərbaycan tarixinin şanlı səhifələrindən birinə çevriləcək və Sizin adınızı böyük hərflərlə əbədi olaraq həmin səhifəyə həkk edəcəkdir.**

**Xarici və daxili siyasət, müdafiə, iqtisadiyyat, sosial sahə, mədəniyyət, vətənpərvər tərbiyə və digər sahələrdə 17 il ərzində şəxsən Zati-alinizin gördüyü ölçüyəgəlməz işlər Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunun yüksəlməsini, Azərbaycan vətəndaşlarının rifahının və həyat keyfiyyətinin davamlı artmasını təmin etməkdədir.**

**Hazırda bütün Azərbaycan xalqı böyük ruh yüksəkliyi, misilsiz birlik içərisindədir. Belə bir zamanda Zati-alinizi əmin etmək istəyirəm ki, iyirmi beş ildən artıqdır ki, Azərbaycanda fəaliyyət göstərən, yatırdığı investisiyaları ilə Azərbaycan iqtisadiyyatının inkişafına töhfə verməyə çalışan ailəmiz gələcəkdə də bütün gücünü, biliyini və potensialını Azərbaycanın çiçəklənməsinə sərf edəcəkdir.**

***Şəxsinizə və Azərbaycan xalqına***
***dərin hörmət və ehtiramla,***

***Eran MÜDÜROĞLU,***
***LANDMARK Kompleksinin***
***investoru və rəhbəri***

***12 noyabr 2020-ci il***






# Oğulları cəbhədə döyüşən ana: “Vətən üçün dörd pəhləvan yetişdirmişəm”

Sentyabrın 27-dən başlayaraq 44 gün davam edən Vətən müharibəsində rəşadət göstərərək düşmən üzərində qazandığımız parlaq qələbədə Yardımlı rayonunun da payı az deyil. Müzəffər Ordumuzun sıralarında xidmət edən igid oğullar döyüş meydanında işğalçı ermənilərə sarsıdıcı zərbələr endirdilər.







Rayonda elə ailələr var idi ki, onların 3-4 övladı eyni anda cəbhədə vuruşurdu. Bu gün döyüşlərdə qəhrəmancasına vuruşan hərbçilərimizin ailələri öz sevinclərini qürurla ifadə edirlər. Yardımlıda 4 oğlu cəbhədə döyüşən qəhrəman Cəfərovlar ailəsi kimi.

AZƏRTAC xəbər verir ki, ucqar dağ rayonu olan Yardımlının Ərus kəndində Özüxan Cəfərovun ailəsində dünyaya göz açan Aqil, Rasif, Asif və Turab qardaşlarının hər biri zabitdir və müharibənin ən şiddətli dövrlərində cəbhənin müxtəlif istiqamətlərində döyüş tapşırıqlarını qəhrəmancasına yerinə yetiriblər. Müharibə sözü qulağa nə qədər qorxulu gəlsə də, Cəfərovlar ailəsi övladlarının 4-nün də cəbhədə olmasından narahat deyildilər. Müzəffər Ordumuzun haqq savaşımızda qələbə qazanması üçün dualar edib, hər bir övladı cəbhədə döyüşən ailə kimi başlarını dik tutaraq zəfərə kökləniblər. Dörd hərbçi atası Özüxan Cəfərov igid oğulları ilə qürur duyduğunu söyləyib: “Müzəffər Ali Baş Komandanımızı və xalqımızı Şanlı Qələbə münasibətilə təbrik edirəm. Mən fəxr edirəm ki, mənim dörd övladım Vətən uğrunda döyüşlərdə iştirak edib. Orduda xidmət edən bütün zabit və əsgərləri səmimi-qəlbdən təbrik edirəm. Çox fərəh hissi keçirirəm, çünki mənim ölkəmin qətiyyətli və polad iradəli İlham Əliyev kimi Prezidenti var. 30 ildir mənfur ermənilərin zəbt etdiyi torpaqları, nəhayət ki, azad etdik və “məğlub xalq” ifadəsini üzərimizdən götürdük”.

Ən böyük fərəh hissini isə döyüşçü anası Səmayə Yaqubova keçirir. “Vətən üçün dörd pəhləvan yetişdirmişəm. Dörd igid oğul böyütməyin özü də ana üçün bir fəxrdir. Mənim üçün həm çətindir, ağırdır, həm də fərəhlidir. Övladlarımla çox qürur duyuram, Allah canlarını sağ eləsin. Başları uca olsun, ailəmizin başını uca etdilər”.

Bu qəhrəman ailədə dünyaya göz açan hərbçi uşaqları da atalarının cəbhədə düşmənə qan uddurmasından qürur hissi keçirirlər. Onlar odlu-alovlu müharibə dövründə Vətənimiz üçün döyüşən ataları üçün darıxsalar da, hər gün qazanılan zəfərlər bu balaca uşaqlara böyük qələbə sevinci bəxş edirdi.

Hərbçi övladı Yusif Cəfərov deyir ki, atasının hərbçi olması ilə fəxr edir. Qəhrəman atası düşmənləri torpaqlarımızdan iti qovan kimi qovub, bayrağımızı Qarabağda dalğalandırıb.

Ülkər Cəfərova da atası ilə fəxr edir. Deyir ki, Allah bütün hərbçilərimizi qorusun. Onlar bizə Qələbə bəxş etdilər. İnşallah, tezliklə sağ-salamat evlərinə qayıtsınlar.

Bir ailədə dörd oğul böyüdüb ordu sıralarına göndərmək Azərbaycan xalqının nə qədər vətənpərvər, nə qədər qorxmaz və cəsarətli olduğunun əyani sübutudur. Hazırda Yardımlı rayonunda bir ailənin iki, üç və dörd üzvü cəbhədə xidmət edən 10-dan artıq ailə var. Yağı düşməni torpaqlarımızdan qovub çıxaran da məhz bu igidlərimizdir. Eşq olsun, doğma Qarabağımızda tarix yazan Azərbaycan əsgərinə!

# Laçınlılar Böyük Qayıdış yolunda: “Biz daha köçkün deyilik, Laçına qayıdırıq”

Noyabrın 10-u Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızı Şanlı Qələbə xəbəri ilə sevindirdi. Otuz ilə yaxındır yurd həsrəti çəkən laçınlılar da doğma torpaqlarının düşmən tapdağından azad olunması xəbərini böyük sevinclə qarşılayırlar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Xaçmazın Nabran kəndindəki Xəzər Turizm Bazasının ərazisində ümumilikdə 50-yə yaxın laçınlı ailə məskunlaşıb. Otuz ilə yaxındır məcburi köçkünlük həyatı yaşayan laçınlılar indi doğma torpaqlarına qayıtmağa hazırlaşırlar.

Laçın şəhərinin sakini Qəndab Həsənova heç zaman doğma yurda geri dönəcəyinə ümidini itirməyib. Ali Baş Komandanın qələbə xəbərini böyük sevinc və göz yaşları ilə qarşılayıb.

“Vətən dərdi, yurd həsrəti çəkənlər yaxşı bilir ki, biz indi hansı hissləri yaşayırıq. Qələbəyə çox sevinirik. Bunu bizə yaşadanlar var olsun. Gözün aydın, Azərbaycan! Şanlı Ordumuz, Ali Baş Komandanımız sayəsində ərazi bütövlüyümüz bərpa olundu. Elə bil bizi dərin bir quyudan çıxardılar. Heç vaxt torpaqlarımızın itirilməsi ilə barışmamışıq. Burada Xəzərin sahilində sanatoriyada məskunlaşmışıq. Amma Laçınsız yaşamaq çətin idi. Azərbaycan Ordusu tarix yazdı. Biz daha köçkün deyilik, Laçına qayıdırıq”, - deyə Qəndab Həsənova söyləyib.

Laçın şəhərinin sakini Dağbəyi Söyzalıyev bildirib ki, 39 yaşında Xaçmaza köçməyə məcbur qalıblar. Onun sözlərinə görə, Azərbaycanın hər tərəfi vətəndir, amma doğulduğu torpaq insanı həmişə özünə çəkir: “Əhd eləmişəm ki, Laçına Qubadlı tərəfdən getsəm yurduma çatanda ayaqyalın yeriyib, torpağımı öpəcəyəm. Yox Şuşa tərəfdən getsəm, orada Fətiş bulağından su içib, dizimi yerə qoyub torpağımı öpəcəyəm. Şükür olsun ki, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz torpaqlarımızı azad etdi”.





Laçın rayonunun Hacısamlı kəndindən olan Tərxan Abdullayeva doğma yurduna basqın edən ermənilərin əlindən canını zorla qurtarıb. İndi isə həmin düşmən güclü ordumuzun sayəsində oradan çıxarılır. “Gecə yarı televizorda Ali Baş Komandandan qələbə xəbərini sevinc göz yaşları ilə izləmişəm. Prezidentimiz Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi, torpaqlarımızı işğaldan qurtardı. Mən Laçından qucağımda xəstə uşaqla ağlaya-ağlaya çıxmışdım. Zülmlə gəlmişdik. Sağ olsun Prezidentimiz İlham Əliyev, bizə kədəri unutdurub, sevinci yaşatdı”, - deyə Tərxan Abdullayeva söyləyir.

Qeyd edək ki, Xaçmaz rayonunun Nabran istirahət zonasında laçınlılarla yanaşı, Kəlbəcər və Füzulidən olan məcburi köçkünlər də məskunlaşıb.

# Azərbaycanın tarixi qələbəsi

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun zəfər yürüşü Azərbaycanın tarixi Qələbəsini təmin etdi. Haqlı olaraq xalqımız 30 ilə yaxındır ki, işğal altında olan torpaqlarımızın azad olunmasını, tarixi ədalətin və ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsini qürurla, sevinclə qeyd edir. AZƏRTAC xəbər verir ki, bu fikirlər Milli Məclisin Regional məsələlər komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Siyavuş Novruzovun "Azərbaycanın tarixi qələbəsi" adlı məqaləsində yer alıb.



**Rəşadətli Azərbaycan Ordusu işğalçıları əzəli torpaqlarımızdan qovdu**

Məqalədə deyilir ki, Azərbaycan Ordusu peşəkar, hazırlıqlı, ən müasir və çevik hərbi texnika ilə təchiz olunmuş, istənilən hərbi tapşırığı uğurla həyata keçirə biləcək qələbə əzmli silahlı qüvvələr kimi işğalçıları tarixi torpaqlarımızdan qovdu. Bir sözlə, Ali Baş Komandanımızın qətiyyəti, ordumuzun rəşadəti, xalq-iqtidar birliyi Dağlıq Qarabağ münaqişəsinin milli maraqlarımıza uyğun həllini təmin etdi. 44 gün davam edən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi. Beləliklə, düşmənin texnikası tam məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Ermənistan ordusu artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirmiş, başıpozuq dəstələrdən ibarətdir.

**Ağır məğlubiyyətə uğrayan Ermənistan təslim oldu**

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı Vətən müharibəsində Azərbaycanın tam qələbəsini rəsmiləşdirdi. Bu bəyanat, eyni zamanda, Ermənistanın kapitulyasiya aktıdır. Yəni, ordumuzun qarşısında ağır məğlubiyyətə uğrayan ermənilər qeyd-şərtsiz təslim oldu. Artıq proseslərdə şərt qoyan, diktə edən tərəf Azərbaycandır.

**Həm Rusiya, həm də Türkiyə tərəflərin öz öhdəliyinin icrasının monitorinqini həyata keçirəcək**

Mühüm məsələlərdən biri budur ki, həm Rusiya, həm də Türkiyə tərəflərin öz öhdəliyinin icrasının monitorinqini həyata keçirəcək. Yəni, hər hansı bir tərəf öz öhdəliyini yerinə yetirməsə, Rusiya kimi, Türkiyənin də müdaxilə etmək imkanı olacaq. Bu isə faktiki olaraq illər sonra yeni Rusiya-Türkiyə formatının formalaşdırılmasıdır.

Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması böyük əhəmiyyətə malikdir. Mərkəzdə təmsil olunan Türkiyə hərbçilərinin prosesdə iştirakı onu deməyə əsas verir ki, Azərbaycanın maraqlarının əleyhinə hər hansı addımın atılmasının qarşısı alınacaq.

**Bəyanat bugünə kimi müzakirə olunan heç bir sənədlə müqayisə edilə bilməz**

Əlbəttə, bəyanat bugünə kimi müzakirə olunan heç bir sənədlə müqayisə oluna bilməz. Vaxtilə ATƏT-in Minsk qrupunun təqdim etdiyi Madrid prinsipləri var idi. Orada deyilirdi ki, Dağlıq Qarabağa aidiyyəti olmayan 7 rayonun 5-ni qaytarırlar, 2 rayon isə 5 il ərzində qaytarılır, Laçın koridorunun statusu müzakirə edilir. Dağlıq Qarabağa isə Azərbaycan icması köçəndən sonra referendum keçiriləcək və Dağlıq Qarabağın statusu müzakirə ediləcək. Naxçıvana koridordan isə söhbət belə getmirdi. Hətta bizim üçün belə ağır şərtlərə ermənilər razı olmurdu. Bu gün isə ətraf 7 rayonun məsələsi aydındır. Yəni, Dağlıq Qarabağa aidiyyəti olmayan 4 rayon (Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan) işğaldan azad edilib, 3 rayon isə (Kəlbəcər, Ağdam, Laçın) 20 gün ərzində geri qaytarılır. Dağlıq Qarabağa aid olan 5 rayondan 1-i olan Şuşa işğaldan azad edilib. Xankəndi, Xocavənd, Xocalı, Ağdərə ərazilərini Ermənistan ordusu tərk edəcək. Bu rayonlarda heç bir xüsusi status olmayacaq.

Başqa bir məsələ bəyanatda "təmas xətti" anlayışının izahı ilə bağlıdır. Şübhəsiz ki, burada söhbət Azərbaycan əraziləri daxilində Azərbaycan və Ermənistan ordusunun təmas xəttindən getmir. Çünki Ermənistan ordusu Azərbaycanın bütün ərazisini tərk edəcək. Təmas xətti deyərkən burada söhbət birgə yaşayarkən təhlükəsizliyin maksimum təmin olunması üçün insanlar arasında təmasdan gedir.

**Qondarma, separatçı, cinayətkar rejim artıq yoxdur və olmayacaq**

Daha bir əhəmiyyətli məqam bəyanatda "Artsax" anlayışının olmamasıdır. Yəni, qondarma, separatçı, cinayətkar "Artsax" artıq yoxdur. Dağlıq Qarabağ erməniləri üçün heç bir status müzakirə mövzusu deyil. Bu, o deməkdir ki, Dağlıq Qarabağ üçün xüsusi muxtariyyət nəzərdə tutulmayıb. Yəni, Xankəndinin statusu da Biləsuvar və ya Şirvandan fərqlənməyəcək.

**Qarabağ regionu ilə bağlı heç bir statusdan söhbət gedə bilməz**

Bəyanatda göstərilir ki, Azərbaycan qoşunları haradadırsa, orada da dayanır. Hazırda qoşunlarımız Xankəndi, Xocavənd, o cümlədən Xocalı və Ağdərəyə nəzarət edirlər. Bəyanata əsasən, onların öz yerində qalıb bu nəzarəti davam etməsinə əngəl yoxdur. Ermənistan qoşunları isə oraları tərk edir. İlk növbədə, həmin ərazilərdən didərgin salınmış azərbaycanlılar öz yurdlarına qayıdacaq. Bu prosesdə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı iştirak edəcək.

Reallıq ondan ibarətdir ki, bu şəhərlərdə ermənilər də yaşayıblar. Xüsusilə də Xankəndidə erməni əhalisi çoxluq təşkil edib və beynəlxalq hüququn və Konstitusiyamızın tələblərinə uyğun olaraq biz onları oradan qova bilmərik və onların Azərbaycan qanunlarının verdiyi bütün imkanlardan faydalanmasına şərait yaratmalıyıq. Ümumilikdə Qarabağ regionu ilə bağlı heç bir statusdan söhbət gedə bilməz. Orada olan yerli ermənilər pasport qaydasında həmin ərazilərdə yaşaya biləcəklər. Bölgənin abadlaşdırılması və yenidən qurulması təmin olunacaq. Ancaq Azərbaycan vətəndaşı olan ermənilər bu ərazilərdə yaşaya bilər. Digər məqsədlər üçün Qarabağda hansısa qrupların yaşaması qeyri-mümkündür.

**Rus sülhməramlıları Rusiya ordusu və ya hərbi bazası deyil**

Müzakirə olunan əsas məsələlərdən biri rus sülhməramlılarının statusu və funksiyasıdır. Təbii ki, bu qüvvələr Rusiya ordusu və ya Rusiya hərbi bazası anlamına gəlmir. Bunların məqsəd və funksiyaları tamamilə fərqlidir. Rusiya daha çox patrul funksiyası yerinə yetirəcək. Sülhməramlılar ancaq nəzərdə tutulan təhlükəsizlik koridoruna nəzarət edəcək. Laçın koridorunun isə heç bir xüsusi statusu olmayacaq. Bu koridor Azərbaycan ərazisidir. Sadəcə, ermənilərin Dağlıq Qarabağdan Ermənistana və əksinə, təhlükəsiz gediş-gəlişi təmin ediləcək.

**Naxçıvanın blokadadan azad olunması böyük əhəmiyyətə malikdir**

Bəyanatın mətninə nəzər saldıqda Türkiyə ilə Azərbaycanı, eyni zamanda, Türkiyə ilə Rusiyanı birləşdirən ən qısa quru yolu olacaq Naxçıvanla gediş-gəliş koridorumuzun olması xüsusilə diqqəti cəlb edir. Təbii ki, bu regional, həm də qlobal əhəmiyyətli uğurdur. Bu yoldan bütün region faydalanacaq, çünki Çindən Avropaya qədər kommunikasiya yolu formalaşdırılacaq və bu, böyük iqtisadi perspektiv vəd edir. Türkiyədən Orta Asiyaya gedən yüklər də daha qısa vaxtda ünvanına çatmış olacaq ki, bu da regionda əməkdaşlığın dairəsinin genişlənməsinə təkan verəcək. Beləliklə, Naxçıvanın blokadadan azad olunması çox böyük önəm daşıyır.

Məqalədə vurğulanır ki, bütün bu faktlar və həqiqətlər imzalanmış bəyanatın Azərbaycanın tarixi qələbəsi olduğunu birmənalı şəkildə təsdiqləyir.

# Polad BÜLBÜLOĞLU: "Hamınızdan "Stepanakert" adını unutmağınızı xahiş edirəm"

"Hamınızdan "Stepanakert" adını unutmağınızı xahiş edirəm. Azərbaycanda belə şəhər yoxdur, Xankəndi adlanan şəhər var. Xahiş edirəm, bu adı yadda saxlayasınız".

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bu sözləri "RBK"ya müsahibəsində deyib.

Səfir Rusiya Prezidentinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında imzalanan bəyanatın hazırlanması prosesindən danışaraq qeyd edib ki, bəyanatın detalları liderlər tərəfindən müəyyən edilib, texniki işlər isə ölkələrin səfirlikləri və XİN-ləri tərəfindən yerinə yetirilib. Səfir bu işlərə görə Rusiya tərəfinə və şəxsən Rusiya Prezidenti Vladimir Putinə minnətdarlığını bildirib.

P.Bülbüloğlu vurğulayıb ki, əgər münaqişə tərəfləri Cənubi Qafqazda həqiqətən uzunmüddətli və sabit sülhə nail olmaq istəyirlərsə, o halda razılaşmanın bəndlərini qüsursuz yerinə yetirməlidirlər.

Dağlıq Qarabağda erməni əhalinin yaşaması barədə sualı cavablandıran diplomat qeyd edib ki, Azərbaycan tərəfi heç vaxt Dağlıq Qarabağdan erməni əhalinin qovulması məqsədini qarşısına qoymayıb. Azərbaycan Prezidenti İlham Əliyevin bu məqamı dəfələrlə vurğuladığını xatırladan səfir P.Bülbüloğlu bildirib ki, eyni zamanda, Azərbaycan öz ərazilərində separatçı təzahürlərə heç vaxt imkan verməyəcək. Bu ərazi, birmənalı olaraq, Azərbaycan Respublikasına mənsubdur və o, Azərbaycan qanunları ilə yaşayacaq. Səfir deyib: "Dağlıq Qarabağa qayıtmaq, sülh şəraitində yaşamaq və işləmək istəyən erməni millətindən olan vətəndaşlar qala bilərlər. Lakin onlardan hər hansı biri yenidən əlinə silah alarsa, o halda onlara terrorçulara qarşı olan münasibət göstəriləcək. Onlar başa düşməlidirlər ki, Azərbaycan Respublikasının qanunlarına uyğun yaşayacaqlar. Separatizm - böyük bəladır. Əgər ona imkan verilərsə, o halda Avropada bir çox ölkələr bundan əziyyət çəkərlər. Azərbaycan da Rusiya kimi çoxmillətli və çoxkonfessiyalı ölkədir".

Diplomat həmçinin bəzi politoloqların və siyasətçilərin diqqətinə çatdırıb ki, Azərbaycan və Ermənistan arasında razılaşma Rusiya Prezidentinin vasitəçiliyi ilə bağlanıb. "Deputat bunu necə deyə bilər? Bu gün bir deputat barmağını silkələyərək Azərbaycanı hədələmək istəyib ki, əgər sülhməramlının başından bir tük əskik olarsa, o halda Bakının aqibəti Tbilisidən betər olacaq. Həmin deputat yəqin yaddan çıxarıb ki, sülhməramlılar da bərbərin yanına gedir və başlarını qırxdırırlar. Fürsətdən istifadə edərək demək istəyirəm ki, sakitləşin, məsələ həll olunub".

# "Pakistan Observer" qəzeti: "Müsəlman aləmində sözünü deyən lider meydana çıxdı"

"Pakistan Observer" qəzetinin redaktoru Riyaz Əhməd Azərbaycan Prezidenti İlham Əliyevin "BBC News"a müsahibəsinə istinadla hazırlayıb dərc etdirdiyi məqaləsi üçün "Müsəlman aləmində sözünü deyən lider meydana çıxdı" başlığı seçib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidentinin "BBC News" müxbirinin suallarına dərin məntiqə əsaslanan cavablar verdiyi, öz sözünü cəsarətlə dediyi vurğulanır, müsahibədən bu fikri təsdiqləyən sitatlara geniş yer ayrılır.

Qeyd edək ki, Pakistan dövləti və xalqı Azərbaycanın ərazi bütövlüyünü daim birmənalı olaraq dəstəkləyib, ölkəmizin yanında yer aldığını açıq şəkildə bəyan edib. Baş nazir İmran Xanın dəstək bəyanatları, Pakistan Milli Assambleyasının Ermənistanın Azərbaycana qarşı təcavüzünü və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı qəddar hücumlarını kəskin pisləyən qətnamə qəbul etməsi, parlamentin sədri Əsəd Qayserin Milli Məclisin sədrinə ünvanladığı məktubda Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki şəxslərinin atəşə tutulmasına qəti etiraz bildirməsi, xarici işlər naziri Mahdum Şah Mahmud Qureşinin bəyanatları, diplomatların və jurnalistlərin çıxışları, həmçinin sadə pakistanlıların sosial şəbəkələrdə xalqımızın yanında olduqları barədə ürək sözləri bizim üçün çox dəyərlidir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Rusiyanın İnterfaks agentliyinə müsahibəsində Pakistanın və Türkiyənin bu dəstəyini yüksək qiymətləndirib və onlara təşəkkürünü bildirib.

Azərbaycanın Vətən müharibəsi apardığı günlərdə Pakistanın "National Herald Tribune", "Pakistan Observer" və digər nüfuzlu qəzetləri, "Diplomatic News Agency" informasiya agentliyi, PTV, "Dawn News", "A Plus" televiziya kanalları Azərbaycanın haqlı mövqeyini təbliğ edib, ordumuzun şanlı Qələbəsi haqqında xəbər, məqalə və reportajlar yayıblar.

Pakistanın Yaxın Şərq ölkələrindəki keçmiş səfiri Cavid Hafizin "Arabnews" qəzetində dərc olunmuş "Pakistan niyə Azərbaycanı dəstəkləyir?" sərlövhəli məqaləsində bildirilir ki, Türkiyədən sonra Azərbaycanın dövlət müstəqilliyini tanıyan ikinci ölkə olan Pakistan qardaş azərbaycanlılarla sıx və səmimi əlaqələr qurub. Rəsmi Bakı Pakistanın Cəmmu və Kəşmir, İslamabad isə Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında mövqeyini daim dəstəkləyib. Azərbaycan, eyni zamanda, 1996-cı ildən İƏT-də Kəşmir üzrə təmas qrupunun üzvüdür.

Diplomat yazır ki, Dağlıq Qarabağ ərazisinə sonradan köçürülən ermənilərin separatçı mövqeyi, Ermənistanın işğalçı siyasəti sonda iflasla nəticələnməli idi və belə də oldu.

# Azərbaycan Respublikası Konstitusiyasının 25 illiyi qeyd olunub

Noyabrın 12-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri və hakimləri Əsas Qanunun qəbul edilməsinin 25 illiyi münasibətilə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu, ilk milli Konstitusiyamızın müəllifi Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıb, məzarı önünə əklil və gül dəstələri qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə tər çiçəklər düzülüb.

Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsindən məlumat verilib.

Məlumatda qeyd olunub ki, Konstitusiya Məhkəməsində bu münasibətlə tədbir keçirilib. Tədbiri açan sədr Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin hakimlərini və Aparatın əməkdaşlarını təbrik edib. Bildirib ki, Konstitusiyanın 25 illiyi əlamətdar bir dövrdə qeyd olunur. Bu günlərdə xalqımız Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun şanlı qələbəsini bayram edir.

Diqqətə çatdırılıb ki, Ermənistan Respublikasının silahlı qüvvələrinin uzun illərdir işğal altında saxladıqları Azərbaycan torpaqlarında, ölkəmizə qarşı genişmiqyaslı hərbi təxribatlara başlaması dövlətimizin və xalqımızın Vətən uğrunda mübarizəyə qalxmasını zəruri etdi və Qarabağ savaşının yeni həlledici mərhələsi başlandı. Ordumuzun düşmənin təcavüzünü qəhrəmancasına dəf etməsi və əks-hücuma keçərək işğalçılara sarsıdıcı zərbə endirməsi xalqımızın qələbə əzminin nümayişi oldu. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu qısa müddətdə 300-ə yaxın yaşayış məntəqəsini, həmçinin 5 şəhər və 4 qəsəbəni, bir sıra mühüm əhəmiyyətli yüksəklikləri işğaldan azad etdi. Azərbaycan Ordusunun hərbi uğurları müharibənin nəticəsini müəyyənləşdirdi və Vətən müharibəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən qələbəni təsdiq edən tarixi bəyanat imzalandı.

Konstitusiya Məhkəməsinin sədri xatırladıb ki, dövlət müstəqilliyinin bərpa olunduğu ilk illərdə ölkədə bütün sahələrdə xaos yaşanırdı, Azərbaycan parçalanmaq təhlükəsi ilə üzləşmişdi. Belə bir mürəkkəb vaxtda xalqın hakimiyyətə dəvət etdiyi Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə, cəsarətlə həyata keçirdiyi əsaslı islahatlar respublikamızı inkişaf yoluna çıxardı, qanunların aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni milli Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratdı. Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Ölkəmizin Əsas Qanunu müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sahələrdə köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi bir sənəd kimi çıxış edir.

Sədr vurğulayıb ki, müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi. Ötən 25 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar Konstitusiyaya bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixlərində keçirilmiş referendumlar nəticəsində Əsas Qanunun mətninə əhəmiyyətli əlavələr və dəyişikliklər edilib.

Qeyd olunub ki, həmin əlavələr və dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da güclənməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının daha da genişlənməsindən irəli gəlirdi. Referendum yolu ilə Konstitusiyaya edilən əlavə və dəyişikliklərin əsas hissəsi insan hüquq və azadlıqlarının məzmununun genişləndirilməsinə xidmət edir. Bu istiqamətdə həyata keçirilən hüquqi islahatlar insan hüquq və azadlıqlarının daha səmərəli üsul və vasitələrlə müdafiə olunmasını, insan hüquqları və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlətin məsuliyyətinin artırılmasına yönəlib. Konstitusiya islahatları Azərbaycanın hüquq sisteminin inkişaf etmiş dövlətlərin hüquq sisteminə və beynəlxalq hüquq normalarına uyğunlaşdırılması, ölkəmizdə demokratikləşmə proseslərinin daha da genişləndirilməsi məqsədlərinə xidmət edib. Son referendumun nəticələri dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən, ölkəmizin dayanıqlı inkişafına və sosial rifahın təmin olunmasına yönələn siyasətin Azərbaycan xalqı tərəfindən birmənalı dəstəkləndiyini nümayiş etdirdi.

Sədr bildirib ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Konstitusiya Məhkəməsi fəaliyyət göstərdiyi illər ərzində qəbul etdiyi bir çox qərarlarda Konstitusiyanın əsasları, onun aliliyi və birbaşa qüvvəsi, respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəaları nəzərə alınmaqla mühüm hüquqi mövqelər formalaşdırıb. Konstitusiya Məhkəməsi həmçinin konstitusiya ədalət mühakiməsinin müasir tendensiyalarını davamlı olaraq izləyir və fəaliyyətində tətbiq edir.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlətimizin siyasi, iqtisadi və hüquqi əsaslarının gücləndirilməsi konsepsiyası çərçivəsində həyata keçirdiyi islahatlar ölkəmizin davamlı inkişafını təmin edir. Konstitusiya Məhkəməsi də, öz növbəsində, Konstitusiyanın aliliyinin, insan hüquq və azadlıqlarının, habelə ədalət ideallarının müdafiəsi işinə töhfə verməyə çalışır.

Tədbirin sonunda qeyd edilib ki, Konstitusiya Məhkəməsinin kollektivi Konstitusiya Günü münasibətilə torpaqlarımızın işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizə aparan ordumuza dəstək olaraq yaralı əsgərlərimizə dərman vasitələri göndərib, onların ailələrinə ərzaq payları çatdırıb.

# Tarixə səs salan Qələbə

## Müzəffər Ali Baş Komandan İlham Əliyev bu zəfərlə Azərbaycan dövlətçiliyinin ən şərəfli səhifələrindən birinin müəllifi oldu

*Əvvəli 1-ci səh.*

Cəbhənin elə bir istiqaməti olmadı ki, əsgərlərimiz hücum əməliyyatında ləngisinlər, düşmənin müdafiə mövqelərinin yarılması mümkün olmasın. Əsas olan odur ki, bu şanlı qələbəni Azərbaycan Ordusunun şəxsi heyəti, əsgərlərimiz, zabitlərimiz, gizirlərimiz qazandılar. Hansı hərbi vasitələrdən istifadə etmələrindən asılı olmayaraq, bu qələbə sevincini xalqımıza hərbçilərimiz yaşatdılar. Prezident İlham Əliyevin 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşdə dediyi kimi, bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir: *"Bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, eyni zamanda, operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir".*

### Şəhidlərin xatirəsi daim uca tutulacaq

Onu da xatırladaq ki, İlham Əliyev əks-hücum əməliyyatlarının başladığı ilk günlərdə, şiddətli döyüşlərin getdiyi bir vaxtda - sentyabrın 29-da Mehriban xanım Əliyeva ilə birlikdə yaralanmış hərbçilərlə görüşmüşdü. Döyüşlər bitəndən dərhal sonra da Ali Baş Komandanın Mehriban Əliyeva ilə birlikdə ilk qələbə təbrikini çatdırdığı insanlar hərbçilər oldu. Bu, Azərbaycan Prezidentinin hərbçilərə xüsusi münasibətinin, onlara yüksək diqqətinin növbəti təcəssümüdür.

Dövlət başçısının Vətən müharibəsində əldə edilən parlaq qələbədə hərbçilərin zəhmətini və fədakarlığını xüsusi qeyd etməsi, onların müalicəsi və xəstəxanadan sonrakı həyatı üçün bütün lazımi tədbirlərin görüləcəyini elan etməsi, hətta onlardan tibbi maskaları çıxarmağı xahiş edərək hamının bu qəhrəmanları üzdən tanımasını istəməsi Ali Baş Komandan kimi İlham Əliyevin hərbçilərə olan dərin hörmətini, həssas və olduqca səmimi münasibətini ifadə etdi.

Bu tarixi qələbənin qazanılmasında hərbçilərimizin yüksək vətənpərvərlik hisslərinə, döyüş əzminə malik olmaları böyük rol oynadı. Döyüşlər başa çatandan sonra Ermənistan mənbələri etiraf etdilər ki, Azərbaycan Ordusunun gücü qarşısında erməni əsgərlər cəbhənin bütün istiqamətlərində qaçıblar, kütləvi şəkildə fərarilik ediblər. Bəli, Azərbaycan əsgəri düşmənin üzərinə ölümdən belə çəkinmədən hünərlə, cəsarətlə yürüdü. Bu yolla şəhidlik zirvəsinə ucaldı.

Vətən yolunda şəhid olanların əziz xatirəsi daim uca tutulacaq, onların ailə üzvləri həmişə yüksək dövlət qayğısı ilə əhatə olunacaqlar. Onu da qeyd edək ki, Şuşanın azad edilməsi xəbərini Ali Baş Komandan məhz Şəhidlər xiyabanında çatdırmışdı. Bu xəbəri ilk eşitməyə məhz şəhidlərin haqqı kimi yanaşmışdı.

### Qələbənin tarixi aspektləri

44 günlük müharibədə Azərbaycanın qələbəsi bir neçə aspektdən də öz möhtəşəmliyi ilə tarixi əhəmiyyət daşıyır. Ən mühüm məsələlərdən biri odur ki, vaxtilə işğal nəticəsində torpaqlarını tərk edən həmvətənlərimiz artıq məcburi köçkün deyillər. Yaralı hərbçilərlə görüşdə Prezident İlham Əliyev bunu həm həmin insanların, həm də özünün həyatında ən xoşbəxt anların təzahürüdür adlandırdı. Bu, həqiqətdir ki, yurd nisgili ilə yaşayan məcburi köçkünlər hər zaman bu ifadədən xilas olmaq istəyiblər və müzəffər Ali Baş Komandan İlham Əliyev onların bu arzusunun həyata keçməsini təmin etdi.

Qələbənin digər mühüm tərəfi ondan ibarətdir ki, bütün dünya Azərbaycanın gücünə və Ermənistanın rəzil duruma salınmasına şahidlik etdi. Müharibələrdə kapitulyasiya aktının imzalanması olduqca mühüm hadisədir və tarix boyu unudulmur, xatırlanır. Necə ki, faşist Almaniyasının kapitulyasiyası üstündən 75 il keçsə də xatırlanır. Sonunda İlham Əliyevin şərtlərini qəbul edərək məğlubiyyət aktına imza atan baş nazir N.Paşinyan Ermənistanın və bütün erməni xalqının tarixinin ən biabırçı səhifəsini yazdı.

Bu qələbənin əsas mühüm tərəfi Prezident İlham Əliyevin 44 gün ərzində nümayiş etdirdiyi yüksək qətiyyət və beynəlxalq təzyiqlərə sinə gərməsi oldu. Haqlı olaraq Azərbaycan ictimaiyyəti İlham Əliyevin qətiyyətini zəfərimizin ən əsas şərtlərindən biri kimi qəbul edir. Döyüşlərin ilk günündən dünya erməniliyi Azərbaycana qarşı təzyiq rıçaqlarını işə saldı, BMT-də qətnamə qəbul etmək istədilər, İlham Əliyevə davamlı zənglər olundu. Hətta Prezidentdən müsahibə alan bəzi xarici KİV təxribatçı sualları ilə ermənipərəst dairələrin sifarişlərini yerinə yetirdilər.

Prezident İlham Əliyevin yaralı hərbçilərlə görüşdə dediyi kimi, 44 gün ərzində nə qədər zənglər oldu, nə qədər siqnallar göndərildi ki, dayanın. Lakin Azərbaycan Prezidenti bu müddətdə əvvəldən axıra kimi bütün dünyaya nümayiş etdirdi ki, onu və xalqımızı haqq yolundan döndərmək mümkün deyil. Bu baxımdan Vətən müharibəsində qələbə həm də Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinə, qalib dövlət kimi imicinin yüksəlməsinə böyük töhfə oldu.

Bu qələbə ilə Azərbaycan bütün dünyada erməni yalanlarını darmadağın etdi. Onsuz da beynəlxalq ictimaiyyət saxta erməni təbliğatına əvvəlkitək inanmırdı. Ermənistanın kapitulyasiyası isə "məzlum erməni xalqı" obrazına vurulan ən böyük zərbə oldu. Kapitulyasiyanı həmişə məğlub olan işğalçılar elan edirlər. Bu baxımdan dünya gördü ki, faşist Almaniyası ilə indiki Ermənistanın heç bir fərqi yoxdur.

Prezident İlham Əliyev xarici KİV-ə müsahibələrinin birində bildirmişdi ki, biz Qarabağ müharibəsini yox, döyüşləri uduzmuşuq. Bu zəfərlə İlham Əliyev bütün dünyaya sübut etdi ki, Azərbaycanın müharibədə uduzması mümkün deyil. Beləliklə, artıq Cənubi Qafqazda yeni siyasi reallıq və dövr yaranıb. Bu reallığa imza atan lider isə Azərbaycanı qalib edən İlham Əliyevdir. Yeni dövrün aparıcı qüvvəsi isə regionda söz sahibi kimi statusunu və mövqelərini qat-qat gücləndirən Azərbaycandır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Yeni dövrə yeni təşəbbüslərlə



Sivil dünyanın gözü indi ölkəmizdədir desək, yanılmarıq. Ölkə rəhbəri, Ali Baş Komandan İlham Əliyev 30 illik dözüm və intizardan sonra Azərbaycan torpaqlarını özünün qətiyyəti ilə düşməndən birdəfəlik təmizlədikdən sonra görüləcək işlərdən danışmağı da lazım bilir: "Müharibədən sonra Azərbaycanın, bölgənin yeni dövrü başlanacaq. Müharibə başa çatandan sonra nəinki bölgə, həm də dünya dəyişəcək. Hər kəs bizim gücümüzü gördü. Biz bu bölgədə yeni strateji mənzərə, strateji baxış yaratmalıyıq. Müharibədən sonra Azərbaycanın, bölgənin yeni dövrü başlanacaq".

Dövlət başçısının bu sözləri fəaliyyətimizin bütün sahələrində çalışan məsul işçilər üçün bir mesajdır, yeni dövrə yeni təşəbbüslərlə qədəm qoymağa çağırışıdır.

Elmlə təhsilin inteqrasiyası vəzifəsi hələ 296 il əvvəl Rusiyada Pyotr Akademiyasının yaradılması zamanı (8 fevral 1724-cü il) qoyulmuşdu. Elmin və universitetin mahiyyətini dərindən dərk edən böyük rus alimi M.V.Lomonosov deyirdi: "Akademik reqlament elə düşünülmüşdür ki, onun mahiyyəti nəinki öz alim sıralarını zənginləşdirib, sayını dəfələrlə artırmaq, hətta onları bütün dövlət üzrə yerləşdirməkdədir... Universitet Elmlər Akademiyasının dostu, onunla qan qardaşı olub Vətənin rifahı naminə birgə xidmət etməlidir. Universitetin nəzdində gimnaziyanın mövcudluğu vacibdir, çünki onsuz universitet sanki toxumsuz bir əkin sahəsidir". Ancaq bu plan tam həcmdə yerinə yetirilməmişdir.

Azərbaycanda elmlə təhsilin gerçək inkişaf impulsu, 100 illik yubileyinin təntənəli şəkildə 2019-cu ildə qeyd edildiyi Azərbaycan Dövlət Universitetinin yaradılması ilə bağlıdır. Məlum tarixi hadisələrin ucbatından ölkəmizdə elm və təhsil formal olaraq ayrı-ayrılıqda inkişaf etsə də, əslində bu proses bəzən təqdim edildiyi kimi, bir-birindən təcrid də olunmamışdır.

Yüzilliklər ərzində Azərbaycan elmi və onun uğurları dünya elmi nəticələrinə böyük təsir göstərmişdir. Bu uğurların bünövrəsində elmin bütün inkişaf mərhələlərində və alim nəsillərinin bir-birini əvəz etməsində elmi kadrların hazırlanması problemi mühüm bir halqa olmuşdur. Əlamətdardır ki, elmi kadrların hazırlanması məsələsində akademiyanın institutları və Azərbaycan universitetləri böyük pozitiv birgə iş təcrübəsi əldə etmişlər. Azərbaycan Milli Elmlər Akademiyasının yüzə yaxın üzvü müxtəlif təhsil müəssisələrində və universitetlərdə işləyir, üç yüzə yaxın alimi isə ali təhsil qurumlarında əvəzçilik üzrə müəllimlik edir, elmi işlə məşğul olur.

Əlbəttə, istərdik ki, bizim universitetlər Azərbaycan Milli Elmlər Akademiyasında öz elmi-tədris fəaliyyətlərini genişləndirsinlər. Məsələn, Azərbaycan Milli Elmlər Akademiyası Fizika İnstitutunun və Bakı Dövlət Universiteti Fizika fakültəsinin bazasında sonradan dövlət akkreditasiyası ala biləcək "Akademik Fizika elmi-tədris mərkəzi" fəaliyyət göstərə bilər. Ya da Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu ilə Dövlət İqtisadiyyat Universiteti bazasında əsas iqtisadi fənlərin tədrisi üçün magistrlərin və müəllimlərin hazırlanması üzrə "Akademik ali məktəb" yaradıla bilər. Düşünürük ki, AMEA-nın bir sıra institutlarında bilavasitə, xüsusilə mühüm elmi istiqamətlərin işlənməsi və müasir fundamental elmin müxtəlif sahələri üzrə mütəxəssislərin hazırlanmasına yönəlmiş "elmi-tədris mərkəzləri" (yaxud birgə elmi tədqiqat şöbələri, laboratoriyalar) yaradıla bilər. Məsələn Kataliz və Qeyri-üzvi Kimya İnstitutunda, Riyaziyyat və Mexanika İnstitutunda, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda, Botanika İnstitutunda və digər akademik institutlarda da belə elmi-tədris mərkəzlərinin mövcudluğu reallaşa bilər. Bu cür mərkəzlər yaradılarkən yeni istiqamətlərin inkişafı üçün adi alqoritm də uğurlu olur: ideya-istedadın rəhbərliyi altında kiçik bir tədqiqatçı kollektivi idarə etmək üçün şərait yaradılır, eyni zamanda, həmin kollektivin laboratoriya (yaxud elmi mərkəz) səviyyəsində formalaşdırmasını əsaslandırır.

Təbii mühitin aerokosmik problemləri üzrə elmi-tədris mərkəzinin yaradılması məsələsinin müzakirəsi məqsədəuyğun olardı (Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, Milli Aviasiya Akademiyası, Azərkosmos). Təbii mühitin öyrənilməsi bir sıra yaxın sahələrin iştirakını nəzərdə tutduğu üçün onların gücünün birləşdirilməsi çox vacibdir - bunlara "inteqrasiya olunmuş strukturlar" da deyilir.

Təbii ki, Azərbaycan Milli Elmlər Akademiyasının institutlarında fəaliyyət göstərən və bilavasitə gənc alimlərin hazırlanmasını həyata keçirən "baza kafedraları" və "kafedra filialları" kimi inteqrasiya olunmuş strukturların da həlledici əhəmiyyəti var. Bu baxımdan Qərbdə elm və təhsilin inteqrasiyasını götürdükdə görürük ki, bəzi universitetlərin fakültələri belə ənənəvi kafedralardan deyil, elmi-tədqiqat institutları bazasında olan kafedralardan təşkil olunmuşdur. 3-cü və 4-cü kurs tələbələri akademiyanın müvafiq aparıcı elmi-tədqiqat institutlarında təhsillərini davam etdirirlər. Gənc tədqiqatçıların yetişdirilməsində "fərdi yanaşma" belə inkişaf etdirilir. Hər bir elmi rəhbərin birdən üçədək tələbəsi olmalıdır.

Bu gün yeni dövr və yeni şərait elmlə təhsilin inteqrasiyasının daha səmərəli formalarının axtarılması vəzifəsini qarşıya qoyur.

Elm aləminə məlumdur ki, təxminən 60 il əvvəl (1957) SSRİ EA (hazırda Rusiya EA) Sibir bölməsinin təşkilinin təşəbbüskarı kimi çıxış edən akademiklər M.A.Lavrentyev, S.L.Sobolev, S.A.Xristianoviç belə bir məntiqli və sadə həqiqətə əsaslanırdılar: **"Birincisi,** müxtəlif istiqamətlərin alimləri çiyin-çiyinə işləməli, ev şəraitində də təmasda olmalı və həmişə ünsiyyət yaratmalıdırlar. Çünki ən maraqlı fikirlər və ideyalar həmişə elmlərin qovşağında meydana çıxır". Məsələn, riyaziyyatçılar radiotexnika, bərk cisimlər fizikası fənləri ilə daim təmasda işləyirlər. Maraqlıdır ki, SSRİ EA-nın Sibir bölməsində riyaziyyatla iqtisadiyyatın təmasında aparılan tədqiqatlar iqtisadiyyat elminin inkişafına olduqca böyük təsir göstərmişdir. Belə ki, istehsalat prosesləri və qiymətyaranmanın arasında olan qırılmaz əlaqələr müəyyən edilmişdir. Birgə elmi işləmələrin nəticələri, eləcə də fizika, energetika, idarəetmə nəzəriyyəsi, geologiya və başqa elmlərdə öz tətbiqini tapa bilər. "Riyaziyyatın gücü məhz bundadır. Bir elmi metod və anlayışları riyaziyyatın dili ilə təsvir edərkən, onları abstraktlaşdırarkən, tamamilə başqa bilik sahələrində bu metodlardan istifadə etməyə imkan yaranır" (akademik İ.A.Taymanov). Məsələn, mütəxəssislər yaxşı bilirlər ki, "operatorların spektral nəzəriyyəsi atom fizikası, elektrodinamika, akustika, hidrodinamika məsələlərinin əsaslı öyrənilməsinə imkan verir" (fizika-riyaziyyat üzrə elmlər doktoru A.A.Yakovlev).

**İkincisi,** tədqiqatçı işinin başlıca nəticəsi quru rəqəmlər yox, praktik fayda olmalıdır. Elm insanlara, hər şeydən əvvəl, həyatın keyfiyyətini yaxşılaşdırmaq üçün lazımdır. Həyat göstərir ki, fənlərarası elmi yanaşma bütün sosial-iqtisadi şəraitlərdə səmərəli işləyir və uğurla uyğunlaşır. Bu zaman fundamental elmi problemlərlə yanaşı, elmi fəaliyyətlə sıx bağlı olan bir çox başqa məsələlər də lazımi səviyyədə həllini tapır.

**Üçüncü** səbəb isə elmə mütləq "gənc qanın" lazım olmasıdır. Buna görə də akademiya təkcə "zubrlar qoruğu" deyil, həm də Akademik Universitetin yaratmalı olduğu "kadrlar kürəsi", gənc alimlər "fabriki" olmalıdır. Nəsillərin varisliyinin tam olması üçün isə tələbələri yalnız peşəkar pedaqoqlar deyil, *həm də alimlər özləri tədqiqatçıları öyrətməlidirlər.* Ən yaxşısı isə bu iş elmi layihələr üzərində birgə fəaliyyət prosesində görülməlidir.

Başqa sözlə, Azərbaycanda elmin sonrakı inkişafı və kadr potensialını kifayət qədər təmin etmək üçün Milli Elmlər Akademiyası nəzdində yüksək səviyyəli müasir tədris mərkəzinin - *Akademik Universitetin təşkilinin zəruriliyi* məsələsi gündəmdə durur. Bu həm də ona görə vacibdir ki, güclü elmi tədris bazasının yaradılması nəticəsində ölkəni dünya səviyyəsində təmsil etmək imkanı meydana çıxar və bu da proqressiv texnologiyaların yaradılması üzərindən qloballaşma prosesində aktiv iştirak etməkdə Azərbaycana yardım göstərər. Mahiyyətcə bu o deməkdir ki, ölkədə aktiv və səmərəli tədqiqat işi üçün gənclərə imkan yaratmaq lazımdır. Yüksək və qabaqcıl elm barədə onların arzuları xarici mərkəzlərlə bağlı olmamalıdır. Akademik Universitetin yaradılması yolunda uğur qaynaqlarının əsasını Azərbaycan Milli Elmlər Akademiyasında böyük iş və tədqiqatlar təcrübəsinə malik olan, elmin ön sıralarında gedən - energetika və su problemləri, fizika və nanotexnologiyalar, riyaziyyat, informasiya texnologiyaları, molekulyar biologiya və genetika, geologiya və geofizika, neft kimyası və neftayırma ... sahələri üzrə iri fundamental institutların mövcudluğu təşkil edir. Belə simbioz *(simbioz - iki növdən olan fərdlərin birgə yaşamasının elə bir formasıdır ki, bu zaman hər iki fərd xarici mühitlə bilavasitə qarşılıqlı təsirdə olur; xarici mühitlə münasibətlərin tənzimi hər iki orqanizmin fəaliyyəti ilə uyğunlaşır)* təhsil və elm sisteminə "fiztex metodu" adlandırılan üsulu daha asan tətbiq etməyə imkan verər. Bu metodun mahiyyətini isə şaxələnmiş ali məktəbəqədərki şəbəkə üzərindən fiziki-texniki məktəbləri, olimpiadaları, aparıcı məktəblərdə və ixtisaslaşmış liseylərdə alim və müəllimlərin qəbul imtahanı və onların fəaliyyətini əhatə edən istedadlı məktəblilərin məqsədəuyğun seçimi təşkil edir. Eyni zamanda təbiət-elmi və humanitar təhsil üzrə I-II kurslarda ümumi təhsilin fundamentallaşmasına diqqəti artırmaq lazımdır. İxtisaslaşmış fakültə tsiklləri çərçivəsində isə ikinci-dördüncü kurslarda mükəmməl peşəkarlıq hazırlığının aparılmasıdır. Bir sözlə, lisey-universitet, magistratura-doktorantura elmi tədris sistemi işlənməli və tətbiq edilməlidir. Bu zaman Elmlər Akademiyasının liseyinə uşaqların qəbulunu Azərbaycan Elmlər Akademiyasında işlənilmiş və bəyənilmiş metodika üzrə aparmaq lazımdır. Akademiya Universitetində Elmlər Akademiyası mütəxəssislərinin müəllim kimi tədris prosesinə cəlb edilməsi elm aşılayan alimlərin mühazirələrini dinləmək üçün tələbələrə imkan verər.

Bir məsələni də dəqiqliklə nəzərə almaq lazımdır ki, elm və texnologiya üzrə Akademiya Universiteti akademik texnoparkla birlikdə XXI əsr elmində Azərbaycanın ciddi iştirakını təmin edəcək. Həm də dünya səviyyəsində texnologiyaların inkişafına yönələcək yeni yanaşmanın cövhərini təşkil edəcək.

Universitetdə yeni elmi ideya və uğurların inkişafı üçün unikal akademik atmosfer yaradılmalıdır. Akademik Universitetin vacib vəzİfələrindən birini inkişaf etmiş xarici ölkələrdən - Almaniya, Fransa, Finlandiya, İsrail, Yaponiya, Rusiya, Koreya və digərlərinin səviyyəsində ideyalar və texnologiyalar mübadiləsinə xüsusi diqqət ayrılması təşkil etməlidir.

Akademik Universitetin üstünlüyü hər şeydən əvvəl elm və texnologiyada çevik və müasir ixtisaslara yiyələnmiş olan yeni nəslin tərbiyə edilməsindədir. Hazırkı universitet təhsili bu vəzifəni beynəlxalq səviyyədə tələb olunan şəkildə həyata keçirməyə qadir deyil. Amma yüksək səviyyəli maarif mərkəzi kimi Akademik Universitet milli qürur mənbəyinə çevrilərək başqa universitetlərin səviyyəsini yüksəltməyə də yardım edə bilər. Bu töhfə isə təkcə milli yox, həm də beynəlxalq əhəmiyyət daşıyacaq.

Bununla yanaşı, güman edirəm ki, Akademik Universitetin təşkili layihəsinin gerçəkləşməsi seçilmiş tələbələr və tədqiqatçılar üçün yeni tədris və tədqiqat proqramının yaradılmasını tələb edəcək. Bu zaman gənc alimlərin sosial-məişət və kommunal infrastruktur üzrə yüksək həyat keyfiyyətinin təmin edilməsinə xüsusi diqqət ayrılması vacibdir. Yəqin ki, Akademik Universitetin yüksək uğurunu təmin etmək üçün uyğun qanunların, qanunvericilik aktlarının dəyişilməsi və əlavələr edilməsi lazım gələcək. Nəhayət, ilk dövrdə qazanc götürmək motivi olmadan müəyyən kapital qoyuluşu zərurəti yaranacaq. Ümumiyyətlə, fənlərarası tədqiqatların və elmlə təhsilin inteqrasiyasının tam reallaşması ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamından asılıdır. Belə olan halda inanıram ki, dünyada yenilikçi alimlərin layihəyə marağına və praktik köməyinə ümid etmək olar.

Bu günün Azərbaycan reallığı isə hər kəsi - hərbçini də, fəhləni də, müəllimi də, elm və sənət adamlarını da ... öz işində müsəlləh əsgər olmağı, hər cür çətinliklə mübarizə aparmağı tələb edir.

***Akif ƏLİZADƏ,***
***AMEA Geologiya və Geofizika İnstitutunun direktoru, akademik***

# Vətən müharibəsindəki zəfərlər haqqında düşüncələr



Dünya tarixi ədəbiyyatında Vətən müharibəsi çox doğru olaraq vətənpərvərliklə əlaqədar izah edilir. Qeyd olunur ki, vətənpərvərlik tarixi kateqoriya olub ən mühüm milli-mənəvi dəyərdir. Bu bütün millətlərdə olmur. Vətənpərvərlik Vətənə olan sonsuz məhəbbətdir, hər bir vətəndaşın qəhrəmanlıq zirvəsinə yüksəlməyə hazır olmasıdır. Onun üçün qanını tökməyi, şəhid olmağı bacarmasıdır. Azərbaycan türklərinin Qarabağda erməni işğalına qarşı apardığı çoxillik mübarizəsi bütün cəhətləri ilə Vətən müharibəsidir. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev müsahibələrində dəfələrlə qeyd etmişdir ki, Azərbaycan Vətən müharibəsi aparır.

Vətənpərvərlik - həddən artıq yüksək olanda yaranan qarşısıalınmaz hissdir. Tarix dəfələrlə isbat etmişdir ki, əgər hər hansı bir xalq tamamilə vətənpərvərlik cəbhəsində birləşərlərsə, onlar yenilməsi mümkün olmayan gücə sahibdirlər. Bu kimi cəmiyyətlər, ölkələr və onların rəhbərləri belə bir vətənpərvərliklə qarşıda duran ən müşkül məsələləri belə həll edə bilərlər.

Ölkəmiz artıq 30 ildir ki, dünyanın ermənipərəst xristian siyasətçiləri tərəfindən Qarabağla əlaqədar düyünə salınmışdır. İlk olaraq hadisələri guya Dağlıq Qarabağda yaşayan, muxtariyyəti olan ermənilərin etnik münaqişəsi kimi təqdim etmişdilər. Məsələni əsassız olaraq yenidən, təkrar olaraq ermənilərin öz müqəddəratını təyin etməsi müstəvisinə çıxardılar. Millət neçə dəfə öz müqəddəratını təyin edə bilər? Bütün ölkələrdə yaşayan ermənilərdə də sanki "öz müqəddəratını təyinetmə xəstəliyi" var. Belə bir ifadə az qala zərbi məsələ çevrilib: "Hansı ölkədə erməni yaşayırsa, imkan olan kimi öz müqəddəratlarını təyin etməyə çalışırlar". Onlar Gürcüstanda, Türkiyədə, İranda, Rusiyada və digər ölkələrdə buna nail olmaq istəyirlər.

Ermənilər 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin humanist yanaşması ilə öz müqəddəratlarını təyin etmişlər. Erməni Milli Şurası 1918-ci ilin mayında Tiflisdə respublika elan etməyə gedərkən siyasi mərkəzi və torpağı yox idi. Onlar İrəvanın siyasi mərkəz kimi ermənilərə verilməsi haqqında Azərbaycan Milli Şurasına müraciət etdi. Azərbaycan Milli Şurası "bizim üçün qaçılmaz, acı bir həqiqət olsa da" çox sayda olan səbəblərin təsiri nəticəsində 1918-ci il mayın 29-da İrəvan şəhərinin siyasi mərkəz kimi ermənilərə verilməsi haqqında qərar qəbul etdi. Azərbaycan Cümhuriyyəti hökumətinin Baş naziri Fətəli xan Xoyski mayın 29-da Xarici İşlər naziri Məmməd Həsən Hacınskiyə yazırdı: "Biz ermənilərlə bütün mübahisələrə son qoyduq, onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik".

Burada çox maraqlı məsələ xüsusi qeyd edilməlidir. İrəvanın ermənilərə güzəştə gedilməsinin beynəlxalq amili ilə yanaşı, ikitərəfli münasibətlərin tənzimlənməsi məsələsini də diqqətdən kənarda qoymamaq lazımdır. Əslində qərarda İrəvanın ermənilərə güzəşt edilməsi "ermənilərin Azərbaycan türkləri ilə olan bütün mübahisələrə son qoyulması idi". Tarixi reallıq bundan ibarət idi ki, ermənilər razılaşmaya əməl etmədilər və Azərbaycan türklərinə qarşı ərazi iddialarını sonralar da davam etdilər, hətta müharibə vəziyyətinə gətirib çıxardılar.

Ermənilərin İrəvanın siyasi mərkəz olaraq onlara güzəşt ediləndən sonra da mübahisələrini, hətta müharibələrini davam etdirmələri Azərbaycan Milli Şurasının 29 may 1918-ci il qərarını qüvvədən salırdı. Qərara hər iki tərəf riayət etməli idi. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi "Ermənistan Azərbaycan torpaqlarında təşkil edilmiş dövlətdir".

Azərbaycan cəmiyyətində Vətən müharibəsi ərəfəsində - 2020-ci ilin sentyabr-noyabr mərhələsində fenomenal bir vətənpərvərlik meydana çıxmışdır. Azərbaycan cəmiyyətində bütün insanlar yerlərinin Vətən müharibəsi cəbhəsində-Qarabağda olduğunu bəyan edirdilər. Əslində Vətən müharibəsinin mahiyyətində "ölüm-qalım" məsələsi vardır. Dağlıq Qarabağın işğalı ilə əlaqədar Ermənistan Azərbaycanın suverenliyinə təcavüz etmişdir. Bizim xalqın tarixində yüksək vətənpərvərlik yaradacaq çoxlu şanlı səhifələr vardır. Azərbaycan türkləri böyük imperiyalar qurmuş, Xalq Cümhuriyyəti yaratmış, dünya tarixinin səhifələrində örnək olan mübarizə tarixi yazmışlar. İşğalçı dövlət bunlardan xəbərsiz deyil. Ermənilər isə "soyqırımı" nağılından başqa heç bir tarixə sahib deyillər. Soyqırımı iddiaları əzilmiş xristianların şərəfli-türk millətinin torpaqlarında ermənilərin yaşamaqla əlaqədar mürtəce fəlsəfəsinin əsasını təşkil edir. Piatrovskinin qeyd etdiyi kimi, "ermənilər qədim tarixlərinə görə olmayan tarixlərinə deyil, saxta tarix yazan tarixçilərinə minnətdar olmalıdırlar." Ermənilər türkləri tanıdıqlarından onların torpaqlarına göz dikmiş, yaratdıqları və yazdıqları tarixə xaincəsinə həsəd aparmış, sahiblənməyə çalışmışlar.

Ermənilərin və Ermənistanın tarixdən gələn və fasiləsiz davam edən bir amansızlıq sindromu var. Bu amansızlıq sindromu təsadüfən meydana gəlməmişdir. Tarix boyunca ermənilər yaşadıqları coğrafiyada əksər halda tabe vəziyyətində olmuş, onlarda həsəd virusu yaranmış, hakim xalqlara qarşı "məqsədə çatmaq üçün bütün vasitələr qəbul ediləndir" çağrışı ilə amansızlıq indeksi meydana çıxmışdır. Türklərdə olan yenilməz vətənpərvərlik ənənələrinin müqabilində bu mənfur millətin nəyi var? Terror qanunları ilə idarə olunan dövlətçiliyi. "Ən yaxşı türk ölü türkdür", "Türkü gördün öldür, bir nəfər erməniyə yer boşalsın" çağrışı.

Ermənistanda hakimiyyətin ermənilərdən tələbi budur: amansız ol, türklərə qarşı gülləyə heyfin gəlməsin. Əsirlər azacıq tabesizlik göstərərsə, öldür. Əsirlərə qul həyatını yaşat. Əsirlər içərisində zəhərləyici maddələri sınaqdan keçirmək olar. Ermənistanda hətta əsirlərin bədən əzalarının satılması halları da olub. Türk düşmənçiliyi siyasəti ermənilərdə əbədidir. Türk olub erməninin sözünə inanmaq, bilə-bilə özünü intihar etməkdir.

Vətən müharibəsində xalq Prezident İlham Əliyevin ətrafında sıx birləşdi. "Qarabağ Azərbaycandır!" şüarı hər bir azərbaycanlının həyat amalına və fəaliyyət proqramına çevrildi. Vətənpərvərliyin təzahürləri Vətən müharibəsinin ilk günündən başlayaraq şərəflə davam etməkdədir.

Çox qəribədir ki, Ermənistanda bir nəfər Azərbaycan türkü olmadığı halda ölkəmizdə 10 minlərlə erməni heç bir ayrı-seçkilik olmadan yaşayır. Ermənistan bizim məscidləri öz ölkəsində və Qarabağda dağıtdığı halda, Bakının mərkəzində erməni kilsəsi qorunub saxlanılır. Yurdumuzda yaşayan bütün millətlər Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini lənətlədi, Vətən müharibəsi cəbhələrində fəal iştirak etdilər. Əsgərlərimiz Vətən müharibəsində qəhrəmanlıqlar göstərdilər. Erməni işğalından azad edilən rayon və kəndlərin hər biri qəhrəmanlıq salnaməsidir.

Ermənistan cəbhədə Azərbaycan əsgərinin dəmir, keçilməsi mümkün olmayan qalxanı ilə qarşılaşdı. Azərbaycan Ordusu qələbələri ilə dünyaya tarixmizin yeni səhifəsini bəyan etdi. Azərbaycan əsgəri üçün qəhrəmanlıq adi bir hal oldu.

İşğalçı Ermənistan dəfələrlə total hərbi səfərbərlik elan etməsinə baxmayaraq, cəbhəyə göndərmək üçün əsgər tapa bilmədi. Məcbur olub döyüşə qocaları göndərdi. Vətən müharibəsinin başlanmasının ilk günlərindən Azərbaycanda model olacaq hərbi çağırış və səfərbərlik nümunəsi nümayiş edildi. Azərbaycanın hər yerində əhali hərbi səfərbərlik idarələrinə müraciət edir və cəbhəyə göndərilməsini xahiş yox, israrla tələb edirdilər.

Səfərbərlik idarələri vətənpərvərliyin nümayişinə çevrildi. Hətta əlilliyi olan vətənpərvərlər belə cəbhəyə göndərilmələrini israr edirdilər. Yaşı keçmiş olanlar da cəbhəyə getmək istədiklərini təkidlə bildirirdilər.

Erməniləri dəhşətə gətirən səhnələrdən biri Vətən müharibəsi cəbhələrində Azərbaycan əsgərlərinin komandirini qorumaq üçün özünü düşmən gülləsinin qabağına atmasıdır. Ermənistan mətbuatında cəbhədə komandirini qoruyan erməni əsgəri haqqında heç təsəvvür belə yoxdur. Yaralanmış Azərbaycan əsgərinin geri deyil, yaralı halda düşmənə doğru hücumda iştirak etməsi, yaşlı qadının pensiya puluna aldığı parçalardan Azərbaycanın üç rəngli bayrağını tikib qapısının ağzından keçənlərə paylaması çox böyük vətənpərvərlik hərəkatıdır.

Müdafiə sənayesi müəssisələri işçilərinin cəbhə üçün fasiləsiz olaraq işləmək təşəbbüsünü də bizim insanlar gündəmə gətirmişlər. Azərbaycan əsgərinin təminatı yüksək səviyyədə olsa da, cəbhəyə yaxın yaşayış məntəqələrində qadınların yemək hazırlayıb əsgərlərə paylaması, onlara yun corab toxuyan nənələrin təşəbbüsü hər cür təqdirə layiqdir. Azərbaycanda başlanmış vətənpərvərlik hərəkatı erməniləri dəhşətə gətirdi.

XX əsrin 70-ci illərinin silahları ilə müharibəyə başlayan Ermənistan qarşısında Azərbaycanın XXI əsrin modern ordusu ilə qarşılaşacağını heç xəyalına gətirməmişdir. Əhalinin bütün təbəqələri miqdarından asılı olmayaraq Müdafiə fonduna maliyyə yardımı etməyə başladılar və bu hazırda da davam edir. Vətən müharibəsi başlayan vaxtdan kütləvi vətənpərvərlik hərəkatı qan verilməsində də özünü göstərir. İncəsənət xadimlərinin, təbliğatçıların təhlükəyə baxmayaraq cəbhədə əsgərlərin görüşünə getmələri təqdir edilməli çox mühüm addımdır.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti, döyüşlərin gedişi haqqında verdiyi məlumatlar, xüsusən hərbi qənimətlərimiz və azad olunan yerlər haqqında şad xəbərlər çox mühüm vətənpərvərlik tərbiyəsi məktəbidir.

Dünyanın müxtəlif yerlərində yaşayan Azərbaycan türkləri də ölkəmizin Vətən müharibəsindəki haqq işimizi dəstəklədilər. Müxtəlif ölkələrdə, şəhərlərdə həmrəylik mitinqləri keçirilir, Azərbaycanın Vətən müharibəsi ilə əlaqədar həqiqətlərini beynəlxalq aləmə yayırlar.

Vətənpərvərlik hərəkatının ən mühüm nəticələrindən biri ondan ibarətdir ki, Vətən müharibəsinin bizim haqq işimiz olduğunu, torpağa, yurda sonsuz məhəbbəti təsdiq etmişdir. Vətəni müdafiə hərəkatında iştirak etmək artıq ümumxalq xarakteri almışdır.

Kütləvi qəhrəmanlıq cəbhədə və arxada özünü göstərir. Şəhidlərə münasibəti isə xüsusi qeyd etməliyik. Şəhidin sahibi vətəndir. Onların valideynləri "Vətən sağ olsun!" deyirlər. Kütləvi informasiya vasitələrinin əməkdaşları Vətən müharibəsi cəbhəsində atəşin altında verilişlər aparır. Hərbi müxbirlik bizdə yeni Vətən müharibəsi ilə əlaqədar yeni formada meydana çıxdı və bu mühüm vətənpərvərlik mənbəyidir. Vətənpərvərlik tərbiyəsini fasiləsiz olaraq davam etdirmək lazımdır.

***Həsənbala SADIQOV,***
***professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi***

# Erməni faşizminin süqutu

*Əvvəli 1-ci səh.*

Məsələn, İrəvanda olan Azərbaycan məscidini fars məscidi adı ilə islam dininə sayqı nümunəsi kimi göstərən erməni faşistləri işğal etdikləri ərazilərimizdəki məscidləri ya söküb satmış, ya da orada donuz saxlamışlar.

Məhz bu cür hiyləgər yolla onlar "cidanı çuvalda gizlətməyə" cəhd edirlər. Ancaq bunu həmişə etmək mümkün olmur. Məsələn, Qaregin Njdeyə Yerevanın mərkəzində heykəl qoyanda nə qədər cəhd etsələr də, onun kimliyini gizlədə bilmədilər. O, həmin Njdedir ki, Türkiyədə, Azərbaycanda dəhşətli cinayətlər törədib, Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra Avropaya qaçıb, Almaniyada faşistlər baş qaldıran kimi onların sıralarına daxil olub və özünün erməni faşizm nəzəriyyəsini yaradıb. İkinci Dünya müharibəsi zamanı ermənilərdən ibarət faşist cəza dəstələri təşkil edərək keçmiş SSRİ ərazisində yəhudilərə və digər xalqlara divan tutub. Həmin hadisələrin şahidləri deyirlər ki, Njdenin cəza dəstələri qəddarlıqda faşistləri geridə qoymuşdular. Bu dəstələr minlərlə günahsız insana dəhşətli işgəncələr vermiş və qətlə yetirmişlər. Əgər bu qatil başqa hər hansı bir xalqın nümayəndəsi olsaydı, onu unutmağa çalışardı. Ermənilər isə Njde ilə fəxr edirlər, milli qəhrəman adlandıraraq ona ölkənin paytaxtında 6 metr hündürlüyündə heykəl qoyurlar.

Paşinyanın Njdeni müdafiə etməsi təsadüfi deyil. Bu il MDB məkanında alman faşizmi üzərində Qələbənin 75 illik yubileyinin keçirilməsi barədə qərar qəbul olunmuşdu. Paşinyan da dəstədən geri qalmamaq üçün babasının İkinci Dünya müharibəsində almanlara qarşı döyüşməsi barədə sosial şəbəkədə paylaşım etmişdi. Əsl həngamə də bundan sonra qopmuşdu. Elə ermənilərin özləri arxivdən sənəd çıxarıb sübut etmişlər ki, Paşinyanın babası faşistlərə qarşı yox, faşistlər tərəfində vuruşub. Atalar demişkən, ot kökü üstündə bitər. Nikolun Gəncə, Bərdə, Tərtər və digər şəhərlərimizdə yaşayan dinc sakinlərin atəşə tutulması barədə əmr verməsi mənsub olduğu soyundan və söykəndiyi ideologiyadan irəli gəlir.

Sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı növbəti genişmiqyaslı təcavüzündən sonra erməni faşizminin iç üzü daha aydın şəkildə görünməyə başladı. Biz onların çirkin təbliğat aparmaqda mahir olduqlarına yaxşı bələdik. Ancaq bu dəfə apardıqları təbliğatla istədiklərinə tam nail ola bilmədilər. Çünki azğınlaşıb Azərbaycanın dinc əhalisini hədəf alan, kütləvi şəkildə qətl törədən ermənilərin iç üzünü dünya yavaş-yavaş görməyə başlamışdı. Daha doğrusu, "məzlum" ermənilərin hansı qəddarlığa qadir olduğunu hamı anlamışdı. Baş verən Gəncə, Bərdə, Tərtər terrorları dünyanın kütləvi informasiya vasitələrində dolaşdıqca "kor" gözlər, "kar" qulaqlar açılmağa, "yatmış vicdan"lar oyanmağa başlamışdı.

Bəs, bunun qarşılığında erməni faşistləri nə edirlər? Nə edəcəklər ki... Həmişə olduğu kimi, bu dəfə də haqqı deyənlər, yazanlar şantaj edilir, ölümlə hədələnir. Bu sırada kimlər yoxdur - özlərinin Şahnəzərovundan tutmuş, özgələrinin siyasətçi və jurnalistlərinəcən.

Artıq Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında apardığımız Vətən savaşı qələbə ilə sona çatmışdır. Prezidentimizin qətiyyəti və Ordumuzun qəhrəmanlığı sayəsində Ermənistan silahlı qüvvələri darmadağın edilmişdir. Məğlubiyyətini etiraf edən işğalçılar ağ bayraq qaldırmağa məcbur olmuşlar. İndi onlar acı məğlubiyyətlərinin acısını, Azərbaycan isə böyük Qələbənin sevincini yaşayır. Bu isə təkcə 30 illik işğalın sonu deyil. Həm də bir əsrlik erməni faşizminin süqutu deməkdir. Ən azından Azərbaycan ərazisində.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# COVID-19 həyəcanı

## Zaman bizdən məsuliyyətimizi artırmağı tələb edir

*Əvvəli 1-ci səh.*

Xəstə insanlar gəzib-dolaşdıqca daha geniş ərazilərə virusu yaymağa başlayırlar, həm də çox gəzdikcə çox virus yayırlar və ətrafdakı insanları, əşyaları yoluxdururlar.

Bütün dünya virusoloqları, o cümlədən, Ümumdünya Səhiyyə Təşkilatı, ziyalılarımız, həkimlərimiz, mətbuat, TV işçiləri 1 ilə yaxındır ki, ara vermədən hər gün insanlara elan edirlər ki, bu virusdan qorunmağın hələ ki, yeganə üsulu 3 sadə qaydaya əməl etməkdən ibarətdir. Hamı bu qaydaları əzbər bilir:

Maska taxmaq, məsafə saxlamaq, gigiyena qaydalarına əməl etmək!

Virusdan qorunmağın başqa bir sadə usulu (qaydası) da var:

Hərəkət etməmək və ya az hərəkət etmək. Bu üsul "Evdə qal" adlanır.

Bu qaydalar birlikdə karantin qaydaları hasab olunur. Ancaq nədənsə, hələ də çox insanlarımız (təəccüblü dərəcədə qəribədir ki, onların arasında, adi adamlarla yanaşı, hər yaşda olan hər peşə sahibi var: həkim, müəllim, fəlsəfə doktoru və s.) bu qaydalara ya heç əməl etmir, ya da yarımçıq əməl edirlər. Bunu hamımız gündəlik həyatımızda hər yerdə: küçələrdə, yollarda, həyətlərdə, nəqliyyatda, marketlərdə, parklarda, iş yerlərində və s. müşahidə edirik. Bu insanlar niyə belədirlər? Bunun səbəbini izah etmək istəmirik. Yalnız onu qeyd edək ki, karantin qaydalarına yarımçıq əməl etmək və ya heç əməl etməmək sonda eyni nəticəyə - xəstəliyin sürətlə yayılmasına səbəb olur.

Beləliklə, karantin qaydalarına əməl edib-etməməyindən asılı olaraq insanlarımız iki qrupa bölünür: məsuliyyətli insanlar və məsuliyyətsiz insanlar. Bu, insanlar arasındakı birliyi pozmaq deməkdir.

Prezident İlham Əliyevin dediyi sözləri, cəmiyyətimizin, insanlarımızın hər işdə hər zaman qalib olması, birliyi üçün çox vacib olan fikri burada təkrar etmək istəyirəm: Biz birlikdə güclüyük!

Məsuliyyətli insan olmaq cox sadədir: bunun üçün yalnız karantin qaydalarına əməl etmək kifayətdir. Onlara əməl etmək gündəlik zərurətə, həyat tərzimizə çevrilməlidir. Pandemiyanın bir ilə yaxın gedişi göstərir ki, COVID-19 özbaşına çəkilib getməyəcək və bizimlə bərabər yaşayacaq. Ondan həmişə qorunmalı olacağıq. Vaksin yaradılsa, problem öz həllini tapmış olacaq. Yəqin ki, bunun üçün ən azı 3-5 ay vaxt tələb olunacaq. Ona görə, vaksin tapılana qədər qaydalara əməl etməklə özümüzü, cəmiyyətimizi qorumalıyıq. İş ondadır ki, COVID-19 fərdi xəstəlik deyil, kollektiv xəstəlikdir və hətta tam şəkildə deyə bilərik ki, kütləvi xəstəlikdir. Bir adamın xəstələnməsi kifayətdir ki, etinasızlıq etdiyi halda bütün cəmiyyəti yoluxdursun. Məhz buna görədir ki, dövlətimiz müxtəlif karantin tədbirlərini görür və insanları maarifləndirmək üçün bütün vasitələrlə davranış qaydalarını təbliğ edir.

Polislərimiz də bu işə qarışmağa məcbur olublar, başqa işlərini buraxıb insanları maarifləndirməklə məşğuldurlar. Hələ Hippokrat andı içmiş həkimlərimizi demirik. Onlar kip skafandrın içində gecə-gündüz, fasiləsiz, istirahətsiz, yaxınlarından uzaqda, ölkəmizin hər yerində - ön cəbhədə və arxa cəbhədə çalışmaqdadırlar. Xəstələrin sayı artıqca onların yuxusuz gecələrinin sayı da artır. Onların vəziyyətini düşünün. Düşünməmək eqoizmdir. Bu xəstəliyin yayılmaması, müalicəsi üçün dövlətimiz nə qədər iş görür, vəsait ayırır və enerji-qüvvə sərf edir. Bunları qiymətləndirmək lazımdır. Hər kəs nəticə çıxarıb özünü qorumalıdır. Əslində qaydalara əməl etməklə, insan təkcə özünü yox, ətrafdakı yüzlərlə insanı qorumuş olur və qorumağa da borcludur.

İndi biz torpaqlarımızı işğal etmiş, zaman-zaman insanlarımızı qırmış, tükürpərdici işgəncələr vermiş, azğın düşmənin hücumunu dəf etməyə, onun bəşəriyyətə ləkə olan dağıdıcı, yırtıcı vəhşiliklərinin qarşısını almağa məcbur olmuşuq. Bunlar ön cəbhədə baş verir.

Bəs bizlər, arxa cəbhədəkilər nə etməliyik? İş ondadır ki, virusa yoluxan insanların sayı sürətlə artmaqdadır. İqlim şəraiti də buna təkan verir. Özü də bu say aysberqin görünən hissəsidir. Görünməyən hissə, yəqin ki, bundan xeyli çoxdur. Amma yenə də hər şey hər bir insanın məsuliyyətindən çox asılıdır. Yoluxma sayının artması o deməkdir ki, məsuliyyətsiz olanların, qaydalara əməl etməyənlərin sayı, həmçinin qaydalara əməl edənlərə də istehza ilə yanaşanlar hələ də var. Arxa cəbhədəki vəziyyət, sakitlik, əmin-amanlıq, hər birimizdən çox asılıdır. Biz gərək arxa cəbhəni qoruyaq ki, ön cəbhədəkilər rahat şəkildə vəzifələrini, işlərini tam yerinə yetirsinlər. Hamımız əl-ələ verib, məsuliyyətsiz insanlarımıza dönə-dönə izah etməliyik ki, karantin qaydalarına əməl etsinlər. Bu mütləqdir. Çünki biz ön cəbhə üçün arxa cəbhəni də qorumaliyiq.

Hamı nə vaxtsa az-çox fizikanı öyrənib. Fizika təbiətin ən ümumi qanunlarını araşdırır. Təbiətdə hər şey, bütün canlılar və cansızlar fizikanın qanunlarına tabedir. Fizika göstərir ki, hər bir sistemi xarakterizə edən parametrlər (kəmiyyətlər) var və həm də hər bir sistemin öz tarazlıq şərtləri mövcuddur. Cəmiyyət də bir sistemdir. Parametrlərin qiyməti xarici təsirlərdən asılı olaraq dəyişə bilər. Bu qiymətlər müəyyən həddi aşanda sistemdə tarazlıq pozular və o, dayanıqsız hala keçə bilər. Məsələn, dənizdə dalğa çox güclü olsa, qayıq aşa bilər. Körpünün üstündə yük çox olsa, o dağıla bilər və s. Bu, o deməkdir ki, COVID -19-a yoluxma sayı cox olarsa, acınacaqlı vəziyyət - böhran vəziyyəti yarana bilər. Həkim problemi, çarpayı problemi ortaya çıxar. İndiki vəziyyətdə həkimlərə ehtiyac coxdur, həkimlərin sayı artmır. Digər tərəfdən onlar da insandır, dincəlməyə, istirahətə ehtiyacları var. Çarpayıların da sayı sonludur. Bunları nədənsə məsuliyyətsiz, laqeyd insanlarımız anlamaq istəmirlər. Yoluxmalar isə artmaqda davam edir. Tarazlıq pozula bilər. İş ondadır ki, yoluxmaların sayı lazım olandan daha sürətlə artmaqdadır. Çünki küçədə, parkda insanların 90-95 faizi, marketlərdə və nəqliyyatda 30-40 faizi maska taxmır və məsafəni gözləmir. İş yerlərində də qaydaları pozanlar çoxdur. Biz hər bir adama virus mənbəyi kimi baxmalıyıq.

Hər bir ölkədə olduğu kimi, bizdə də səhiyyə sistemi, eyni zamanda, bu qədər çox xəstə sayına hesablanmamışdır. Aparılan təbliğatlar isə bəzi insanlara sanki təsir etmir. Müharibə vəziyyətində olan ölkəmizdə belə səhlənkarlıq heç cür yol verilməzdir. Belə olan halda yalnız bir məcburi yol qalır: karantin qaydaları sərtləşdirilsin, yoluxma sayında sürətlə artım davam etsə yüksək cərimələr tətbiq olunsun və lazım gəldikdə həbs tədbiri həyata keçirilsin.

Gündəlik yoluxma sayı 1000-i keçir. Bu, kifayət qədər böyük rəqəmdir, həm də unutmayaq ki, söhbət aysberqin görünən hissəsindən gedir. Rusiya ilə müqayisədə bu say 15000 - 16000 nəfər yoluxma deməkdir. Onu da deyək ki, pandemiyanın əvvəlindən bu günədək virus bir neçə dəfə mutasiyaya uğramış və daha təhlükəli olmuşdur. Gəlin hamımız bir olaq. Məsuliyyəti artıraq ki, güclü olaq! Məsuliyyətsiz insanlara çağırış edək və onları bu sadə qaydalara əməl etməyə yönəldək, bununla da ön cəbhəyə köməyimizi göstərək.

Zaman bizdən məsuliyyətimizi 5 qat, 10 qat artırmağı tələb edir!




***Şakir NAĞIYEV,***
***AMEA Fizika İnstitutunun "Nüvə və yüksək enerjilər fizikası" laboratoriyasının rəhbəri, fizika-riyaziyyat elmləri doktoru, professor***

***Yaşar HÜSEYNƏLİYEV,***
***Elmi Araşdırmalar və İnkişaf Departamenti, 1 nömrəli laboratoriyanın müdiri***

BAKU CABLE
GOKNUR

"Göknur-Bakı LTD" MMC-nin rəhbərliyi və kollektivi Ali Baş Komandan cənab İlham Əliyevi, Şanlı Ordumuzu və Azərbaycan xalqını Vətən müharibəsində qazanılan Qələbə münasibətilə təbrik edir!






# Paşinyana qarşı qiyam başladı

## On minlərlə insan iqtidarın istefasını tələb edir









*Əvvəli 1-ci səh.*

### Həbs dalğası davam edir

Etiraz aksiyalarında 100-dək insan yaralanıb. Polis yüzlərlə müxalifətçini həbs edib. Paşinyanın istefasını tələb edən müxalifət fəallarından Ermənistan milli təhlükəsizlik xidmətinin keçmiş direktoru, "Vətən" partiyasının sədri Artur Vanesyan "Çiçəklənən Ermənistan" partiyasının sədri Qaqik Tsarukyan, "Respublikaçılar" partiyasının nümayəndələri Eduard Şarmazanov, sabiq deputatlar Vaqram Baqdasaryan, Vardan Ayvazyan, Qeqam Petrosyan, Ayk Mamidjanyan, Karine Açemdilibyan, "Vətən" partiyasının nümayəndələri Arsen Babayan, Vardan Voskanyan, "Erkir media" telekanalının rəhbəri Qeqam Manukyan və "Daşnaksütyun" partiyasının nümayəndəsi İşxan Saqatelyan polis tərəfindən həbs ediliblər.

Bundan başqa, Ermənistanın Milli Təhlükəsizlik Xidməti ölkə parlamentinin sabiq vitse-spikeri Eduard Şarmazanovu qanunsuz toplantının təşkil edilməsi ittihamı ilə həbs edib. Şarmazanovun köməkçisi Qeqam Petrosyan deyib ki, Şarmazanovu 72 saatlıq həbs etmək barədə qərar qəbul edilib.

### Paşinyan tapıldı

Ermənistanın müharibədə faktiki təslim olmasına dair kapitulyasiya aktını imzalamasından sonra neçə gün idi ki, N.Paşinyanın harada olduğu bilinmirdi. Erməni mətbuatı baş nazirin ictimaiyyətin qəzəbindən qorxaraq bunkerdə və ya ABŞ səfirliyində gizləndiyini ehtimal edirdi. Dünən isə Ermənistan prezidenti Armen Sarkisyanla baş nazirin görüşü ilə bağlı məlumat yayıldı. Görüşdə müharibədəki məğlubiyyətdən sonra Ermənistandakı mövcud vəziyyət müzakirə olunub.

Müxalif "ARF Daşnaksütyun" partiyasının təmsilçisi İşxan Saqtelyan deyib ki, bir məqsədləri var və bu da Paşinyanı vəzifədən kənarlaşdırmaqdır: "Bu hadisə Nikolun tərzidir. Hər zaman təxribatlar həyata keçirəcək. Polislə qarşıdurmaya ehtiyac yoxdur və bir daha deyirəm ki, bu, Nikolun təxribatıdır. O, ölkəmizdə yenidən qarşıdurmalara səbəb olur. Bir dəfə onu ağıllı olmağa və insanlardan intiqam almamağa çağırdım. Partlayıcı maddəni atan isə Nikolun növbəti təxribatçılarından biri idi. Mən sizi təxribatlara uymamağa çağırıram".

Ermənistan müxalifətinin fikrincə, Paşinyanın hakimiyyəti təkcə Qarabağ müharibəsindəki məğlubiyyətlə bitmir və o, Ermənistan üçün həm iqtisadi, həm enerji, həm də nəqliyyat baxımından təhdid vəziyyəti yaradıb. Ona görə Ermənistanın təcrid olunması daha da dərinləşib. Digər tərəfdən, Ermənistandan əhalinin miqrasiya prosesi artıq yeni mərhələyə daxil olub. Bu gün ermənilər özləri qeyd edirlər ki, vaxtilə Ermənistandan əhali ədədi silsilə ilə baş götürüb qaçırdısa, artıq həndəsi silsilə ilə ölkəni tərk edir.

Belə vəziyyətdə Ermənistan əhalisinin yoxsulluq səviyyəsi də yüksəlib. Eyni zamanda ermənilər onun da fərqindədirlər ki, müharibədəki məğlubiyyət fonunda Ermənistanda sosial böhran daha da dərinləşəcək, habelə ölkənin iqtisadi iflası və təcridi güclənəcək.

### Məğlubiyyət səbəbinin açıqlaması

Nikol Paşinyan üzə çıxdıqdan sonra xalqa müraciət edərək Qarabağa dair üçtərəfli razılaşmanı imzalamasının səbəblərini açıqlayıb. Bildirib ki, sentyabrın 27-də başlayan müharibə ictimai məyusluğa və bir çox suallara gətirib çıxaran sənədin imzalanması ilə yekunlaşdı, indi məndən bu suallara cavab gözləyirlər: "Nəyə görə bu sənəd imzalandı? Bu o zaman baş verdi ki, Baş qərargah hər dəqiqənin çox mühüm olduğunu bildirdi və hərbi əməliyyatların dayandırılmasının lazım olduğunu dedi".

Baş nazir əlavə edərək deyib: "Bir çoxları deyir ki, əgər Hadrutla Şuşanı itirmişdiksə, o zaman nə fərqi vardı, Stepanakerti (Xankəndi-red.) də itirərdik. Əslində isə Stepanakertin itirilməsi dərhal Əsgəranın və Mardakertin (Ağdərə-red.) də itirilməsinə gətirib çıxaracaqdı. Bu şəhərləri müdafiə etmək üçün kifayət qədər döyüş qabiliyyətli qüvvələr də olmayacaqdı. Bu rayonların itirilməsi nəticəsində bizim müdafiə rayonlarımız düşmənin mühasirəsinə düşəcəkdi. 20 mindən çox əsgər və zabitimiz üzük kimi mühasirədə qalıb ya ölməli, ya əsir düşməli idi. Bundan başqa, Kəlbəcərin və Laçın rayonlarının da itirilməsi qaçılmaz olacaqdı".

Paşinyanın sözlərinə görə, komandirin ən mühüm vəzifəsi əsgərlər qarşısında döyüş vəzifəsi qoymaqdır. Lakin əsgər hadisələrin sonrakı inkişafına heç cür təsir edə bilmirsə, bu vəzifənin də öhdəsindən gələ bilməz və sadəcə olaraq həlak olacaq: "Mən 25 min əsgər və zabitimizin karyerasını və sağ qalmasını əsas tutdum".

### Arutyunyan erməni xalqını günahlandırır

Qarabağ separatçılarının lideri Araik Arutyunyan "Facebook"da birbaşa bildirib ki, əgər kimisə satqınlıqda günahlandırmaq lazımdırsa, onda bütün erməni xalqını günahlandırmaq olar. Arutyunyan qeyd edib ki, Azərbaycan Ordusu Talışı ələ keçirdikdən və Madagiz (Suqovuşan-red.) şəhərinə çatdıqdan sonra ermənilər döyüşmək istəməyiblər.

Onun sözlərinə görə, o zaman hərbçilərin bir hissəsi "Exhniker" rayonundan panik şəkildə geri çəkilmişdi və arxa cəbhəni təmin etmək üçün resurslar çatışmırdı. Bəzi bölmələr ön mövqeləri tutmaqdan imtina etdilər: "Mən qabaqda gedəcəyimi söylədim, amma onlar imtina etdilər. Ekspertlərin qiymətləndirməsinə görə, qələbə üçün 80-100 min adam səfərbər edilməli idi. Torpağı kim satdı? Biz bunu xalq olaraq birlikdə etmişik".

O əlavə edib ki, havadan, xüsusilə də pilotsuz uçan aparatlarla bağlı problemlər olub, lakin əsas səbəb ondan ibarətdir ki, əsgərlər tək buraxılıblar: "Sonda isə onların mühasirəyə düşməsi təhlükəsi yarandı, məhz buna görə sülh sazişi imzalandı".

Xatırladaq ki, Ermənistanda hərbi vəziyyətə baxmayaraq, müxalifət noyabrın 11-də Azadlıq meydanında mitinq təşkil edərək, ölkə rəhbərliyinin Qarabağla bağlı üçtərəfli bəyanat imzalamasına etiraz olaraq baş nazir Nikol Paşinyanın istefasını tələb edib. İclasdan sonra yığışan vətəndaşlar parlamentin binasına yürüş ediblər. Eyni zamanda "Çiçəklənən Ermənistan" fraksiyasından olan millət vəkilləri mitinq iştirakçıları ilə birlikdə parlament binasına yürüş ediblər. "Sputnik Ermənistan"ın verdiyi xəbərə görə, millət vəkilləri təcili iclas çağırmaq niyyətlərini açıqlayıblar. Yerevandakı etirazçılar Ermənistanın baş naziri Nikol Paşinyana, gecəyarısına qədər istefa verməsi üçün, ultimatum irəli sürüblər.

Parlamentin növbədənkənar iclasının keçirilməsi üçün lazımi sayda imza artıq toplanıb və parlamentin katibliyinə təqdim edilib. İclasın gündəliyi bəyanata əlavə olunub, deputatlar Dağlıq Qarabağa dair sonuncu sazişin ləğv olunmasını tələb ediblər. Lakin sonda "Daşnaktsütyun" partiyasının üzvü Geqam Manukyan bildirib ki, hakim "Mənim addımım" blokundan olan heç bir millət vəkili parlamentin binasına gəlməyib və onlar olmadan fövqəladə iclası baş tuta bilməz.

Ermənistanın keçmiş müdafiə naziri, hərbi cinayətkar Seyran Ohanyan isə Qarabağda atəşkəs qərarının düzgün olduğunu deyib. Ohanyan Ermənistan və Qarabağ ətrafında kifayət qədər mürəkkəb hərbi-siyasi vəziyyətin yarandığını və silahlı qüvvələrin rəhbərliyinin təklifi ilə həmin an müharibəni dayandırmağın düzgün qərar olduğunu vurğulayıb.

S.Ohanyan əlavə edib ki, müharibəni itirən ordu deyil, dövlət oldu. Qarabağla bağlı üçtərəfli bəyanat xoşagəlməz bir sənəddir və məsuliyyəti Ermənistanın hazırkı rəhbərliyi daşımalıdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***











# Arxa cəbhə



# Azərbaycan qazının hasilatında və ixracında heç bir çətinlik yoxdur

## Düşmən qlobal layihələrimizə dalandan həsrətlə baxmağa davam edir

Dünyada hökm sürən və ölkəmizdən də yan keçməyən koronavirus pandemiyası Azərbaycan qazının hasilatına mane ola bilmir. Belə ki, qazçıxaranlar virusla mübarizə üçün qarşıya qoyulan tələblərə əməl etməklə karbohidrogen yataqlarından mavi yanacaq hasilatını müvəffəqiyyətlə həyata keçirirlər. Qazın ixracı da ahəngdar şəkildə davam edir.

Ümumiyyətlə, istər pandemiya, istərsə də ölkəmizin ay yarım düşmənlə müharibə aparması Azərbaycan neftçilərinin əlini işdən-gücdən soyutmayıb. Həm dənizdəki, həm də qurudakı yataqlarda neft-qaz hasilatı öz qaydasında gedir. Azərbaycanın Vətən müharibəsində qazandığı böyük Qələbə neft və qazçıxaranları yeni uğurlara səsləyir.

Energetika Nazirliyinin məlumatına görə, cari ilin 9 ayında ölkədə keçən ilin müvafiq dövrünə nisbətən 5,9 faiz, yəni 1,5 milyard kubmetr artımla 27,5 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 8,7 milyard kubmetri "Azəri-Çıraq-Günəşli" və 13,3 milyard kubmetri "Şahdəniz" yataqlarından əldə olunub. SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) üzrə isə bu dövrdə 5,5 milyard kubmetr qaz hasil edilib.

Azərbaycan ölkə əhalisinin və iqtisadiyyatının mavi yanacağa olan tələbatını ödəməklə yanaşı, xaricə də qaz ixrac edir. Belə ki, 2006-cı ilin axırlarından Gürcüstana və bundan az sonra Türkiyəyə "Şahdəniz"dən çıxarılan qazın nəqlinə başlanıb.

Hazırda Gürcüstana qaz Cənubi Qafqaz Boru Kəməri (CQBK) ilə ixrac edilir. Bu kəmər marşrutu Səngəçal terminalından başlayaraq ölkəmizin ərazisində 13 rayondan keçir və Gürcüstanda yolunu davam etdirərək mavi yanacağı oradakı istehlakçılara çatdırır.

Energetika Nazirliyindən bildirilib ki, bu ilin 9 ayında Gürcüstana ixrac edilən qazın həcmi 1,6 milyard kubmetr olub.

Türkiyəyə isə mavi yanacağı TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) nəql edir. Genişləndirilmiş CQBK ilə kommersiya qaz həcmlərinin TANAP-a təhvil verilməsinə 2018-ci ilin iyununda başlanıb.

TANAP-ın fəaliyyətinin birinci ilində Türkiyə bu kəmərlə 2 milyard kubmetr Azərbaycan qazı tədarük edib. Ticari əməliyyatların ikinci ili bu il iyunun 30-da bitib və həmin tarixə kəmərlə nəql edilən qazın həcmi 6 milyard kubmetrə çatıb. Cari ilin yanvar-sentyabr aylarında bu boru xətti ilə Türkiyəyə 3,2 milyard kubmetr təbii qaz göndərilib.

Bu il qardaş ölkəyə 4 milyard kubmetr, gələn il isə 6 milyard kubmetr Azərbaycan təbii qazının nəql edilməsi nəzərdə tutulub. Ümumiyyətlə, TANAP-la ilk mərhələdə ildə 16 milyard kubmetr qazın nəqli gözlənilir ki, bunun da 6 milyard kubmetri Türkiyə, 10 milyard kubmetri isə Avropa ölkələri üçündür.

TANAP boru kəmərinin ikinci fazası keçən il noyabrın 30-da istifadəyə verilib, yəni kəmər TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) qovuşduğu məkana çatdırılıb. Beləliklə, TANAP qazın Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. Artıq TAP kəmərinə sınaq məqsədilə 21,4 milyon kubmetr qaz vurulub.

Beləliklə, erməni vandallarının neft-qaz kəmərlərimizə xələl yetirmək niyyəti də gözündə qaldı. Düşmən Azərbaycanın qlobal layihələrinə, böyük uğurlarına sıxışdırıldığı dalandan həsrətlə baxmaqda davam edir.

Hazırda Azərbaycan digər "düşmən"lə - koronavirus pandemiyası ilə mübarizə aparır. Bununla belə təbii qazın Cənubi Avropaya çatdırılmasına heç bir maneə yoxdur. SOCAR-ın rəsmi nümayəndəsinin bildirdiyinə görə, artıq bu ay TAP "Şahdəniz" yatağından hasil edilən qazın ildə 10 milyard kubmetrlik həcminin qəbulu üçün hazır olacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Şəhid ailələri və müharibə əlilləri üçün yeni sosial dəstək tədbirləri hazırlanır

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müalicə olunan hərbçilərlə görüşündə Vətən müharibəsində şəhid olmuş əsgər və zabitlərin ailə üzvlərinin və müharibə əlillərinin daim dəstəklə təmin olunmaları üçün verdiyi tapşırığa əsasən görüləcək tədbirlərlə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində iclas keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Ordumuz şanlı tarix yazaraq möhtəşəm tarixi Qələbə əldə etdi, torpaqlarımız erməni işğalından azad edildi. Cənab Prezidentimizin qeyd etdiyi kimi, bu Qələbənin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir. Müharibə zəfərlə başa çatandan sonra Ali Baş Komandanımızın ilk növbədə yaralı hərbçilərimizlə görüşməsi də onlara yüksək hörmət və ehtiramın, qayğının nümunəsidir.

Nazir bildirib ki, həmin görüşdə dövlət başçımızın tapşırıqlarına uyğun olaraq şəhid ailələrinin, müharibə əlillərinin həm maddi təminatının və həyat şəraitlərinin yaxşılaşdırılması, həm də məşğulluq məsələlərinin həlli istiqamətində bütün tədbirlərin görülməsi təmin olunacaq.

S.Babayev qeyd edib ki, bu il 1500 mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verilməsi işləri aparılır. Onlardan böyük əksəriyyəti artıq verilib və proses davam edir. Qələbəmizlə başa çatan Vətən müharibəsində şəhid olmuş insanların ailələrinin və bu müharibədə əlilliyə məruz qalmış şəxslərin də cənab Prezidentin tapşırığına əsasən mənzil və fərdi evlərlə, habelə müharibə əlillərinin avtomobillə təminat proqramları həyata keçiriləcək.

İclasda şəhid ailələri və Vətən müharibəsi əlilləri, habelə erməni terrorundan zərər çəkmiş mülki şəxslərlə bağlı aşağıdakı digər istiqamətlər üzrə yeni sosial dəstək tədbirlərinin həyata keçirilməsi ilə bağlı görüləcək işlər müzakirə olunub və müvafiq tapşırıqlar verilib:

Şəhid ailələrinin, müharibə əlillərinin və digər iştirakçılarının özünüməşğulluq proqramına növbədənkənar cəlb olunmaqla, onların proqram çərçivəsində kiçik bizneslərinin qurulması işlərinin daha da genişləndirilməsi;

Şəhid ailələrinin və müharibə əlillərinin maddi vəziyyəti nəzərə alınmaqla, ünvanlı sosial yardım proqramının onlar üçün daha əlçatan olması və bu proqramla əhatə olunmaları üçün bütün müvafiq dəstəyin təmin olunması;

Şəhid ailələrinin üzvlərindən və müharibə əlillərindən, müharibə iştirakçılarından işsiz və işaxtaran olan vətəndaşların məşğulluq məsələlərinin operativ həlli, onlara vakansiya məlumat bazasında olan iş yerlərinin təklif edilməsi, sosial tərəfdaşlarla birgə bu sahədə sıx əməkdaşlığın qurulması, DOST İş mərkəzi tərəfindən də onlar üçün uyğun, münasib vakansiyaların təqdim edilməsi;

Şəhid ailələrinin üzvlərinin, müharibə əlillərinin və digər iştirakçılarının məşğulluğunun təşviqi məqsədilə bu sahədə işəgötürənlər üçün stimullaşdırıcı tədbirlərə dair təkliflərin hazırlanması, əməkhaqlarının birgə maliyyələşdirilməsi proqramının əsasən bu istiqamətdə tətbiqi;

Müalicə kurslarından sonra müharibə əlillərinin bərpa xidmətləri ilə geniş şəkildə əhatə olunması, son illərdə müasir tələblərə uyğun qurulmuş reabilitasiya müəssisələrinin bu məqsədlə tam gücü ilə işə salınması;

Dövlət başçısının müvafiq Sərəncamına əsasən, Nazirliyin Protez-Ortopedik Bərpa Mərkəzində qurulmuş yüksək texnologiyalı protezlərin istehsalı sexində müharibə əlilləri üçün funksional protezlərin, bioprotezlərin istehsalına başlanması;

Müharibə əlillərinin reabilitasiya vasitələri ilə təminatı işlərinin operativ həyata keçirilməsi;

Erməni terroruna məruz qalmış mülki şəxslərə ehtiyac duyduqları sosial dəstəyin göstərilməsi, onların terror nəticəsində ziyan dəymiş, dağılmış kiçik müəssisələrinin bərpasına özünüməşğulluq proqramı çərçivəsində dəstək verilməsi, habelə erməni terroru nəticəsində heyvanları tələf olmuş mülki şəxslərə özünüməşğulluq proqramı çərçivəsində heyvanların alınıb verilməsi və s.

İclasda qeyd olunan istiqamətlərdə sosial dəstək tədbirlərinin təşkili və bu işlərin operativ və keyfiyyətli aparılmasına nəzarət məqsədilə işçi qrupların yaradılması qərara alınıb.

# 10 ayda ölkə üzrə 30,7 milyard manatlıq sənaye məhsulları istehsal olunmuşdur

Dövlət Statistika Komitəsinin məlumatına görə, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2020-ci ilin yanvar-oktyabr aylarında 30,7 milyard manatlıq və ya 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 4,5 faiz az sənaye məhsulu istehsal edilmişdir.

Azalma neft-qaz sektorunda məhsul istehsalının 6,1 faiz azalması hesabına baş vermiş, sənayenin qeyri neft-qaz sektorunda isə məhsul istehsalı 11,5 faiz artmışdır.

Sənaye məhsulunun 60,3 faizi mədənçıxarma sektorunda, 33,6 faizi emal sektorunda, 5,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 7,6 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 7,3 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 8,8 dəfə, metallurgiya sənayesi məhsullarının istehsalı 78,6 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 64,1 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 50,3 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 50,1 faiz, maşın və avadanlıqların istehsalı 41,4 faiz, kağız və karton istehsalı 34,2 faiz, geyim istehsalı 33,7 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 32,5 faiz, tikinti materiallarının istehsalı 26,4 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 19,1 faiz, tütün məmulatlarının istehsalı 18,3 faiz, kimya sənayesi məhsullarının istehsalı 13,2 faiz, poliqrafiya məhsullarının istehsalı 9,9 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 7,9 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 6,1 faiz, hazır metal məmulatlarının istehsalı 1,2 faiz artmış, qida məhsullarının istehsalı 1,3 faiz, neft məhsullarının istehsalı 2,2 faiz, elektrik avadanlıqlarının istehsalı 2,4 faiz, içkilərin istehsalı 9,0 faiz, mebel istehsalı 24,4 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 39,9 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 8,5 faiz artmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 3,5 faiz azalmışdır.

# Neftçalada üzüm bağlarından 428 ton məhsul yığılıb

Neftçalada bağbanlar üzüm sahələrindən 428 ton məhsul toplayaraq yığımı başa çatdırıblar.

AZƏRTAC xəbər verir ki, ötən il üzüm bağlarından 419 ton üzüm tədarük edən neftçalalı üzümçülər cari ildə də bağlarda bol məhsul yetişdiriblər. Yığıma mütəşəkkil başlayan bağbanlar cari təsərrüfat ilində becərdikləri 134,1 hektar üzüm sahəsindən 428,7 ton məhsul toplayıblar ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 52,4 ton və ya 13,9 faiz çoxdur. Hər hektarın məhsuldarlığı 32 sentner olub. Məhsulun çox hissəsi Aşağı Qaramanlı, Cəngan və Xolqarabucaq kəndlərinin üzüm plantasiyalarından yığılıb. Ən yüksək nəticəni isə Aşağı Qaramanlı kəndində fəaliyyət göstərən fermerlər qazanıblar.



# Hacıqabul pambıqçılıqdakı geriliyin daşını atır

## Payızlıq taxıl əkini davam edir

Deyirlər, döyüşdə əsgərlər, müharibədə isə bütün xalq iştirak edir. Bu sözdə böyük məna və məntiq vardır. Əgər arxa cəbhədə hər kəs öz işi ilə məşğul olmasa, ön cəbhə üçün də çətin olar. Ön cəbhədəki əsgər mütləq bilməlidir ki, onun ailəsi, yaxınları korluq çəkmir, həyatlarını normal davam etdirirlər.

Digər tərəfdən, arxa cəbhə ölkənin iqtisadi gücünü tənzimləyən mühüm sahədir. Ordunun silah-sursat, ərzaq, geyim və başqa vasitələrlə təchiz edilməsi birinci növbədə arxa cəbhənin üzərinə düşür. Ona görə də ölkəmizdə gedən Vətən müharibəsi dövründə də hər kəs, hər bir müəssisə, təşkilat öz işi ilə məşğul idi. Hər bir vətəndaş istəyirdi ki, qazanılan qələbəyə töhfə versin. Bunu Hacıqabul rayonunun timsalında da aydın görmək olar.

Rayonun Abdulabad inzibati ərazi dairəsi üzrə fermer Əlitehran Nəzərov indiyədək əkib-becərdiyi 10 hektar sahədən 63,8 (hər hektardan 63,8 sentner), Meyniman nümayəndəliyi üzrə torpaq mülkiyyətçisi Zəfər Adilli 2 hektardan 9 (hər hektardan 44, 9 sentner), Ələtli nümayəndəliyi ərazisində yaşayan sahibkar Kamil Şükürov 5 hektardan 20,9 ton (hər hektardan 41,8 sentner) pambıq yığmışlar.

Bütövlükdə rayon üzrə cari təsərrüfat ilində göstəricilər əvvəlki illərdəkindən qat-qat artıqdır. Xatırladaq ki, keçən il hər hektardan vur-tut 12 sentner pambıq əldə olunmuşdur. Bu isə ölkə üzrə ən aşağı göstərici idi. Rayonun yeni rəhbərliyi yaranmış geriliyi aradan qaldırmaq üçün təxirəsalınmaz tədbirlər həyata keçirdi. Kənd təsərrüfatı mütəxəssisləri, fermer, sahibkar və torpaq mülkiyyətçiləri ilə keçirilən müşavirədə yaranmış vəziyyət dərindən təhlil edildi, geriliyin aradan qaldırılması üçün tədbirlər müəyyənləşdirildi. Şum vaxtında aparıldı, koronavirus pandemiyası nəzərə alınaraq çiyid toxumu əkinçilərin qapısına daşındı, səpin kampaniyası keyfiyyətlə başa çatdırıldı. Bundan bir neçə gün sonra isə sahələrdə cücərtilər alındı. Becərmə işləri, alaq otlarının vurulması, kultivasiya, suvarma, gübrələmə, ziyanvericilərlə mübarizə tədbirləri də mütəşəkkilliklə keçirildi. Aqrotexniki tədbirlərə əməl edilməsi nəticəsində hər kolda kifayət qədər qoza formalaşdı. Sentyabrın birinci ongünlüyündə pambıq yığımına başlanıldı. Rəqəmlər sevindiricidir. Oktyabr ayı daxil olmaqla 260 hektar sahənin hər hektarından 26 sentner pambıq tədarük edilmişdir. Bu isə keçənilki göstəricidən iki dəfə çoxdur. Yığım davam edir.



Hazırda rayonda payızlıq taxıl əkini də diqqət mərkəzindədir. Taxıl əkilməsi nəzərdə tutulan 10 min hektara yaxın sahədə vaxtında şum qaldırılmış, yüksək reproduksiyalı toxum, mineral gübrə tədarük olunmuşdur. Bundan başqa, səpini optimal müddətdə başa çatdırmaq işinə kifayət qədər texnika cəlb edilmişdir. Noyabrın 3-dək 3 min 530 hektara buğda, 2 min 280 hektara arpa toxumu əkilmişdir. Səpin zamanı toxumla birlikdə hər hektara 100-120 kiloqram ammofos gübrəsi verilmişdir. Səpin davam edir. Bu isə deməyə əsas verir ki, Hacıqabul əkinçiləri taxılçılıqda da yüksək məhsul götürəcəklər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Erməni terrorundan əziyyət çəkən daha 66 nəfərə psixoloji kömək göstərilib



Sosial Xidmətlər Agentliyinin mütəxəssisləri terrordan zərər çəkmiş şəxslərlə, ailələrlə görüşüblər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin mütəxəssislərindən ibarət qrup Ermənistan tərəfindən dəhşətli terrora məruz qalmış yaşayış məntəqələrində əhali ilə görüşləri davam etdirir.

Hadisənin elə ilk günündən prosesə başlayan ixtisaslı peşəkarlardan ibarət qrup terrorun ağrı-acısını yaşayan, dərin sarsıntı keçirmiş daha 66 nəfərlə profilaktik söhbətlər aparıb. Bərdə və ətraf ərazilərin sakinləri olan həmin şəxslərin hər birinə psixoloji yardımlar göstərilib, psixo-maarifləndirmə işi aparılıb.

Eyni zamanda prosesdə könüllü iştirak edən 2 psixiator müayinələr nəticəsində ehtiyacı olan şəxslərə ilkin tibbi müalicə proseduru həyata keçiriblər.

Ümumilikdə hadisələr nəticəsində psixoloji yardıma ehtiyacı olanlar aşkarlanaraq qeydiyyata alınıb, məskunlaşdıqları ərazilər üzrə psixoloqlara müvafiq bildirişlər verilib. Terror qurbanı olmuş şəxslərin ailələrinin sosial vəziyyətlərinin qiymətləndirilməsi də aparılıb.

# İşğaldan azad olunan yurd yerlərinə kiçik biznesləri ilə qayıtmağa hazırlaşırlar

Onlar Müzəffər Azərbaycan Ordusunun erməni işğalından azad etdiyi ərazilərimizdən olan özünüməşğulluq proqramı iştirakçılarıdır.

Füzuli, Qubadlı, Zəngilan və Xocavənd rayonlarının sakinləri olan bu insanlar məcburi köçkün olduqları dövrdə proqrama cəlb edilərək aktivlərlə təmin olunub, öz kiçik ailə bizneslərini yaradıblar. Yaxın zamanda doğma torpaqlarına öz ailə biznesləri ilə qayıdacaqlarının sevincini yaşayırlar və ata-baba yurdlarında təsərrüfatlarını gələcəkdə daha da genişləndirəcəklərinə əmindirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramının icrası zamanı əlilliyi olan şəxslər, şəhid ailələri, ünvanlı sosial yardım alan ailələrin üzvləri və digər həssas qruplarla yanaşı, məcburi köçkünlərə də üstünlük verilir. Bu ilin ötən dövründə də proqrama cəlb olunanlardan 1330 nəfəri məcburi köçkünlər olub.

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi

## *açıq tender elan edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi agentliyin aparatı və struktur bölmələrdə istifadə olunacaq minik avtomobillərinin, mikro avtobusların və avtobusların satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 100 (bir yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi**
**H.hesabı: AZ88IBAZ38060019447403110206**
**VÖEN-i: 1405196831**
**Bank: Azərbaycan Beynəlxalq Bankının Nərimanov filialı**
**Kodu: 805540**
**VÖEN-i: 9900001881**
**Müxbir hesab: AZ03NABZ01350100000000002944**
**S.W.İ.F.T BİK: IBAZAZ2X**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması, son bir il üzrə riskli vergi ödəyiciləri ilə qarşılıqlı əməliyyatlarının olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); (31.09.2020-ci il tarixindən sonra alınmış arayış qəbul edilir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); (31.09.2020-ci il tarixindən sonra alınmış arayış qəbul edilir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); (31.09.2020-ci il tarixindən sonra alınmış arayış qəbul edilir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 02.12.2020-ci il saat 15:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 10.12.2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 11.12.2020-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi

## *açıq tender elan edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi agentliyin aparatı və filialları üçün digər maşın və avadanlıqların satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 100 (bir yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi**
**H.hesabı: AZ88IBAZ38060019447403110206**
**VÖEN-i: 1405196831**
**Bank: Azərbaycan Beynəlxalq Bankının Nərimanov filialı**
**Kodu: 805540**
**VÖEN-i: 9900001881**
**Müxbir hesab: AZ03NABZ01350100000000002944**
**S.W.İ.F.T BİK: IBAZAZ2X**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması, son bir il ərzində riskli vergi ödəyiciləri ilə qarşılıqlı əməliyyatlarının olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); (31.09.2020-ci il tarixindən sonra alınmış arayış qəbul edilir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); (31.09.2020-ci il tarixindən sonra alınmış arayış qəbul edilir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); (31.09.2020-ci il tarixindən sonra alınmış arayış qəbul edilir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 02.12.2020-ci il saat 15:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 10.12.2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 11.12.2020-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az Portalında 19.08.2020-ci ildə elan edilmiş xətt şəbəkəsində istifadə etmək üçün optik cihaz və alətlərin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "TOUCHESS" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "TOUCHESS" MMC arasında 16.10.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az Portalında 05.08.2020-ci ildə elan edilmiş 2020-ci il üçün GPON layihəsinin davam edilməsini və mövcud şəbəkənin baxım işlərinin görülməsini təmin etmək məqsədilə tələb olunan fiber optik mal materialların açıq tender üsulu ilə satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "TOUCHESS" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "TOUCHESS" MMC arasında 16.10.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az Portalında 12.08.2020-ci ildə elan edilmiş xətt təsərrüfatında istifadə olunacaq abunəçi qutularının satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "TOUCHESS" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "TOUCHESS" MMC arasında 16.10.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender gov.az Portalında 27.08.2020-ci ildə elan edilmiş "Bakı Telefon Rabitəsi" MMC-nin rabitə xidməti mərkəzlərində 2020-ci il ərzində xətt təsərrüfatında GPON layihəsinin tətbiqi ilə əlaqədar mal-materialların satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "Technity" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "Technity" MMC arasında 27.10.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az Portalında 19.08.2020-ci ildə elan edilmiş xətt təsərrüfatında istismar işləri üçün tələb olunan materialların satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "Aztelmaş" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "Aztelmaş" MMC arasında 20.10.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender gov.az Portalında 11.09.2020-ci ildə elan edilmiş "BTR" MMC-nin xidməti ərazisində olan EATS-də İnternet xidmətləri şöbəsi platformasının sabit elektrik enerjisi ilə təmini üçün 2 qrup (hər birində 24 ədəd, cəmi 48 ədəd) akkumulyator batareyası və onun aksesuarlarının (bağlantı elementləri daxil olmaqla) satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "Buta Supply" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "Buta Supply" MMC arasında 04.11.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az Portalında 27.08.2020-ci ildə elan edilmiş printer, skaner və surətçıxaran aparatların təmiri, ehtiyat hissələrinin yenisi ilə əvəz olunması, katriclərin dolumu xidmətlərinin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "Life Electroniks" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "Life Electroniks" MMC arasında 27.10.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender gov.az Portalında 09.09.2020-ci ildə elan edilmiş "BTR" MMC tərəfindən EATS-lərdə istifadə etmək üçün dizel generatorların (2020-ci il üçün) açıq tender üsulu ilə satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "Aktif Elektrik" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "Aktif Elektrik" MMC arasında 04.11.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az Portalında 01.09.2020-ci ildə elan edilmiş stansiya qurğularının istismarında tələb olunan PKSV stansiya naqilinin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "Bakinity Distribution" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "Bakinity Distribution " MMC arasında 27.10.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender gov.az Portalında 12.08.2020-ci ildə elan edilmiş GPON eskizlərinin tikintisi və istismarı üçün tələb olunan dəmir dirəklərin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "MANN" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "MANN" MMC arasında 05.11.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən rabitə avadanlıqlarının "Kotirovka sorğusu" üsulu ilə satın alınmasına dair müsabiqədə "Cənub Enerji Tikinti" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 12.11.2020-ci il tarixdə ƏDV daxil 33 185,59 (otuz üç min yüz səksən beş manat 59 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən "Bir mənbədən satınalma" metodu tətbiq edilməklə sintetik yağın satın alınması üzrə müsabiqədə "Lubristar" MMC qalib gəlmişdir.

Qalib gəlmiş təşkilat ilə ümumi dəyəri ƏDV daxil 352 255,49 (üç yüz əlli iki min iki yüz əlli beş manat 49 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

# "Azercell" Şuşada ilk 4G şəbəkəsini qurdu!

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu yeni tarix yazmağı bacardı, əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağımız bizə geri qayıtdı!

Azərbaycanın vətənpərvər şirkəti olan "Azercell Telekom" da şanlı qələbəyə öz töhfəsini verməkdədir. Sevinc və fəxrlə bildiririk ki, artıq Şuşada "Azercell"in ilk 4G şəbəkəsi fəaliyyət göstərir. İndi Azərbaycanın döyünən ürəyi sayılan Şuşadan 28 illik həsrətdən sonra vətəndaşlarımız, hal-hazırda orada olan əsgərlərimiz yaxınları ilə əlaqə saxlaya, həmçinin ən sürətli mobil internet və qabaqcıl kommunikasiya xidmətlərindən istifadə edə bilirlər.

Xatırladaq ki, hərbi əməliyyatların başladığı gündən etibarən işğaldan azad edilən bölgələrimizdə ilk olaraq "Azercell"in mobil şəbəkəsi fəaliyyət göstərməyə başlayıb. "Azercell"in bu doğma ərazilərdə quraşdırdığı radio baza stansiyaları LTE texnologiyasına aiddir.

Şirkət işğaldan azad edilmiş bütün tarixi ərazilərimizi sürətli şəkildə müasir mobil şəbəkə ilə əhatə etməyi, eləcə də tezliklə öz evlərinə qayıdacaq həmvətənlərimizi fasiləsiz rabitə və innovativ xidmətlərlə təmin etməyi qarşısına məqsəd qoyub. "Azercell"in Qarabağ və ətraf bölgələrdə qurmağa başladığı texniki infrastruktur və LTE şəbəkəsi bu ərazilərin sürətli inkişafına təkan verəcək.

"Azercell" Azərbaycanda heç bir ərazini bağlantısız qoymayacaq!

Qarabağ Azərbaycandır!

## "Azərişıq" ASC Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiya ilə yeni tikilmiş 35/ 10 kV-luq Yeni yarımstansiya arasında 35 kV-luq iki dövrəli ÖİN kabel xəttinin tikintisi işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

*Təkrar*

Tender 2 (iki) LOT üzrə keçirilir:

**LOT-1:** Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiya ilə yeni tikilmiş 35/10 kV-luq Yeni yarımstansiya arasında 35 kV-luq iki dövrəli ÖİN kabel xəttinin tikintisi işlərinin satın alınması (1-ci mərhələ) - 1000 manat

**LOT-2** Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiya ilə yeni tikilmiş 35/10 kV-luq Yeni yarımstansiya arasında 35 kV-luq iki dövrəli ÖİN kabel xəttinin tikintisi işlərinin satın alınması (2-ci mərhələ) - 1000 manat

**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namiq Heybətov, telefon: (012) 440-39-93 (daxili 92-19).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04 dekabr 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **14 dekabr 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **15 dekabr 2020-ci il saat 16:00-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsi ilə xüsusi çəkmələrin satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş müqavilələr və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər)

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı 300 manatdır.
Təşkilat: "Azərsu" ASC

**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 75 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.(İSO, QOST, EN)*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 08 dekabr 2020-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə 16 dekabr 2020-ci il saat 18:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Elektron satınalmanın açılışı 17 dekabr 2020-ci il saat 18:00-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə xüsusi geyimlərin satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş müqavilələr və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər)

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı 300 manatdır.
Təşkilat: "Azərsu" ASC

**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 75 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.(İSO, QOST, EN)*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 08 dekabr 2020-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə 16 dekabr 2020-ci il saat 18:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Elektron satınalmanın açılışı 17 dekabr 2020-ci il saat 18:00-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə fərdi mühafizə vasitələrinin satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş müqavilələr və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər)

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı 300 manatdır.
Təşkilat: "Azərsu" ASC

**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 75 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.(İSO, QOST, EN)*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 08 dekabr 2020-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə 16 dekabr 2020-ci il saat 18:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Elektron satınalmanın açılışı 17 dekabr 2020-ci il saat 18:00-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Radio-Televiziya Yayımı və Peyk Rabitəsi İstehsalat Birliyi *açıq tender elan edir*

*Təkrar*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT - 1. **Teleqüllə kompleksinin enerji təchizatının yanmayan kabellərlə əvəz olunmaqla rekonstruksiyası, regionlarda stansiyaları enerji ilə təmin edən elektrik veriliş xətlərinin, daxili elektrik təsərrüfatının əsaslı təmiri, dizel generatorlarının alınıb quraşdırılması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba "ASAN Pay" vasitəsilə köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Əlaqə telefonu: (mobil): (055) 400-95-07; (şəhər): (012) 498-77-80**
**Əlaqələndirici şəxs: Zöhrə Əfəndiyeva**
**Elektron poçt: info@teleradio.az**
**İştirak haqqı: LOT 1 üzrə 300 (üç yüz) manat**
**Rekvizitlər:**
**Hesab №: AZ29AZPO91015461200420100081**
**VÖEN: 9900037841**
**Bank: "Azərpoçt" MMC PF1**
**Kodu: 691011**
**VÖEN: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində olan bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **26 noyabr 2020-ci il saat 10:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **04 dekabr 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **07 dekabr 2020-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərenerji" ASC tərəfindən 22 avqust 2020-ci il tarixdə elan edilmiş **Mühərrik yağları, akkumulyator və avtomobil şinlərinin satın alınması** üzrə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilən açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **"Şurataz LTD" MMC** tenderin qalibi müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilat ilə ƏDV daxil **290 712,21 (iki yüz doxsan min yeddi yüz on iki manat 21 qəpik) AZN** məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi məhkəmənin əməkdaşı Hüseyn Hüseynzadəyə anası

**LEYLA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Rəfayıl Əhmədova qardaşı

**ƏMİRXAN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7410
Sifariş 2585
Qiyməti 40 qəpik